**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "Azərbaycan-Avropa İttifaqı ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Mehdizadə Mehri Rakiv qızı**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**“____” _______________ 2021-ci il**

**“Azərbaycan-Avropa İttifaqı ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri ” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060401 - Dünya iqtisadiyyatı**
**İxtisaslaşma: Gömrük işi**
**Qrup: 824**

**Magistrant**
**Mehdizadə Mehri Rakiv qızı**
**____________________ imza**

**Elmi rəhbər**
**i.e.n., dos. Allahverdiyeva Müslümat Allahverdi**
**__________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif**

**_______________________ imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**___________________imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Mehdizadə Mehri Rakiv qızı and içirəm ki, "Azərbaycan-Avropa İttifaqı ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCAN-AVROPA İTTİFAQI TİCARƏT ƏLAQƏLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ


### XÜLASƏ

**Tədqiqatın aktuallığı: Bu gün Azərbaycan-Aİ iqtisadi münasibətlərinin genişlənməsi ölkəmizin Avropa iqtisadi məkanına inteqrasiyasını sürətləndirir. Bu iqtisadi əlaqələr bu iki tərəfdaşın geosiyasi, sosial-iqtisadi maraqları baxımından perspektivlidir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi Azərbaycanın İttifaqı ilə ticarət əlaqələrinin mövcud vəziyyətini qiymətləndirmək və potensial inkişaf perspektivlərini müəyyənləşdirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işi qruplaşdırma, müqayisə, iqtisadi-statistik təhlil metodlarından istifadə edilərək, cədvəl və diaqramlarla təhlil edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatı zamanı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatlarından, Avropa Statistika Komitəsinin illik iqtisadi göstəricilərindən istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Mövzunun aktuallığı nəzərə alsaq, Azərbaycan dilində mənbələrin yetərsizliyi və ikincil tədqiqat mənbələrinin köhnəlməsi tədqiqatın ən başlıca məhdudiyyətləridir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Avropa İttifaqı ilə münasibətlərin genişlənməsi və inkişafı Azərbaycan iqtisadiyyatının da şaxələnməsinə əsaslı təsir göstərməkdədir. Tədqiqatın işinin nəticələri Azərbaycanla Aİ arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Azərbaycan-Avropa İttifaqı arasında iqtisadi-siyasi məsələləri, gələcək prioritetlərini özündə əks etdirən bu tədqiqat işi bir mövzu kimi universitetlərin iqtisadiyyat fakültəsində və dərsliklərdə istifadə edilə bilər.**



***Açar sözlər: Azərbaycan, Avropa İttifaqı, ticarət münasibətləri***

## CURRENT STATE AND DEVELOPMENT PROSPECTS OF AZERBAIJAN-EU TRADE RELATIONS

## SUMMARY

**The actuality of the subject: Today, the expansion of economic relations between Azerbaijan and the EU accelerates the integration of our country into the European economic space. These economic relations are promising in terms of geopolitical and socio-economic interests of these two partners.**

**Purpose and tasks of the research: The main purpose of the study is to assess the current state of trade relations with the Union of Azerbaijan and to identify potential development prospects.**

**Used research methods: The research work was analyzed by tables and diagrams using grouping, comparison, economic-statistical analysis methods.**

**The information base of the research: Annual reports of the State Statistics Committee of the Republic of Azerbaijan and annual economic indicators of the European Statistics Committee were used during the research.**

**Restrictions of research: Given the relevance of the topic, the main limitations of the research are the lack of sources in the Azerbaijani language and the obsolescence of secondary research sources.**

**The novelty and practical results of investigation: The expansion and development of relations with the European Union have a significant impact on the diversification of the Azerbaijani economy. The results of the study are of particular importance for improving economic relations between Azerbaijan and the EU.**

**Scientific-practical significance of results: This research work, which reflects the economic and political issues between Azerbaijan-EU, and its future priorities, can be used as a topic in the faculties of economics and textbooks of universities.**

***Keywords: Azerbaijan, European Union, trade relations.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **AİB** | Avropa İqtisadi Bölgəsi |
| **AQS** | Avropa Qonşuluq Siyasəti |
| **AQTA** | Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti |
| **ASTB** | Avropa Sərbəst Ticarət Birliyi |
| **ATƏT** | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BTC** | Bakı-Tbilisi-Ceyhan |
| **CQBK** | Cənubi Qafqaz Boru Kəməri |
| **CQD** | Cənub Qaz Dəhlizi |
| **CPA** | Fəaliyyət növləri üzrə məhsul təsnifatı |
| **Eurostat** | Avropa Statistika Mərkəzi |
| **GATT** | Tariflər və Ticarət üzrə Baş Saziş |
| **INOGATE** | Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **NAFTA** | Şimali Amerika Azad Ticarət Assosiasiyası |
| **NATO** | Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| **SSRİ** | Sovet Sosialist Respublikalar İttifaqı |
| **ŞQ** | Şərq Tərəfdaşlığı |
| **TACIS** | Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım |
| **TANAP** | Trans-Anadolu Təbii Qaz Boru Kəməri |
| **TAP** | Trans Adriatik Boru Kəməri |
| **TƏS** | Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi |
| **TRACECA** | Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |

# MÜNDƏRİCAT


**GİRİŞ........................................................................................................ 8**

**I FƏSİL. MÜASİR DÖVRDƏ AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA TİCARƏT ƏLAQƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ.................. 11**

1.1. Azərbaycan Respublikasının iqtisadi maraqlarına Aİ-nin təsiri ....................... 11

1.2. Aİ ilə AR-in ticarət əməkdaşlığının prioritet məsələləri ................................. 18

1.3. Azərbaycan Respublikasının ÜTT-ə daxil olması danışıqları prosesində Avropa İttifaqının rolu ........................................................................................ 28

**II FƏSİL. Aİ-NİN VAHİD AZƏRBAYCAN TƏSƏRRÜFATI MƏKANININ FORMALAŞMASI ŞƏRAİTİNDƏ TİCARƏT ƏLAQƏLƏRİNİN STATİSTİK TƏHLİLİ........................................................................................ 38**

2.1. Aİ-nin xarici ticarət əməliyyatlarının statistik uçotunun iki sistemi................ 38

2.2. Aİ çərçivəsində ticarətin coğrafi və əmtəə strukturunun təhlili ...................... 44

2.3. Aİ ölkələrinin üçüncü ölkələrlə ticarət əlaqələri və AR-in bu əlaqələrdə yeri........................................................................................................ 51

2.4. Aİ ilə AR-in ticarət göstəricilərinin fərqlənməsinin əsas səbəbləri.................. 68

**III FƏSİL. Aİ İLƏ AZƏRBAYCAN TİCARƏT- İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF TƏMAYÜLLƏRİ................................................ 73**

3.1. AR və Aİ ticarət əlaqələrinin strukturunda dəyişikliklər................................. 73

3.2. AR və Aİ əməkdaşlığının perspektivləri və əsas təmayülləri.......................... 81

**NƏTİCƏ VƏ TƏKLİFLƏR........................................................................ 86**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.......................................................... 88**

Cədvəllərin siyahısı......................................................................................... 93

Diaqramların siyahısı...................................................................................... 93

# GİRİŞ

**Mövzunun aktuallığı:** Azərbaycan müasir dünya iqtisadi sistemində əsas yerlərdən birini tutur, çünki təkcə böyük təbii ehtiyatlara, faydalı qazıntı ehtiyatlarına deyil, həm də əhəmiyyətli elmi və texniki potensiala malikdir. Müstəqillik qazandıqdan sonra Azərbaycanın xarici iqtisadi əlaqələri dinamik inkişaf edərək, əhatə dairəsi, coğrafiyası və iqtisadiyyatının quruluşu baxımından genişlənməyə başladı.

Azərbaycan və Avropa İttifaqı arasında münasibətlər 1991-ci ildə başlamışdır. Müstəqilliyinin ilk illərində Azərbaycanda hökm sürən siyasi-iqtisadi qeyri-sabitliyi aradan qaldırmaq üçün Avropa İttifaqı kimi böyük iqtisadi güc ilə münasibətləri yaxşılaşdırmağa böyük ehtiyac var idi. 1991-ci ildən etibarən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli əsasda inkişaf etdirilmişdir. Xüsusilə Aİ ilə Azərbaycan arasındakı münasibətlərin inkişafında TACIS, TRACECA, INOGATE və ECHO kimi proqramlar böyük rol oynamışdır. Həmin layihələr Azərbaycanın müasir Avropaya inteqrasiyasında mühüm rol oynamışdır.

Tədqiqat çərçivəsində Azərbaycanın Aİ-yə inteqrasiya prosesinə necə daxil olduğu, Azərbaycanın Aİ üçün əhəmiyyəti və qarşılıqlı ticarət münasibətləri, tərəflərin bu münasibətlərdən əldə etdiyi nəticələr və gələcək inkişaf perspektivləri təhlil edilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycan-Aİ arasında ticarət münasibətlərinin xüsusilə neft sektoru üzərində qurulması Azərbaycan iqtisadiyyatının digər sahələrinin inkişafına maneə olan əsas səbəblərdəndir. Tədqiqat işində bir sıra alimlərin, iqtisadçıların elmi əsərlərindən istifadə edilmişdir. Abdullayev A., Bayramov V., Əliyev T., Hüseynova H., İbrahimov R., Musayev A., Akçay B., Göçmen İ., Karluk R., Seyidoğlu H. və d. Azərbaycan ilə Aİ ölkələri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini və zəruriliyini vurğulayırlar. Bu baxımdan tədqiqat işində münasibətlər daxilində yaranan problemlərin həlli istiqamətində bir sıra təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqat işinin əsas məqsədi Azərbaycan və

Avropa İttifaqı arasında ticarət əlaqələrinin müasir vəziyyətini nəzərdən keçirmək və onların gələcək inkişaf perspektivlərini müəyyən etməyə çalışmaqdır. Tədqiqat işində qarşıya qoyulmuş məqsədə çatmaq üçün Azərbaycan və Aİ arasında ticarət əlaqələrinin əsas inkişaf istiqamətlərini nəzərdən keçirmək, qarşılıqlı iqtisadi inteqrasiya maraqlarının qiymətləndirmək, Avropa İttifaqı çərçivəsində çoxtərəfli əməkdaşlığın inkişaf problemlərinin öyrənilməsi, Azərbaycanın ÜTT-ə daxil olması prosesinin araşdırılması və Aİ-nin bu prosesdə mövqeyinin müəyyənləşdirilməsi, Azərbaycan və Aİ-nin ticarət göstəricilərinin qarşılıqlı müqayisə edilərək təhlili, Azərbaycan və Aİ arasında ticarət əlaqələrinə üçüncü ölkələrin təsirinin araşdırılması əsas vəzifələrdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti Azərbaycan-Avropa İttifaqı arasında iqtisadi əməkdaşlıqdır. Bu baxımdan dissertasiya işinin predmeti Azərbaycan Respublikasının Avropa iqtisadi məkanına inteqrasiyasının möhkəmləndirilməsinin nəzəri, metodoloji və praktiki məsələlərinin və Aİ-nin Azərbaycanla iqtisadi əməkdaşlığına təsir edən amillərin təhlil edilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsidir.

**Tədqiqat metodları:** Tədqiqatın praktik və nəzəri əhəmiyyətliliyi baxımından düzgün tədqiqat metodlarının tətbiqi və bunun üçün əldə edilən informasiya bazasının keyfiyyəti və yetərliliyi vacib məsələdir. Tədqiqat işində müşahidə, müqayisə, iqtisadi təhlil və analiz-sintez, iqtisadi-statistik təhlil və qruplaşdırma metodlarından istifadə edilib. Azərbaycan və Avropa İttifaqı arasındakı iqtisadi əlaqələri, perspektivləri, həmçinin problemləri müəyyənləşdirmək üçün müşahidə metodundan istifadə edilməsi vacibdir. Azərbaycan ilə Avropa İttifaqı arasındakı ticarət əlaqələri ilə yanaşı ölkəmizin və Aİ-nin ayrı-ayrılıqda iqtisadi göstəriciləri analiz edilərək riyazi və statistik metodlar, cədvəl və diaqramlar əks olunub.

**Tədqiqatın informasiya bazası:** Bu metodların son 5 ilin statistik məlumatlarına və son 10 ilin məqalə, kitab və dərsliklərindən əsaslanır. İstifadə olunan məqalə, monoqrafiya və dərsliklər əsasən 3 dildə: İngilis, Azərbaycan və Türk dillərindədir. Bundan əlavə tədqiqat işinin yazılmasında internet resurlarından da istifadə edilmişdir. Burada əsas məqsəd müxtəlif ölkələrin və millətlərin iqtisadi

proseslərə baxış bucağını öyrənmək, oxşarlıqları və fərqləri müqayisə etməklə, tədqiqatın praktik və nəzəri əhəmiyyətliliyi artırmaqdır.

**Tədqiqatın məhdudiyyətləri:** Avropa İttifaqı ilə münasibətlərin nəzəri əsaslar üzrə Azərbaycan dilində məlumatların yetərsizliyi araşdırmadakı əsas çatışmazlıq sayılır. Bununla yanaşı ikincil tədqiqatların müəyyən hallarda təhrif edilməsi və köhnəlməsi ilə birlikdə mövcud qlobal bazarın aktual tendensiyalarının əks etdirə bilməməsi tədqiqatın məhdudiyyətlərindən biridir. Bu məhdudiyyətin aradan qaldırılması üçün əsasən birincil tədqiqat mənbələrinə müraciət olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Avropa İttifaqı, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı böyük enerji layihələri, habelə ölkə iqtisadiyyatının liberallaşdırılması və modernləşdirilməsində yardım və investisiya təmin edən Azərbaycanın əsas tərəfdaşlarından biridir. İttifaqın Azərbaycanla münasibətləri, xüsusən enerji, nəqliyyat və iqtisadi təhlükəsizlik sahəsində transmilli və regional fəaliyyətdən ibarətdir. Bu hər iki tərəfin maraqlarına uyğundur və bu gün də davam etdirilir. Bu baxımdan bu dissertasiyanın hazırlanması aktual məsələlərə yeni yanaşma baxımından faydalı olacaqdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Əldə edilmiş nəticələr əsasında Azərbaycan və Aİ arasında iqtisadi əməkdaşlığının inkişafı və gələcək perspektivləri ilə bağlı proqram, layihələrin həyata keçirilməsini özündə əks etdiri. Bu baxımdan tədqiq olunan mövzular Azərbaycanın Avropa İttifaqı ilə keçmişini, inkişaf istiqamətlərini və digər iqtisadi-siyasi məsələləri, gələcək prioritetlərini özündə əks etdirən bir mövzu kimi dərsliklərdə istifadə edilə bilər.

# I FƏSİL. MÜASİR DÖVRDƏ AVROPA İTTİFAQI İLƏ AZƏRBAYCAN ARASINDA TİCARƏT ƏLAQƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

## 1.1. Azərbaycan Respublikasının iqtisadi maraqlarına Aİ-nin təsiri

Sovetlər Birliyinin dağılması və Soyuq müharibənin bitməsi nəticəsində yeni regional münasibətlər sistemi formalaşmağa başladı. Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyinin bərpa olunması, yeni sosial-iqtisadi çevrilişin həyata keçirilməsi, müstəqil iqtisadi siyasət, ictimai-siyasi idarəetmə sistemi formalaşdıraraq rəqabət qabiliyyətli iqtisadiyyatın qurulması, demokratik dövlətin formalaşması və dünya iqtisadiyyatına inteqrasiyası onu bu yeni münasibətlər sisteminin iştirakçısına çevirmişdir. Ümumilli lider Heydər Əliyevin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu, investisiyaların inkişafı və milli iqtisadiyyatın maliyyələşdirilməsi üçün ərazi bütövlüyünün təmin edilməsi, bazar iqtisadiyyatına keçid, dövlətin hər bir vətəndaşının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün qarşıya qoyduğu məqsədlər uzun illər ərzində dövlətin strateji inkişaf planı kimi fəal şəkildə işlənib hazırlanmışdır. Həmçinin Azərbaycanın yerləşdiyi ərazinin əlverişli geosiyasi və geostrateji imkanları, dünya iqtisadiyyatına inteqrasiyası və həm qonşu, həm də digər ölkələrlər əlaqələrində balanslı siyasəti şərtləndirir. 1991-ci ilin axırlarında hüquqi cəhətdən varlığına son qoyulan SSRİ özündən sonra həlli çətin olan bir sıra problemlər də qoyub getdi. Onlardan biri də Qarabağ münaqişəsi idi.

Azərbaycanın müasir daxili və xarici siyasətində xüsusi yeri olan Qarabağ problemininin ölkənin siyasi həyatında və beynəlxalq münasibətlərində həlledici rol oynayır. Digər tərəfdən Qarabağ münaqişəsi, ölkəsinin 20%-i Ermənistan tərəfindən işğal edilmiş və 1 mln. qaçqına malik olan Azərbaycan Respublikasının, xüsusilə beynəlxalq təşkilarla əlaqələr də daxil olmaqla, xarici siyasətinin əsas elementlərindən birini təşkil edir.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərini aşağıdakı kimi qeyd edə bilərik (Almazova Ş. 2015. s.29):

1. Respublikanın müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi;

2. Azərbaycanın dövlətçilik mənafeləri uyğun gələn dövlətlərlə sıx əlaqələr yaratmaq və beləliklə respublikamızın beynəlxalq sistemdə öz mövqeyini gücləndirmək;

3. Xarici iqtisadi siyasəti milli iqtisadi maraqlara uyğun həyata keçirmək və dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək;

4. Dünyada baş verən münaqişələrin və qarşıdurmaların aradan qaldırılması;

5. Dünya ölkələri ilə humanitar, mədəni əlaqələr qurmaq, beynəlxalq qurumlarla aktiv əməkdaşlıq etmək.

Hər bir ölkənin beynəlxalq arenadakı gücü və əsas prioriteti iqtisadi vəziyyətidir. Müasir iqtisadçılar düşünürlər ki, iqtisadiyyatın dinamik və davamlı inkişafının ən mükəmməl və əlverişli modeli azad bazar iqtisadiyyatıdır.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişafında əsas vəzifə və prinsiplər müəyyən edilmiş və ardıcıl şəkildə həyata keçirilmişdir. Bu prinsiplər aşağıdakılardır:

- Milli iqtisadi resursların və iqtisadi imkanların düzgün şəkildə qiymətləndirilməsi, səfərbər edilməsi və effektiv şəkildə idarə edilməsi;
- Xüsusi mülkiyyətin formalaşdırılması, azad bazar iqtisadiyyatı mexanizminin yaradılması və inkişafı;
- İnkişaf etmiş dünya iqtisadiyyatı ilə inteqrasiya xəttini israrla izlənməsi.

Prezident Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildə milli iqtisadi resursların səfərbər edilərək ölkənin inkişafı məqsədi ilə istifadə edilməsi, xüsusi mülkiyyətə və mülkiyyət müxtəlifliyinə dəstək, azad bazar iqtisadiyyatına keçid üçün iqtisadi və sosial islahatlar aparmaq, inkişaf etmiş Avropa ölkələri ilə çoxtərəfli iqtisadi əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinə daxil olmaq kimi addımlar bir tərəfdən Azərbaycanın fasiləsiz və dinamik inkişafının əsasını qoydu, digər tərəfdən

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirdi və beynəlxalq arenada ölkənin gələcəyi ilə bağlı müsbət fikirlər yaratdı.

Azərbaycan strateji cəhətdən Avropa ilə Asiyanın kəsişməsində yerləşir və bu məhsuldar qüvvələrin inkişafı, səmərəli nəqliyyat və iqtisadi əlaqələr üçün əlverişlidir (Pənahov A.2016. s.83).

1993-cü ildən etibarən bu istiqamətdə atılan addımlar və həyata keçirilən əməliyyatlar həm milli iqtisadi inkişafı sürətləndirmiş, həm də Azərbaycanın dünyada demokratik bir ölkə kimi tanınmasını təmin edərək, beynəlxalq təşkilatları bu ölkə ilə tərəfdaşlığa təşviq etmişdir. Hüquqi dövlət yaradılması istiqamətində həyata keçirilən məqsədyönlü siyasətlər nəticəsində bir neçə il ərzində Azərbaycanda ictimai, siyasi, iqtisadi, mənəvi, mədəni və sosial həyat radikal dəyişikliyə məruz qalmış, qeyri-hökümət təşkilatlarının yaranması və inkişafı sürətlənmiş, daxili hüquq Avropa standartlarına uyğunlaşdırılmış, Azərbaycan Avropa Şurasına üzv olmuş və Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətləri yaratmışdır.

İqtisadi inteqrasiya dünya ticarətinin liberallaşdırılmasının davamı olaraq meydana gəlmişdir. Dünya ticarətinin liberallaşdırılması isə II Dünya Müharibəsindən sonra başlamış və iki ayrı istiqamətdə inkişaf etmişdir. Bunlardan birincisi, Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) çərçivəsində bütün üzv dövlətlərdə tarif dərəcələrinin endirilməsidir. 1 yanvar 1995-ci ildən bəri Mərakeşdə imzalanan müqavilə ilə GATT-ı Ümumdünya Ticarət Təşkilatı (ÜTT) əvəz etmişdir.

Ölkələr arasında iqtisadi inteqrasiya dünya ticarətinin liberallaşdırılmasının ikinci qolu olmuşdur. İqtisadi inteqrasiya hərəkatları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr arasında baş verir.

Regional xarakter daşıyan inteqrasiyalardan ən geniş yayılanı Avropa Birliyidir. Avropa Birliyinin yaradılması 9 may 1950-ci ildə "Şuman" planı ilə başlamışdır. Şuman Bəyannaməsində, Avropaya inteqrasiya üçün fərqli sahələrdə keçmiş təcrübələrin istənilən nəticəni vermədiyini və bu səbəbdən ilk növbədə iqtisadi inteqrasiya fenomeninin vurğulanmasının lazım olduğu qeyd edilmişdir. Fransa Xarici İşlər Naziri Robert Şuman öz adını verdiyi bu planda Jan Monnetin

Federal Avropa ideyasından ilham almışdır. Buna görə də Şuman Planı, Fransa ilə Almaniya arasında kömür və polad resurslarının birləşdirilməsini və birgə idarə edilməsini əhatə edir.

Şuman Bəyannaməsinin elan edilməsindən bir il sonra 18 aprel 1951-ci ildə Federativ Almaniya, Fransa, İtaliya, Niderland, Belçika, Lüksemburq Fransada imzaladıqları Paris müqaviləsi ilə Avropa Kömür və Polad Birliyini yaratdılar. Bu kömür və polad ilə başlayan əməkdaşlıq 1957-ci ildə həmin üzvlər tərəfindən yaradılan 2 ayrı birlik ilə genişlənmişdir. Bu birliklər Atom Enerjisi üzrə Avropa Birliyi və Avropa İqtisadi Əməkdaşlıq Birliyidir.

Avropa Birliklərindən Avropa İttifaqına keçid 7 fevral 1992-ci ildə Niderlandda imzalanan Maastrixt sazişi ilə həyata keçmişdir. Həmin müqavilə 1 noyabr 1993-cü ildə qüvvəyə mindi. Bu saziş Avropa inteqrasiyasının institusional quruluşunu əhəmiyyətli dərəcədə dəyişdirdi. Beləliklə, Maastrixt sazişi ilə o zamana qədərki iqtisadi əməkdaşlığa bundan başqa iki yeni sahə əlavə edildi və üç sütundan ibarət Avropa İttifaqı quruldu. Maastrixt sazişinin qüvvəyə minməsi ilə Avropa Birliyi yeni yaradılan Avropa İttifaqına çevrildi.

Avropa İttifaqının əsası yuxarıda qeyd etdiyimiz 6 ölkə tərəfindən qoyulmuşdur, lakin bir çox yeni Avropa ölkəsi, qurulduğu gündən etibarən baş verən genişlənmə hərəkatları ilə inteqrasiyanın bir hissəsi olmuşdur. Belə ki, 1973-cü ildə Böyük Britaniya, İrlandiya, Danimarka bu 6-lığa daxil olmuş və ittifaq "doqquzlar"a çevrilmişdir. Daha sonra 1981-ci ildə Yunanıstan, 1986-cı ildə İspaniya və Portuqaliya, 1995-ci ildə Avstriya, İsveç, Finlandiya, 2004-cü ildə Estoniya, Latviya, Litva, Çex Respublikası, Polşa, Kipr, Slovakiya, Sloveniya, Malta, Macarıstan, 2007-ci ildə Bolqarıstan və Ruminiya, 2013-cü ildə Xorvatiya bu ittifaqın üzvü olmuşdur. 2020-ci ilin yanvarın 31-də Birləşmiş Krallıq Avropa İttifaqını tərk edib. Və beləliklə Avropa İttifaqında bu gün üzvlərin sayı 27-dir.

1990-cı illərin əvvəlində Cənubi Qafqaz regionu Avropa İttifaqının əsas gündəmində olmamışdır. Sovetlər Birliyinin dağılması və Soyuq müharibənin bitməsi beynəlxalq arenada meydana gələn dəyişiklərlə yanaşı Avropa İttifaqının özü üçün müəyyən etdiyi siyasətə də mane olmuşdur. Bu halda Avropanın əsas

əlaqələri həm coğrafi, həm də mədəni baxımdan daha yaxın olduğu Mərkəzi və Şərqi Avropa ölkələri olmuşdur. Lakin buna baxmayaraq Azərbaycan Avropa İttifaqına üzv dövlətlərlə iqtisadi əlaqələr qurmuşdur.

Avropa ilə yaxınlaşma prosesi Azərbaycanın dünya ilə inteqrasiya yolunda izlədiyi strategiyanın əsasını təşkil edir. Ölkənin Avropaya inteqrasiyada iştirak etmək istəyi, ilk növbədə Avropa ilə Asiyanın qovşağında yerləşməsidən dolayı əlverişli geosiyasi mövqeyi, zəngin enerji potensialının Qərbə ötürülməsində Avropa investisiyalarından istifadə nəticəsində əldə ediləcək iqtisadi inkişaf, ABŞ-ın bölgədən nisbətən uzaqlığı, Rusiya və İran kimi güclərə qarşı tarixi güvəsizlik, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) bölgənin və Qarabağ münaqişəsinin sabitləşməsindəki rolu və s. səbəblərdən qaynaqlanır.

Avropa qurumlarına inteqrasiya səyləri Azərbaycan üçün siyasi, iqtisadi, sosial və mədəni sahələrdə geniş imkanlar təqdim edir və Avropa ölkələri ilə münasibətləri yaxşılaşdırır.

Azərbaycanın Avropaya inteqrasiya olmaq məqsədilə izlədiyi strategiya üç formada təzahür edir. Bunlardan birincisi kimi Avropa dövlətləri ilə ikitərəfli münasibətlərin qurulması, dövlətlərarası müqavilələrin imzalanması və bu müqavilələrin yaratdığı öhdəliklərin yerinə yetirilməsidir. İkincisi həm Avropa ölkələri həm də Azərbaycanın üzv olduğu ATƏT və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi təşkilatlar çərçivəsində fəaliyyətlərdən ibarətdir. Bu təşkilatların sayı günü gündən artır. Üçüncüsü Avropa Birliyi, Avropa Şurası, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və s. təşkilatlarla əlaqələrdir. Azərbaycan Prezidenti Heydər Əliyevin 9-10 oktyabr 1997-ci ildə Strasburqda keçirilmiş Avropa Şurası Sammitində dediyi kimi "Azərbaycan Avropanın ayrılmaz hissəsidir və bütün Avropa qurumlarında iştirak etmək istəyir. Bu, demokratik bir dövləti qurmağı özünə yol seçmiş müstəqil Azərbaycan Respublikasının siyasətində prioritet olduğu cəhətlərdən biridir."

Avropa Birliyi SSRİ ilə 18 dekabr 1989-cu ildə imzaladığı Ticarət və İqtisadi Əməkdaşlıq Sazişi 1 iyun 1990-cı ildə qüvvəyə minsə də, Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin qurulması səbəbindən bölgə ilə münasibətlərinə yenidən

gözdən keçirməyə məcbur oldu. 1990-cı ilin dekabrında keçirilmiş Roma Sammiti nəticəsində Müstəqil Dövlətlər Birliyi (MDB) üzv ölkələrində iqtisadi islahatlara və inkişaf proseslərinə dəstək olmaq və onların dünya iqtisadiyyatı ilə inteqrasiyasına kömək etmək üçün TACIS Proqramı quruldu. 28-29 iyun 1991-ci ildə Lüksemburq, 9-10 dekabr 1991-ci ildə Maastrixt və 25-27 iyun 1992-ci ildə Lissabon zirvələrindən sonra keçmiş Sovet Respublikaları ilə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə diqqət yetirildi.

Avropa İttifaqı 31 dekabr 1991-ci ildə Azərbaycan Respublikasını müstəqil və rəsmən tanıdı. Aİ 10 avqust 1992-ci ildən etibarən Azərbaycanla diplomatik əlaqələr qurmuşdur. Aİ Azərbaycanın da daxil olduğu Cənubi Qafqazda ikitərəfli münasibətlərdə iki təməl siyasət üzərində dayandı. Bu siyasətlərdən birincisi müstəqilliklərini elan etmiş dövlətlərin müstəqilliklərini davam etdirməsidir. İkincisi isə sosialist sistemdən demokratiyaya və bazar iqtisadiyatına keçiddir. Bu istiqamətdə dövlətlərə texniki və maddi köməkliklərin göstərilməsi məqsədilə proqramlar hazırlanmış və tətbiq edilmişdir.

Aİ-nin Azərbaycan münasibətlərinə yanaşma tərzinin müəyyənləşdirilməsində ilk vacib addım 1995-ci ilin dekabrında Aİ Komissiyası tərəfindən Azərbaycan strategiyasının elan edilməsi ilə atılmışdır. Bu strategiyaya görə, Aİ-nin Azərbaycana marağı: geosiyasi, iqtisadi və təhlükəsizlik çərçivəsində müəyyən edilən üç formada qiymətləndirilə bilər.

Geosiyasi əhəmiyyəti. Dünyadakı şərtlər dəyişdikcə Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətinin artması ilə Aİ-nin Azərbaycana marağı daha da artdı. Rusiya Federasiyası, İran və Türkiyə ilə Orta Asiyanın əhatə etdiyi, həmçinin Xəzərin sahilinə də açıq olan Azərbaycan mühüm strateji mövqeyə malikdir. Avropanın şərq sərhədində yerləşən Azərbaycanın üzvlüyü ilə bağlı hər hansı bir inkişaf olmasa da, gələcəkdə Azərbaycan Aİ ilə bir növ sərhəd qonşusu ola bilər. Bu kontekstdə Aİ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafının da bir geosiyasi vəziyyət olduğunu söyləmək mümkündür.

İqtisadi əhəmiyyəti. Sərbəst bazar iqtisadiyyatı Aİ üçün ən vacib məsələlərdən biridir. Çünki Aİ-nin əsas məqsədlərindən biri iqtisadiyyatda sərhədləri aradan

qaldırmaq və bazara inteqrasiya təmin etməkdir. Bu səbəbdən Aİ Azərbaycanla iqtisadi əlaqələr qurarkən bu dövlətin iqtisadiyyatının liberallaşdırılmasına əhəmiyyət vermişdir. Dünya bazarları üçün neft və təbii qaz kimi enerji mənbələrinin artan əhəmiyyəti və məhdud enerji ehtiyatları Aİ-nin yeni axtarışlar etməsinə gətirib çıxardı. Ehtiyacları olan enerjiyə görə Orta Şərqdən asılılıqlarını azaltmağı hədəfləyən Aİ dövlətləri istiqamətlərini Azərbaycanın sahib olduğu qaynaqlara yönəldiblər. Azərbaycan həm enerji ehtiyatlarına görə, həm də Xəzər hövzəsindəki ehtiyatların Avropaya nəqli üçün bir körpü rolunu oynadığından Aİ üçün əhəmiyyətlidir.

Təhlükəsizlik üçün əhəmiyyət. Aİ-nin qurulmasında məqsəd ilk növbədə Avropa dövlətləri arasında müxtəlif problemləri həll edərək sabitlik və inam təmin etmək idi. Aralarındakı tarixi problemləri həll etməyi bacaran Aİ üzv dövlətləri, sistemlərinə qarşı xarici təhdidlərə olan həssaslıqlarını da artırdılar. Avropa İttifaqına üzv olan dövlətləri başlanğıcda kommunizm təhdidi birləşdirsə də, 1991-ci ildə SSRİ ləğv edildikdən sonra üzv dövlətlərin təhdid anlayışlarında dəyişikliklər baş verdi. Üzv ölkələr arasında inkişaf etmiş sabitliyi və firavanlığı qorumağı hədəfləyən Aİ, müxtəlifləşən təhdidlərə qarşı yeni siyasətlər hazırladı. Bu çərçivədə qurulan Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı Siyasəti ilə həm yeni təhdidlərə qarşı tədbir görülməsi, həm də malik olduqları dəyərlərin qonşularına ötürülməsi strategiyası həyata keçirildi.

Aİ ilə Azərbaycan arasındakı yaxınlaşma, Aİ-nin şərqə doğru genişlənməsi strategiyası və Azərbaycanın Aİ-ə yaxınlaşması çərçivəsində baş vermişdir. Avropa İttifaqı SSRİ ləğv edildikdən sonra sərhədlərini ən geniş sahəsinə qədər uzatma prosesinə başladı. 1991-ci ilə qədər cənuba doğru genişlənmə strategiyası tətbiq edən Aİ, SSRİ-nin dağılmasından sonra strategiyasını şərqə çevirdi. Beləliklə, bütün qitə torpaqlarını Aİ adı altında birləşdirməyi hədəflədi. Bu çərçivədə 1 May 2004-cü ildə Orta və Şərqi Avropa dövlətlərinin tam üzvlüyü ilə başlayan prosesə Bolqarıstan, Ruminiya və Xorvatiya dövlətləri ilə davam etdi. Genişlənmiş Aİ: Rusiya Federasiyası, Belarusiya, Moldova və Ukrayna ilə həmsərhəddir. Qara dənizə birbaşa çıxışı olan Aİ, Azərbaycanla münasibətlərini daha geniş miqyasda

inkişaf etdirmək imkanı qazandı. Və Aİ-nin Azərbaycanı Avropa Qonşuluq Siyasətinə daxil etməsi və Şərq Tərəfdaşlığı Siyasətini 2009-cu ildən bəri həyata keçirməsi onun ikitərəfli münasibətlərin inkişafına verdiyi əhəmiyyəti göstərir.

SSRİ dağıldıqdan sonra struktur dağıldı və sürətli bir yenidənqurma başladı. Bu müddət ərzində dünyanın siyasi lüğətində mühüm dəyişikliklər baş verdi; universal prinsiplər, vətəndaş hüquqları və azadlıqları və sərbəst bazar iqtisadiyyatı kimi anlayışlar ön plana çıxdı. Belə bir dövrdə Azərbaycanın köhnə rejimdən qalan problemləri həll etmək, gələcəyini qorumaq və genişləndirmək üçün Qərb dünyasına yaxınlaşmaqdan başqa çarəsi yox idi. Ümumiyyətlə Qərb dünyası, xüsusilə də Avropa ilə əlaqələrin qurulması və davam etdirilməsi prosesinə başladıqdan sonra Azərbaycan qısa müddətdə Avropa mənşəli birləşmələrin üzvü oldu (Hüseynova H. 2016. s.2).

Tarixi hadisələr və ən başlıcası Sovet İttifaqı ilə uzunmüddətli əməkdaşlıq Azərbaycanı ümumi mənada Avropaya, xüsusən də Aİ-yə yaxınlaşdırdı. Çünki Azərbaycanın Sovet İttifaqında tapa bilmədiyi suverenlik, demokratiya və insan hüquqlarına hörmət kimi bəzi anlayışlar Aİ-də mövcud idi.

## 1.2. Aİ ilə AR-in ticarət əməkdaşlığının prioritet məsələləri

Əlverişli bir geosiyasi mövqeyi özündə cəmləşdirən Azərbaycan Respublikası ilə dünyanın ən güclü iqtisadi və siyasi qüvvəsi olan Avropa İttifaqı (Aİ) arasındakı əlaqələr səmərəli şəkildə qurulur. Hər iki tərəfin iqtisadi və siyasi potensialı, eləcə də qarşılıqlı qazanc Azərbaycan-Aİ münasibətlərinin dinamikasına müsbət təsir göstərir və mövcud reallıqlara uyğun çoxşaxəli əlaqələrin qurulmasını təşviq edir. Son illərdə Azərbaycanın Aİ ilə əlaqələrin artmasına üstünlük verən tərəfdaş ölkələrlə tətbiq etdiyi enerji və nəqliyyat-kommunikasiya layihələri münasibətləri strateji etməklə yanaşı, dinamik inkişafı üçün əlverişli şərait yaratmışdır (Məmmədov S.2019.s.1-2).

İqtisadi və siyasi dəyişikliklər, Şərq-Qərb nəqliyyat və kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun yaxşılaşdırılması və digər təşəbbüslər, 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin

bərpasından sonra Aİ ilə əlaqələrin inkişafına kömək etmişdir. "MDB ölkələrinə texniki yardım" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "Humanitar yardım" (ECHO) və s. layihələr müstəqilliyin ilk illərində Aİ ilə əlaqələrin əsas hissəsini təşkil edir (Məmmədov F., Vəliyev C., Məmmədov A.2017. s.319).

Keçən əsrin 90-cı illərinin əvvəllərində Avropa İttifaqı yeni müstəqil dövlətlərlə iş qurmaq, demokratik islahatlar aparmaq, bazar iqtisadiyyatı infrastrukturunu yaratmaq, ticarət, nəqliyyat və gömrük keçid məntəqələri sahəsindəki işləri gücləndirmək üçün **Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım (TACIS)** proqramını hazırladı və maliyyələşdirdi. Azərbaycanın Aİ ilə münasibətləri daha çox iqtisadi miqyasda aparılır. Aİ enerji sektorundakı layihələrə yardımları əsasən TACIS proqramı daxilində həyata keçirmişdir. Aİ 1991-ci ilin sonunda Azərbaycanı da əhatə edən yardım proqramı ilə 12 keçmiş SSRİ respublikasına yeni sistemə keçiddə kömək etməyə başladı.

TACIS proqramı Azərbaycanla Aİ arasındakı münasibətlərdə ilk və ən vacib vasitələrdən biridir. Bu proqram, PHARE və CARDS proqramları ilə birlikdə, Aİ-nin ən vacib xarici proqramlarından biridir. Proqramın 3 əsas məqsədi vardır:

- demokratik idarəetmə və bazar iqtisadiyyatına töhfə vermək;
- bütün səviyyələrdə tərəfdaşlıq və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi;
- proqram daxilində dövlətlərin dünya iqtisadi inteqrasiyasına qoşulması.

TACIS proqramı daxilində (proqrama daxil olan bütün ölkələri əhatə etməklə) 1991-1999-cu illər arasında 4,2 mlrd. avro büdcə ayrılmış və bir sıra tədbirlər həyata keçirilmişdir.

Avropa İttifaqı TACIS proqramı çərçivəsində müvafiq texniki və mütəxəssis yardımı ilə Azərbaycandakı iqtisadi islahatları dəstəkləmişdir. TACIS proqramı 1991-ci ildə 12 keçmiş Sovet İttifaqı dövlətinə və Monqolustana texniki yardım dəstəyi təmin etmək məqsədilə yaradılmışdır. TACIS proqramının Azərbaycan

hissəsində əməkdaşlığın üç əsas aspektinə diqqət yetirilir: infrastruktur, özəl sektor və insan resurslarının inkişafı.

TACIS proqramı maliyyə və texniki yardımlar zamanı Azərbaycanda idarəetmə, iqtisadi inkişaf, investisiya mühitinin yaradılması, ətraf mühitin qorunması sahəsində bir çox islahatlar həyata keçirmişdir. Əsas məqsəd hesab olunan yoxsulluğun azaldılması, orta müddətli iqtisadi böyümə, maliyyə siyasətindəki yeni addımlar TACIS çərçivəsində həyata keçirilən öhdəliklər arasındadır. Azərbaycanın bu sahədə TACIS Milli Koordinatoru İqtisadi İnkişaf Nazirliyidir. TACIS proqramı ümumilikdə aşağıdakı sahələrə investisiya qoymuşdur:

- qaçqınlar və məcburi köçkünlər üçün ərzaq yardımı;
- enerji layihələri, nəqliyyat, nüvə və ərzaq təhlükəsizliyi, infrastruktur islahatları;
- müharibədən sonra zədələnmiş müəyyən ərazilərin təmiri.

Bununla yanaşı, yoxsulluqla mübarizə və iqtisadi inkişaf dövlət proqramı (2003-2005) turizmin inkişafı (2002-2005), müxtəlif bölgələrin sosial-iqtisadi inkişafı (2004-2008) və həmçinin informasiya texnologiyalarının inkişafı (2003-2012) ilə bağlı dövlət proqramları vasitəsilə də bir sıra yardımlar edilmişdir. Bu investisiyaların əsas məqsədi qeyri-neft sektorunun inkişafı və Azərbaycanın müxtəlif bölgələrinin iqtisadi inkişafıdır.

Ümumiyyətlə, 2000-2006-cı illərdə nəzərdə tutulan texniki yardım proqramı, dövlət və özəl sektor olmaqla 2 sahəni əhatə edən bir proqram idi. Proqram çərçivəsində dövlət sektorunda gömrük və vergi sisteminin modernləşdirilməsi, idarəetmə, demokratiya və insan hüquqları sahəsində islahatların davam etdirilməsi, ekologiyanın və ətraf mühitin davamlı inkişafının təmin edilməsi, pensiya sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və sosial rifahın yaxşılaşdırılması kimi məsələlər nəzərdə tutulurdu.

**Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRACECA)** Proqramı 8 qurucu dövlətin Ticarət və Nəqliyyat Nazirlərinin 1993-cü ilin may ayında Brüsseldə keçirdiyi konfransda müzakirə edilib və formalaşdırılmışdır. Bu Proqramın məqsədi

dövlətlərin siyasi və iqtisadi müstəqilliyini və onların alternativ nəqliyyatını dəstəkləməkdir. Proqramın əsas hədəflərini aşağıdakı kimi sıralaya bilərik:

- Orta Asiya və Qafqaz dövlətlərinin Avropa və Dünya bazarlarına daxil olmasına kömək etmək, onların iqtisadi və siyasi müstəqilliyini dəstəkləmək;
- Dövlətlər arasında regional əməkdaşlığın inkişafını artırmaq;
- TRACECA Proqramının beynəlxalq maliyyə qurumlarının və özəl investorların bu dövlətlərə yatırımlar etməsi üçün hərəkətverici qüvvə kimi istifadə olunması;
- TRACECA marşrutunu Transavropa nəqliyyat şəbəkəsi ilə birləşdirmək.

TRACECA Proqramı 1998-ci ilin may ayına qədər texniki yardım çərçivəsində 22 tədqiqat və infrastrukturun inkişafına istiqamlənən 5 investisiya layihəsini maliyyələşdirmişdir. Proqramın əhatə etdiyi ölkələr üçün TRACECA layihəsi ənənəvi və çox sıx olan Moskva marşrutuna əlavə olacaq və Avropa alternativ nəqliyyat dəhlizinin daşınması üçün strateji əhəmiyyət daşıyacaq.

Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə və Aİ-nin TACIS-TRACECA proqramının dəstəyi ilə 8 sentyabr 1998-ci ildə Bakıda “Böyük İpək Yolunun bərpası” adlı beynəlxalq konfrans keçirilmişdir. Həmin konfransda 32 dövlət və bir çox beynəlxalq təşkilat iştirak etmişdir. Konfransın başlıca uğuru Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkiyə, Ukrayna, Moldova, Ruminiya və Bolqarıstanın "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas müqavilə və “Bakı bəyannaməsi” əsasında texniki sazişlər qəbul edilmişdir.

TRACECA layihəsi, Azərbaycanın tərəf olduğu 25 texniki yardımın və 11 investisiya layihəsinin həyata keçirilməsini nəzərdə tutur ki, bunların ümumi dəyəri 100 mln. avrodan çoxdur. Asiyadan başlayaraq, Qafqazdan keçib Qara dənizə çatmaq və buradan Transavropa nəqliyyat şəbəkəsi ilə birləşən TRACECA-ya beynəlxalq nəqliyyat şəbəkəsi olaraq maraq getdikcə daha çox artmaqda idi. Aİ tərəfindən bu layihə ilə yanaşı Avropaya enerji ötürülməsini nəzərdə tutan

INOGATE layihəsinə də böyük əhəmiyyət verilirdi. Bakı-Supsa və Bakı-Ceyhan neft kəməri müqavilələri INOGATE çərçivəsində dəstəkləndikdən sonra Azərbaycanın TRACECA çərçivəsində mövqeyi də daha da gücləndi.

**Neft və Qazın Avropaya Beynəlxalq nəqli (INOGATE)** layihəsi Avropa Birliyinin keçmiş SSRİ üçün nəzərdə tutduğu texniki yardım çərçivəsində əsas regional proqram olaraq həyata keçirilir. Proqram 1995-1997-ci illər arasında hazırlanmış və daha sonra bəzi Mərkəzi və Şərqi Avropa ölkələrini əhatə edərək genişləndirilmişdir. 1999-cu ilin iyul ayında 15 dövlətin (Azərbaycan da daxil) iştirakı ilə imzalanmış beynəlxalq neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-nin əsas hüquqi infrastrukturunu təşkil edir.

Bu proqram Xəzər dənizi hövzəsində təbii qaz və neft istismarında səmərəliliyin artırılması təşəbbüslərindən biridir. 1995-ci ildə Avropa Komissiyası neft və qazın idarə olunması məsələlərinə dair konfrans təşkil etdi və həmin konfransda Xəzər bölgəsindəki qaynaqlarla əlaqəli regional əməkdaşlıq strategiyaları müəyyənləşdirildi. INOGATE proqramı bu istiqamətdəki təşəbbüslərin nəticəsidir.

8 dekabr 1998-ci ildə Brüsseldə INOGATE Proqramında iştirak edən ölkələrin görüşü keçirildi və Azərbaycanın Bakı-Supsa və Bakı-Ceyhan neft kəməri layihələrinə dəstək verilməsi barədə qərarlar qəbul edildi. Digər tərəfdən, Qazaxıstan neftinin Xəzər dənizi-Bakı-Batumi (Gürcüstan) marşrutu ilə nəqli nəzərdə tutulmuşdur.

INOGATE çərçivəsində qəbul edilmiş qərarlar 1998-ci ildən bəri Bakı-Supsa xəttinin həyata keçirilməsi və 1999-cu ilin sonunda Bakı-Ceyhan xətti ilə bağlı razılaşmanın imzalanmasına müsbət təsir göstərdi. INOGATE, tərəfdaş ölkələrin bölgələrarası əməkdaşlığına və potensialının gücləndirilməsinə əsaslanan, aşağıdakı sahələrə diqqət yetirən Aİ regional əməkdaşlıq alətidir:

- Enerji təhlükəsizliyi, enerji bazarlarının səmərəliliyi və inkişafı ilə bağlı texniki və tənzimləyici tövsiyələr;
- Enerji səmərəliliyi və bərpa olunan enerji siyasətinin həyata keçirilməsi;

- Təkmilləşdirilmiş enerji statistikasından istifadə etməklə enerji və iqtisadi planlaşdırma;
- Enerji səmərəliliyinin və bərpa olunan enerji investisiyalarının artırılması.

INOGATE Texniki Katibliyi mütəxəssislərinin təhlillərinə əsasən hökumətin əsas enerji siyasəti istiqamətləri bunlardır:

- Ölkənin bölgələrində infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərə, o cümlədən enerji və qaza çıxışının yaxşılaşdırılması;
- Müasir infrastruktur obyektlərinin yaradılması və mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması.

INOGATE Texniki Katibliyi mütəxəssisləri tərəfindən müəyyən edilmiş Azərbaycanın siyasət və tənzimləmə bazasının əsas sənədləri bunlardır:

- 2005-ci ildə Prezident tərəfindən təsdiqlənmiş Azərbaycanda Yanacaq və Enerji Sektorunun İnkişafına dair Dövlət Proqramı (2005-2015);
- 2004-cü ildə Prezident tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasında Alternativ və Bərpa olunan Enerji Mənbələrindən İstifadəyə dair Dövlət Proqramı.

INOGATE Texniki Katibliyin strategiyasına əsasən Azərbaycan və INOGATE arasında 2015-2016-cı illər üçün əməkdaşlığın prioritetləri yuxarıda göstərilən strateji sənədlərdə nəzərdə tutulmuş milli prioritetləri əks etdirir və aşağıdakılardır:

- Elektrik və qaz qanunlarının müvafiq Aİ qanunvericiliyi ilə uyğunlaşdırılması, enerji təchizatı və tranzit sistemlərinin etibarlılığının və səmərəliliyinin artırılması;
- İxrac potensialının və regional elektrik bazarlarının inkişafı;
- Şəffaf və hərtərəfli tarif metodologiyasının hazırlanması;
- Müasir infrastrukturun yaradılması və mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;
- Davamlı enerji investisiyalarının təşviqi;
- Enerji statistikasının təkmilləşdirilməsi.

1993-cü ilin yanvar ayından etibarən Aİ, digər MDB ölkələri kimi Azərbaycanı da Ümumiləşdirilmiş Preferensiyalar Sisteminə daxil etdi və güzəştli ticarət rejimini tətbiq etməyə başladı. Digər tərəfdən, müxtəlif sahələr üzrə sazişlərinin bağlanması və Azərbaycanın xarici ticarət rejiminin liberallaşmasının inkişafı tərəflər arasında ticarətin sürətlə artmasına səbəb oldu. 1994-1995-ci illərdə Aİ ilə Azərbaycan rəsmiləri arasındakı qarşılıqlı səfərlər nəticəsində münasibətlərin daha əhatəli inkişafı üçün hüquqi baza yaratmaq məqsədilə bir sıra işlər görülmüşdür. Beləliklə, 22 aprel 1996-cı ildə Lüksemburqda Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərin hüquqi əsasını təşkil edən **Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS)** imzalanmış və saziş onu imzalayan bütün dövlətlər tərəfindən təsdiqləndikdən sonra 1 iyul 1999-cu ildə qüvvəyə minmişdir. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalandığı və qüvvəyə mindiyi tarixlər arasında etibarlı olması üçün də Müvəqqəti Saziş imzalanmışdır. Müvəqqəti Saziş, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi qüvvəyə minməmişdən əvvəl ticarət hazırlıqlarının edilməsinə (tarif hazırlıqları, miqdar məhdudiyyətlərinin qaldırılması və s.) və tədbirlərin həyata keçirilməsinə imkan verəcəkdi. Qüvvəyə minən TƏS ticarətlə əlaqəli mövzuları əhatə edən Müvəqqəti Sazişi əvəz etdi.

Prezident Heydər Əliyev Avropa İttifaqı və Azərbaycanın texniki yardım şəklində başlayan münasibətlərin hüquqi əsasını təşkil edən bu müqaviləni "Azərbaycan dövləti üçün böyük əhəmiyyətə malik tarixi hadisə" adlandırmışdır.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi iş dünyası üçün bir çox fayda gətirmişdir:

- Azərbaycanda yaradılan Aİ şirkətləri üçün ən çox üstünlük verilən ölkə qaydası tətbiq edildi;
- Aİ-dən idxala kəmiyyət məhdudiyyətləri əhəmiyyətli dərəcədə azalmışdır;
- Maliyyə xidmətlərində institusionalizasiya mərhələləri sadələşdirilmişdir;
- Azərbaycanda xidmət bazarında artan iştirak əldə edilmişdir.

TƏS əməkdaşlığı gücləndirmək üçün lazımi mexanizmləri təqdim edərək Azərbaycan ilə Aİ arasındakı münasibətlərə yeni bir təkan verdi. Bu Müqavilə siyasi

dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadiyyat, hüquq, mədəni, sosial və s. sahələri əhatə edən geniş bir əməkdaşlığı nəzərdə tutur. Razılaşmanın əsas məqsədlərindən biri də Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyinə yaxınlaşdırılmasıdır. Bu razılaşmanın I maddəsində bu tərəfdaşlığın əsas məqsədləri öz əksini tapmışdır. Bunları aşağıdakı kimi sıralaya bilərik:

- Tərəflər arasında siyasi əlaqələrin inkişafına xidmət edən siyasi dialoq üçün müvafiq çərçivə təmin etmək;
- Demokratiyanın gücləndirilməsi və iqtisadiyyatın inkişafı, bazar iqtisadiyyatına daxil olunması proseslərində Azərbaycan Respublikasını dəstəkləmək;
- Davamlı iqtisadi inkişafı və tərəflər arasında ticarəti və investisiya yönümlü iqtisadi əlaqələri təşviq etmək;
- Qanunvericilik, iqtisadi, sosial, maliyyə, mülki, elmi, texnoloji və mədəni əməkdaşlıq üçün zəmin yaratmaq.

Razılaşmaya əsasən, Azərbaycan ilə Aİ arasında ikitərəfli dialoqu effektiv davam etdirmək üçün Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi, ticarət, iqtisadiyyat və hüquqi məsələlər, enerji, nəqliyyat və ətraf mühit üzrə Alt Komitə kimi qurumlar yaradıldı.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin XI başlığında korporativ, ümumi və nəticə müddəaları qeyd edilmişdir. Sazişin 81-88-ci maddələri arasında yerləşən hissəsində, korporativ müddəalar əks olunub, tərəfdaşlıq orqanlarının quruluşu və fəaliyyəti müəyyən edilmişdir. Bu orqanlar, Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi və Parlamentlərarası Əməkdaşlıq Komitəsidir. Əməkdaşlıq Şurası əsas əməkdaşlıq siyasətlərini müəyyənləşdirir və Əməkdaşlıq Komitəsi tövsiyələr verərək Şuraya kömək edir. Ticarət, iqtisadi və hüquqi, enerji, nəqliyyat və ətraf mühit məsələləri üzrə alt komitələr Əməkdaşlıq Komitəsinin daxilində fəaliyyət göstərir.

Tərəfdaşlıq və Əməkdaşlıq Sazişindən sonra qarşılıqlı müqavilələr imzalanmışdır. 2004-cü ildə Azərbaycan Aİ-nin "Genişlənmiş Avropa: Avropa Qonşuluq Siyasəti" (AQS) nə daxil edildi. Beləliklə, 2004-cü ildən bəri Aİ

Azərbaycan və Cənubi Qafqaz ölkələri ilə münasibətlərini yeni bir mərhələyə qaldırdı. Azərbaycanın Avropa Qonşuluq Siyasətində iştirakı, Aİ-nin əsas meyarları olan demokratiya, qanunun aliliyi və əsas azadlıqlar kimi sahələrdə inkişafına imkan yaratdı.

Avropa Komissiyası tərəfindən 2005-ci ilin may ayında Qonşuluq Siyasəti çərçivəsində hazırlanan hesabatda Azərbaycanla bağlı Fəaliyyət Planı çərçivəsində bazar iqtisadiyyatına verilən dəstək tədbiri, siyasi islahatlar, yoxsulluğun azaldılması bir sıra tədbirlərin həyata keçirilməsinin zəruriliyi qeyd edilmişdir. Bu istiqamətdə, Avropa Komissiyası tərəfindən Avropa Qonşuluq Siyasəti çərçivəsində hazırlanmış Azərbaycan Fəaliyyət Planı 14 Noyabr 2006-cı ildə təsdiq edilmişdir.

Azərbaycan 2006-2009-cu illər arasında Avropa Qonşuluq Siyasəti tərəfindən təqdim olunan Fəaliyyət Planı çərçivəsində qismən uğur qazanmışdır. Bu nailiyyətlər xüsusilə iqtisadi və sosial idarəetmədə öz əksini tapmışdır. Fəaliyyət Planından sonra 2006-cı ildə Anlaşma Memorandumu qəbul edildi. Bu strateji tərəfdaşlıq Aİ ilə Azərbaycan arasında enerji sahəsində inkişafa yönəldilmişdir.

2008-ci ilin may ayında Avropa Komissiyası tərəfindən dəstəklənən Aİ "Şərq Tərəfdaşlığı" təşəbbüsü, iştirakçı ölkələrə Aİ ilə daha yaxın siyasi və iqtisadi inteqrasiya imkanı təqdim etdi. Avropa Qonşuluq Siyasətinin Şərq ölçüsünü təşkil edən sözügedən proqram Şərqi Avropa və Cənubi Qafqaz ölkələri istiqamətində davamlı islahatlara dəstək məqsədi daşıyırdı. Avropa Komissiyası tərəfindən 2008-ci ilin dekabrında "Şərq Tərəfdaşlığı" (ŞQ) adlanan proqram, 20 Mart 2009-cu il tarixdə Avropa Şurası tərəfindən təsdiqlənmişdir. 7 May 2009-cu il tarixində Praqada Şərq Tərəfdaşlığı proqramının rəsmi açılış mərasimi keçirildi və sözügedən proqram fəaliyyətə başladı.

Altı postsovet ölkəsi - Azərbaycan, Ermənistan, Gürcüstan, Ukrayna, Moldova və Belarus Şərq Tərəfdaşlığı proqramına daxil edildi. İştirakçı ölkələr olan Ermənistan və Belarusiya Rusiyanın strateji müttəfiqləri olduqları üçün Şərq Tərəfdaşlığında fəal iştirak etmirlər. Ermənistan yalnız Şərq Tərəfdaşlığının mədəni və sosial sütununda fəal iştirak edir.

Şərq Tərəfdaşlığı proqramı Azərbaycana Qərblə münasibətlərində yeni imkanlar gətirmişdir. Azərbaycanın xarici siyasəti və iqtisadiyyatı baxımından Avropa enerji bazarına çıxış və Dağlıq Qarabağ münaqişəsinə məsələsində Aİ-dən alacağı dəstək vacibdir. Aİ Şərq Tərəfdaşlığı proqramına və siyasətinə əhəmiyyət verir, çünki Azərbaycan və Xəzər neftinə ehtiyac duyur və regional aktyor rolunu oynamaq istəyir. Azərbaycan isə xammalı Avropa kimi etibarlı bir bazara çatdırmaq üçün Aİ-yə ehtiyac duyur. Bu kontekstdə Azərbaycanda - Aİ münasibətlərində qarşılıqlı asılılıqdan danışmaq mümkündür.

Daha sonra 2009-cu ildə Şərq Tərəfdaşlığı Bəyannaməsi imzalandı. 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı fərqli çərçivələr və protokollar imzalanmışdı, bu il də Aİ ilə Azərbaycan və Komissiya arasında Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) qəbul edilmiş və imzalanmışdır. Bu müqavilələr, protokollar və çərçivələr ticarət, idarəetmə, turizm, enerji təhlükəsizliyi, inteqrasiya və inkişaf etmiş ölkələr siyasətinin qəbul edilməsi və s. məsələlərdə əməkdaşlığı təmin etmək məqsədi daşıyır. Aİ ilə Azərbaycan arasında imzalanmış bu hüquqi sənədlər Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini tamamlayır. Bundan əlavə, bu sənədlər Aİ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına əhəmiyyətli dərəcədə kömək etmişdir.

2016-cı ilin iyul ayında Şərq Tərəfdaşlığı Proqramına daxil olan Azərbaycanla Aİ arasında protokol imzalanıb. Bu protokol Azərbaycanın Aİ-nin proqram və qurumlarında iştirakını nəzərdə tutur. 14 Noyabr 2016-cı il tarixində Avropa Şurası, Yüksək Nümayəndəyə Aİ və üzv ölkələr adından Azərbaycanla hərtərəfli razılaşma aparmaq üçün səlahiyyət verdi. Yeni müqavilə ilə bağlı danışıqlar 7 fevral 2017-ci il tarixində Prezident İlham Əliyevin Brüsselə səfərindən sonra başladı. Bu yeni razılaşma ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini yeniləmək, mövcud siyasi dialoq üçün yeni bir zəmin yaratmaq və qarşılıqlı faydalı əməkdaşlığa imkan yaratmaq məqsədi daşıyırdı.

Azərbaycan dövləti Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Cənubi Qafqazda ümumi iqtisadi səviyyəsinə görə lider bir ölkə olan Azərbaycan, Aİ-nin regional iqtisadi proqramlarında iştirak etməklə yanaşı, İttifaqın xarici ticarət əlaqələrində də mühüm

rol oynayır. Ümumiyyətlə, başqa MDB dövlətləri ilə müqayisədə Azərbaycanın bu quruma üzvlük iddiası və bunun üçün müvafiq potensialı daha yüksəkdir.

## 1.3. Azərbaycan Respublikasının ÜTT-ə daxil olması danışıqları prosesində Avropa İttifaqının rolu

Keçən əsrin əvvəllərində xarici ticarət sahəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Xarici ticarət dünyanın əksər ölkələrində iqtisadi böyümə üçün vacib bir vasitə və ciddi iqtisadi inkişaf vasitəsi halına gəldi.

1930-cu illərin iqtisadi depressiyasından sonra ölkələr Böyük Depressiyanın yaratdığı problemlərin həllinə üstünlük verdilər. Bu da öz növbəsində dünya ticarətində əməkdaşlıqdan uzaqlaşmağa gətirib çıxardı. Ölkələr öz sənayelərini qorumaq və xarici ödəniş balansının problemlərini həll etmək üçün gömrük tariflərini artırmağa qərar vermişdi. Lakin həmin dövrdə sənayesi yenicə inkişaf etmiş Qərb ölkələri xarici ticarətdəki durğunluqdan çox narahat idilər. 1945-ci ildə İkinci Dünya müharibəsinin başa çatmasından sonra ABŞ rəhbərliyi altında beynəlxalq iqtisadi, sosial və siyasi quruluş çərçivəsində əvvəl Birləşmiş Millətlər Təşkilatı, daha sonra dünya iqtisadiyyatında bazar şərtlərinin fəaliyyətini təmin etmək üçün Beynəlxalq Valyuta Fondu və Dünya Bankı yaradılmış, beynəlxalq ticarətin liberallaşdırılması məqsədi ilə də Ticarət və Tariflər üzrə Baş Saziş (GATT) imzalanmışdır.

GATT - dünya ticarətini liberallaşdırmaq üçün ticarət edilə bilən malların gömrük tarifləri ilə bağlı maneələrin tədricən (çoxtərəfli ticarət danışıqları yolu ilə) və qeyri-tarif maneələrinin dərhal aradan qaldırılmasını və bununla da beynəlxalq ticarətdə liberallaşmanın təmin edilməsini hədəfləyən bir qurumdur. GATT ilə beynəlxalq ticarət sistemi ilk dəfə yaradılmışdır. GATT-ın təsis edildiyi andan günümüzə qədər rəqabəti pozan və ticarəti məhdudlaşdıran maneələrin aradan qaldırılması ilə dünya ticarətində əhəmiyyətli artım müşahidə edilmişdir. GATT ilə gələn sistem ticarət əməliyyatları və ya danışıqlar (raund) seriyası ilə inkişaf etmişdir. İlk raund tarif və endirimlərə yönəlmiş, daha sonra antidempinq və qeyri-tarif tədbirlərini əhatə etmişdir. Son raund olan Uruqvay raundu (1986-94)

Ümumdünya Ticarət Təşkilatını (ÜTT) yaratdı. ÜTT, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə birlikdə Bretton-Vuds institutlarının üçüncü mərhələsini təşkil etdi.

GATT-ın yaradılmasından bu günə qədər dörd konfrans və dörd çoxtərəfli ticarət danışıqları (raund) keçirilmişdir. Həmin danışıqları aşağıdakı kimi sıralaya bilərik:

**Cədvəl 1: GATT danışıqları**

| İl | Ad | Əhatə olunan mövzuları |
|---|---|---|
| 1947 | Cenevrə | Tariflər |
| 1949 | Annesi | Tariflər |
| 1951 | Torquay | Tariflər |
| 1956 | Cenevrə | Tariflər |
| 1960-1961 | Dillion Raundu | Tariflər |
| 1964-1967 | Kennedi Raundu | Tariflər və antidemping tədbirləri. Ticarət və inkişaf bölməsi |
| 1973-1979 | Tokio Raundu | Tarif və qeyri-tarif tədbirləri, "çərçivə" sazişləri. İstisnaya İmkan Yaradan Hal (inkişaf) |
| 1986-1994 | Uruqvay Raundu | ÜTT-nin təsis olunması. Tarif və qeyri-tarif tədbirləri, qaydalar, xidmətlər, əqli mülkiyyət, mübahisələrin həlli, tekstil, kənd təsərrüfatı və s. |

**Mənbə:** Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı, http://wto.az/wto/choxterefli-ticaret-sistemi-ve-utt-nin-tarixi/ (2020)

GATT qaydaları və tamamlayıcı müqavilələri 1986-1994-cü illər arasında Uruqvay Ticarət Müzakirələri raundunda dünya ticarətinin dəyişən şərtlərinə uyğunlaşmaq məqsədilə yenilənmişdir. Uruqvay raundundan əvvəl keçirilən yeddi danışıq turunda gömrük rüsumlarının azaldılması hədəflənsə də, bu hədəfə əlavə olaraq, dünya ticarətində qaydaların və intizamların gücləndirilməsinə dair və bütün ölkələrin tərəfdar olduqları 29 razılaşma Uruqvay raundunda bir paket olaraq qəbul edildi.

15 aprel 1994-cü ildə ÜTT-ni quran Mərakeş Sazişi üzv ölkələrin hökumətləri tərəfindən Fasin Mərakeş şəhərində keçirilən Nazirlər Konfransında imzalanmış və "Çoxtərəfli Ticarət Danışıqlarının Uruqvay Raundunun Nəticələrini Təcəssüm etdirən Yekun Akt"ı qəbul edilmişdir. Beləliklə, 1 yanvar 1995-ci ildə Uruqvay Raundu Sazişləri qüvvəyə mindi. Beləliklə Ümumdünya Ticarət Təşkilatı (ÜTT)

quruldu və GATT-ı əvəz etdi. 1 yanvar 1995-ci ildən etibarən GATT prosesinin aldığı yeni forma əvvəlki və sonrakı dövrlərin fərqli adlandırılmasına səbəb oldu. 1947-ci ildən bəri həm təşkilat, həm də qayda qəbuletmə müqaviləsi olan köhnə GATT "GATT 1947" adlanırdı, ÜTT-nin ortaya çıxması ilə fərqli bir ölçü qazanan yeni GATT, "GATT 1994" adlandı. GATT 94 daha əhatəli olub, həm GATT 47, həm də ÜTT-ni əhatə edir.

Uruqvay turunun başa çatması ilə dünya iqtisadiyyatı irəliyə doğru çox vacib bir sıçrayış etdi. Ümumdünya Ticarət Təşkilatının məqsədi üzv ölkələrin ticarət və iqtisadiyyat sahəsindəki əlaqələrini inkişaf etdirmək, həyat standartlarını yaxşılaşdırmaq, tam məşğulluğu təmin etmək, real gəlir və tələb həcmində davamlı bir artım təmin etmək, dünya mənbələrindən davamlı inkişaf hədəfinə uyğun olaraq istifadəni təmin etmək, ətraf mühiti qorumaq və fərqli inkişaf səviyyəsindəki ölkələrin ehtiyac və qayğılarına cavab verəcək şəkildə mövcud mənbələri inkişaf etdirməkdir. Bu hədəflərin reallaşması üçün beynəlxalq ticarəti məhdudlaşdıran hər cür əngəl və fərqli münasibət aradan qaldırılmalıdır. Ticarəti məhdudlaşdıran maneələrin aradan qaldırılması, idxal və ixraca tətbiq olunan hər cür qeyri-tarif maneələri tariflərə çevirməyi hədəfləyən bu cür təcrübələr üçün iki vacib qayda hazırlanmışdır. Bunlardan birincisi “ən əlverişli rejim” qaydasıdır. Bu qaydaya görə, bir ölkəyə verilən güzəştlər və ya imkanlar ayrı-seçkilik edilmədən bütün digər üzv ölkələrə tətbiq edilməlidir. İkincisi “milli rejim” qaydasıdır. Buna görə yerli və xarici olmasından asılı olmayaraq daxili vergilər və əməliyyatlardakı bütün mal və xidmətlərə bərabər yanaşma tətbiq etmək lazımdır.

ÜTT-nin yaradılması və onun funksiyalarını, əsas prinsiplərini, qərarverici orqanlarını və strukturunu müəyyən edən bir çətir saziş mövcuddur. Bu saziş Mərakeş Sazişi və ya ÜTT Sazişi kimi tanınır. 15 aprel 1994-cü il tarixli Mərakeş Sazişində təşkilatın aşağıdakı əsas məqsədləri öz əksini tapmışdır (Karluk R.,2013: s.323).

1. Yaşayış səviyyəsini yüksəltmək, tam məşğulluq və sabit gəlir bölgüsü yaradacaq tələb həcmini təmin etmək, istehsal və ticarəti inkişaf etdirərkən davamlı inkişaf hədəfinə uyğun olaraq dünya mənbələrindən istifadəni təmin etmək, ətraf

mühiti qorumaq və müxtəlif iqtisadi səviyyələrdə ölkələrin ehtiyaclarına cavab vermək;

2. İnkişaf etməkdə olan ölkələrin, xüsusilə də ən az inkişaf etmiş ölkələrin artan dünya ticarətindən ehtiyaclarına nisbətdə pay almasını təmin etmək;

3. Məqsədlərə çatmaq üçün beynəlxalq ticarət münasibətlərində ayrı-seçkiliyi və ticarətdəki maneələri aradan qaldıran müqavilələr bağlamaq;

4. GATT 47 və GATT 94 nəticələrinə uyğun olaraq inteqrasiya olunmuş, tətbiq oluna bilən və çox tərəfli ticarət sistemini inkişaf etdirmək;

5. Çoxtərəfli Ticarət Sisteminin əsas prinsiplərini qorumaq.

Mərakeş sazişinin III maddəsində onun hansı funksiyalarının olduğu qeyd edilmişdir. Bu funksiyalar aşağıdakılardır:

- Üzvlərin qlobal ticarət qaydalarını müzakirə etmələri üçün bir forum kimi xidmət etmək;
- Qurumları və komitələri vasitəsilə ÜTT Sazişlərinin həyata keçirilməsini və idarə olunmasını asanlaşdırmaq;
- Üzvlərin ticarət mübahisələrini həll etmələri üçün bir forum kimi xidmət göstərmək;
- İnkişaf etməkdə olan və az inkişaf etmiş ölkə üzvlərinə texniki yardım göstərmək;
- Digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

1994-cü ildə 128 üzv ilə yaranan ÜTT, son məlumatlara görə 164 ölkəni əhatə edir. Üzv sayına görə ÜTT dünyanın ən böyük iqtisadi təşkilatlarından biridir. Azərbaycan Respublikasının ÜTT-yə üzlüyü haqqında danışıqlara keçməzdən öncə bu təşkilata üzvlüyün hansı formada və hansı qaydalarda həyata keçirildiyinə diqqət yetirməkdə fayda var.

ÜTT üzv hökumətləri inkişaf səviyyələrinə görə ümumiyyətlə “inkişaf etmiş üzvlər” və ya “İnkişaf etməkdə olan üzvlər” kimi qruplaşdırır. ÜTT üzvlərinin üçdə ikisindən çoxu inkişaf etməkdə olan ölkələrdir. ÜTT-də "inkişaf etmiş" və ya "inkişaf etməkdə olan" üzvün nə olduğu barədə razılaşdırılmış bir tərif yoxdur. Hər bir üzv "inkişaf etməkdə olan üzv" olaraq qəbul edilməsinə özü qərar verir. Bununla

yanaşı, digər üzvlər bir üzvün inkişaf etməkdə olan üzv kimi qəbul edilməsinə də qərar verə bilər. “İnkişaf etmiş” və “inkişaf edən” üzvlər arasındakı fərq inkişaf etməkdə olan ÜTT-də xüsusi hüquqlardan istifadə etdiyi müddətdə vacibdir. Bəzi inkişaf etməkdə olan ölkələr ən az inkişaf etmiş ölkələr sayılır. Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası ən az inkişaf etmiş sayılan ölkələrin siyahısını saxlayır. Ən az inkişaf etmiş ölkə üzvləri ÜTT-də əlavə hüquqlardan istifadə edirlər.

ÜTT-yə üzv olmaq istəyən hər hansı bir dövlət ÜTT üzvləri ilə danışıqlardan ibarət olan üzv qəbul prosesindən keçməlidir. Bu qəbul prosesi ÜTT üzvlüyü öyrənmək və hazırlaşmaq üçündür. Hər bir qoşulma bənzərsizdir və qoşulan ölkənin konkret vəziyyəti nəzərə alınmaqla hər bir halda danışıqlar aparılır. Üzvlük ilə bağlı qərarlar Nazirlər Konfransı tərəfindən qəbul edilir. İştirak şərtlərinə dair razılaşma Nazirlər Konfransı tərəfindən ÜTT üzvlərinin üçdə iki səs çoxluğu ilə təsdiqlənir. Çoxtərəfli Ticarət Sazişlərində iştirak etmək müvafiq Müqavilənin müddəalarına uyğun olaraq həyata keçirilir. ÜTT-yə qoşulma prosesi dörd əsas mərhələdən ibarətdir:

1. Rəsmi müraciət və işçi qrupunun yaradılması: ÜTT-yə üzv olmaq istəyən hökumət, ÜTT-nin Baş direktoruna təşkilata üzv olmaq istəyini bildirən bir məktub göndərməlidir. Üzvlük tələbi məktubu Baş Direktor tərəfindən qəbul olunur və Baş Şuranın iclasında baxılması üçün Baş Şuranın sədrinə ötürülür. Baş Şura qoşulma tələbinə baxır və müraciəti araşdırmaq üçün İşçi Qrupu yaradır. Müşahidəçi statusu qoşulan Hökumətə İşçi Qrupun qurulmasından sonra avtomatik olaraq verilir.

2. İşçi qrupunun araşdırmaları və ikitərəfli güzəşt danışıqları: İşçi qrup prinsip və siyasət araşdırmalarında kifayət qədər irəliləyiş əldə edildikdən sonra namizəd ölkə ilə ikitərəfli danışıqlara başlanılır. Hər bir ölkənin fərqli ticarət prioritetləri və maraqları olduğundan danışıqlar ikitərəfli səviyyədə aparılır.

3. İştirak protokolu: işçi qrupunun hesabatı "iştirak protokolu" və "öhdəlik siyahıları" ilə mühakimə olunur.

4. Qərar: Məruzələr, protokollar və siyahılardan ibarət sənədlər ÜTT Baş Şurasına və ya Nazirlər Konfransına təqdim olunur. Bütün ÜTT üzvü ölkələrin konsensusuyla qoşulma protokolunu imzalayan namizəd ölkə üzv statusunu qazanır.

18 oktyabr 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində bir çox sosial-iqtisadi problemlərlə qarşılaşdı. Lakin zaman keçdikcə bu problemlərin öhdəsindən gəlməyi bacardı. Belə ki, müstəqil bir dövlət olaraq Azərbaycan beynəlxalq iqtisadi və siyasi sistemdə əhəmiyyətli amil halına gəldi. Ölkənin iqtisadi inkişaf istiqamətində atdığı addımlar əldə etdiyi inkişaf səviyyəsində əhəmiyyətli bir amil olaraq qəbul edilir.. Xüsusilə, on doqquz ölkədən otuz üç şirkətin iştirakı ilə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Neft sazişi, təxminən 60 mlrd. dollar sərmayə 200 mlrd. dollar gəlir hədəfiylə bu inkişafda təsirli oldu.

ÜTT-yə üzvlük proseduru hər bir ölkə üçün mürəkkəb və vacib bir prosedurdur. Üzvlük proseduru 3 ildən 15 ilə qədər ola bilər. Azərbaycanın ÜTT-yə üzv olması məsələsi birbaşa qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədardır. Hazırda əqli mülkiyyət hüquqları, ölkəmizə qoyduğumuz investisiyalar beynəlxalq standartlara və ÜTT meyarlarına tam cavab verəcək vəziyyətdə deyil. Ölkəmizin ÜTT-yə üzv olması ticarət siyasətinin proqnozlaşdırılmasına, şəffaflığın artırılmasına, beynəlxalq ticarətdə maraqlı tərəflərin sayının artmasına və iqtisadi münaqişələrin daha təsirli şəkildə həllinə kömək edəcəkdir.

Aİ Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olmasını, islahatlar prosesinin sürətləndirilməsi və ümumi bazarda iştirakının təmin edilməsini çox vacib bir hədəf olaraq görmüşdür. Aİ Azərbaycanın ÜTT-də iştirakını asanlaşdırmaq üçün texniki yardım etmişdir. Bu, Aİ ilə Azərbaycan arasında, xüsusən standartlar, sertifikatlaşdırma və əqli mülkiyyət hüquqları ilə bağlı bir sıra mühüm problemlərin həllinə kömək etmişdir.

Qlobal ticarətin 97%-ni təşkil edən Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq hər bölgə üçün prioritetdir, çünki inteqrasiyanı gücləndirmək və qloballaşmadan uğurlu istifadə etmək lazımdır. Azərbaycan üçün bu nəzəriyyə eyni dərəcədə vacibdir. Nəticə etibarilə, Azərbaycan Respublikası ÜTT-yə üzvlük müddətində fəaliyyətini artırır və real işini davam etdirir. Ona görə də ÜTT-ə qəbul prosesində Azərbaycan Respublikası da səylərini artırır və bu istiqamətdə fəaliyyətini davam etdirir. Azərbaycanın ÜTT ilə münasibətləri ölkənin

müstəqilliyinin ilk günlərindən başlayır. Üzvlük ilə bağlı ilk rəsmi müraciət 1997-ci ildə edilmişdir (Hacızadə E.M. 2018. s. 749).

Müasir dünyada yerini almağa çalışan Azərbaycan Respublikası, 23 iyun 1997-ci ildə üzvlük üçün ÜTT Katibliyinə müraciət etmişdir. Azərbaycanın ÜTT-yə üzv olmasında əsas məqsədlər kimi aşağıdakıları qeyd edə biləri:

- Dünya iqtisadi sisteminə inteqrasiya prosesini sürətləndirmək;
- ÜTT üzvü olan ölkələrin öz aralarında tətbiq etdikləri endirimlərdən faydalanmaq;
- Ticarət fəaliyyətini ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar çərçivəsində aparmaq;
- Ölkədə reallaşdırılması lazım olan iqtisadi yeniliklər üçün həm beynəlxalq təşkilatlardan, həm də müxtəlif ölkələrdən yardım almaq imkanı əldə etmək;
- ÜTT qaydalarını tətbiq edərək daha çox birbaşa xarici kapital cəlb edə bilmək;
- Mümkün problemlərin həllində ÜTT mexanizmlərindən istifadə etmək.

Bu və buna bənzər məqsədlər üçün edilən müraciət ÜTT tərəfindən müsbət qiymətləndirildi və Azərbaycana müşahidəçi statusu verildi. 16 iyul 1997-ci ildə Azərbaycanın ÜTT-də iştirakını müzakirə etmək üçün işçi qrupu yaradıldı. Bu işçi qrupunun məqsədi ölkədə mövcud xarici ticarət siyasətlərini təhlil etmək və bu sistemi daha da inkişaf etdirərək ÜTT standartlarına uyğunlaşdırmaqdır. Azərbaycan 22 aprel 1999-cu ildə ÜTT Katibliyinə xarici ticarət rejimi ilə bağlı bir memorandum təqdim etmişdir. Müvafiq işçi qrup ilk iclasını 2002-ci ilin iyununda, ikincisini 2004-cü ilin oktyabrında, üçüncüsünü 2005-ci ilin iyununda və dördüncü iclasını 2006-cı ilin martında keçirmişdir. Bu dörd görüşdə bir çox problemin həlli qarşılıqlı danışıqlar yolu ilə müəyyən edildi.

Keçid iqtisadiyyatı olan digər ölkələrdən fərqli olaraq, üzvlük ilə əlaqəli əməliyyatları əsasən öz imkanları ilə həyata keçirən Azərbaycan ÜTT ilə apardığı danışıqlarda aşağıdakı məsələlərə daha çox üstünlük verilmişdir: İnkişaf etməkdə

olan keçid iqtisadiyyatlı ölkə kimi ÜTT çərçivəsində verilən üstünlükləri əldə etmək;

- ÜTT qaydaları tam tətbiq olunana qədər keçid iqtisadiyyatı statusunu maksimum müddətə saxlamaq;
- Azərbaycan iqtisadiyyatı, xüsusən də sənaye sektoru üçün vacib olan mallara yüksək dərəcəli idxal gömrük vergisini tətbiq edə bilmək;
- Vergi dərəcələrinin endirilməsi qaçılmaz olduğundan, ümumi ortalamanı eyni səviyyədə saxlamaq üçün az əhəmiyyət kəsb edən malların vergi dərəcələrinin endirilməsi, digərlərinin isə əksinə vergi yüksəldilməsinə nail olmaq;
- Qarşılıqlı görüşlərdə xidmət sahəsi ilə əlaqəli inkişaf etməkdə olan ölkələrə verilən xüsusi və differensial güzəşli rejimin Azərbaycana da verilməsini təmin etmək;
- Müxtəlif sahələrdə yerli mütəxəssislər olduğu müddətdə əcnəbilərin məşğulluğunun qarşısının alınması;
- Kənd təsərrüfatında tətbiq ediləcək subsidiyalar barədə danışıqlarda, illik bu sektorun istehsalının 10% -i həcmində subsidiya verilməsini təmin etmək;
- İnkişaf etmiş ölkələrin Azərbaycanın ÜTT-nin tələblərindən kənar müqavilələrdə iştirak etməsi istiqamətində təkliflərini diqqətlə araşdırmaq və üzvlük müddətindən sonra bu öhdəlikləri qəbul etmək.

Qeyd etdiklərimizə əsasən demək olar ki, ÜTT beynəlxalq ticarəti maksimum dərəcədə liberallaşdıraraq sərbəst və şəffaf rəqabət şərtləri altında dünya rifah səviyyəsinin artırılması məqsədini güdür. Azərbaycan Respublikasının həm bu təşkilata üzv olmaq yolunda apardığı işlər nəticəsində, həm də bu işlərin müsbət nəticələnməsində müəyyən mənada mənfəət əldə edəcəyi, müəyyən mənada zərər çəkəcəyi gözlənilir. Ölkənin mümkün faydaları və zərərləri aşağıdakı kimi sıralana bilər:

A) Faydaları

- Xarici ticarət əməliyyatlarını təxminən 150 ölkənin qəbul etdiyi ümumi qaydalar çərçivəsində həyata keçirərək dünya iqtisadi sisteminə inteqrasiyanı sürətləndirmək;

- Qonşular, əsas ticarət tərəfdaşları və digər üzv ölkələrlə eyni şərtlər daxilində ticari fəaliyyət göstərə bilmək, bütün fürsətlərdən bərabər şəkildə yararlanmaq;
- Ticarət məsələlərində üzv ölkələrin bir-birlərinə təqdim etdikləri üstünlüklərdən və güzəştlərdən yararlana bilmək;
- İqtisadi problemlər yarandıqda ÜTT siyasətlərindən və Problemlərin Həlli Mexanizmindən faydalana bilmək;
- ÜTT çərçivəsində çoxtərəfli ticarət sisteminin inkişafında və bu məsələ ilə bağlı müzakirələrdə iştirak etmək, ÜTT təcrübəsindən faydalanmaq imkanı
- Mövcud standartların beynəlxalq tələblərlə uyğunlaşdırılması;
- Yeni gömrük endirimləri sayəsində üzv ölkələrin əhalisi dünya ortalamasından aşağı qiymətlərlə mal və xidmətlər əldə edə bilməsi;
- İqtisadi inkişaf üçün həyata keçiriləcək fəaliyyətlərdə müəyyən ölkələrdən və digər iqtisadi qurumlardan lazımi kapitalın daha asan əldə edilməsinin üstünlüyü;
- Ölkə iqtisadiyyatındakı bütün inkişafları təsdiqləmək və elan etməklə ölkəyə xarici sərmayələrin cəlb edilməsi;
- Ticarət markalarının və müəllif hüquqlarının qəbul edilmiş qaydalar çərçivəsində həyata keçirilməsi;
- Artan şəffaflıq və milli rejim prinsipi nəticəsində xüsusilə qeyri-neft sektoruna istiqamətlənmiş xarici kapital axınlarının artması;
- İqtisadi fəaliyyətləri tənzimləyərək və qanuni fəaliyyətləri şəffaflaşdıraraq, iqtisadi inkişaf haqqında kifayət qədər məlumata sahib olmaq və dövlət tərəfindən qəbul ediləcək qərarların əvvəlcədən müzakirə edilə bilməsi;
- Mövcud tətbiqetmələrin şəffaflaşdırılaraq prosedurların sadələşdirilməsilə həm sahibkarlıq fəaliyyətini çətinləşdirən və istehsal xərclərini artıran dolayı müdaxilələrin azaldılması, həm də səlahiyyətli orqanlar tərəfindən bu fəaliyyətlərin yoxlanılması və tənzimlənməsi prosedurlarına aydınlıq gətirərək sui-istifadə hallarının qarşısını almaq.

B) Zərərləri

- Milli bazarda artan rəqabət qabiliyyəti nəticəsində rəqabətə davamlı olmayan mal və xidmətlərin adaptasiya prosesində geriləmələrin olması;
- Xarici ticarətdə miqdar məhdudiyyətlərinin tətbiq edilməməsi;
- Ticarətin liberallaşması səbəbindən müdafiə tədbirlərinin yetərli olmaması halında, bazarın daha ucuz xarici mallarla doldurulması;
- Müdafiə tədbirlərinin səmərəli olub-olmamasından asılı olmayaraq, daxili bazarın bütün sahələrində sərbəst rəqabət şərtləri yaranmadığı bir vəziyyətdə daha güclü və təcrübəli xarici şirkətlər üstünlük qazanması;
- Tətbiqi çətin və bahalı olan bəzi məsələlərin həlli proseslərinin hələ başlanğıc mərhələdə həllinin mümkünsüzlüyü;
- Müəyyən olunmuş keçid dövründə rəqabətçi və ixrac yönümlü bir istehsal forması yaradılmazsa sonrakı mərhələlərdə çoxlu problemlərin yaranması;
- Xidmət sektorunda daha ucuz və keyfiyyətsiz xidmət təminatçılarının olması;
- Kifayət qədər ixtisaslı kadr olmadığı təqdirdə, ölkəyə əleyhinə yaranacaq problemlərin aydın şəkildə ifadə edilib həll edilə bilməməsi;
- Bəzi subsidiyalaşdırma təcrübələrini gələcəkdə həyata keçirə bilməməsi;
- Müdafiə tədbirlərin götürülməsi ilə ödənişlər balansda formalaşacaq kəsirlər ölkə ehtiyatlarını aşındırır;
- Dövlət büdcəsinin gömrük rüsumları və vergiləri ilə əlaqəli gəlirləri azalır, qısa müddətdə və bəzən orta müddətdə gərginlik yaranır;
- Texnologiya idxalında patent istifadə xərcləri sənayenin maliyyətlərini artırır və qiymət rəqabətindəki qazanclarını azaldır.

# II FƏSİL. Aİ-NİN VAHİD AZƏRBAYCAN TƏSƏRRÜFATI MƏKANININ FORMALAŞMASI ŞƏRAİTİNDƏ TİCARƏT ƏLAQƏLƏRİNİN STATİSTİK TƏHLİLİ

## 2.1. Aİ-nin xarici ticarət əməliyyatlarının statistik uçotunun iki sistemi

Eurostat, Avropa İttifaqı ölkələrindən daxil olan məlumatların hazırlanmasından və nəşr edilməsindən məsul olan Avropa İttifaqının statistika mərkəzidir. Aİ statistika ofisi 1957-ci ildə yaradılmış və beləliklə, bu hökumətlərarası təşkilat qurulmuşdur. Son bir neçə onillikdə bu statistika mərkəzinin əsas vəzifələrində və funksiyalarında ciddi dəyişikliklər olmuşdur. Eurostat statistik göstəricilərin toplanması, işlənməsi və təhlili ilə yanaşı, statistik uçotla əlaqəli proqram təminatının istehsalı və paylanması ilə də məşğul olur. Eurostat tərəfindən hazırlanmış əsas kompüter proqramları arasında STATISTICA, SigmaStat, Peak fit və digərlərini qeyd etmək olar. Bundan başqa, Brüsseldə Məlumat Şöbəsi və Lüksemburqda geniş bir sıra məlumat statistik xidmətləri özündə əks etdirən Aİ Məlumat Ofisi vardır.

Hal-hazırda Eurostatın əsas vəzifəsi Avropa İttifaqının statistik məlumatlar sahəsində yüksək keyfiyyətli xidmətlərini və statistik məlumatları ictimaiyyətə təqdim etməkdir. Bu, ilk növbədə Eurostat tərəfindən toplanmış və nəşr edilmiş məlumatların geniş istifadəçilərə ötürülməsi deməkdir.

Hazırda xarici iqtisadi əlaqələr sahəsində Eurostat qarşısında qoyulan əsas vəzifələr bunlardır:

a) Aİ ölkələrinin xarici ticarət dövriyyəsinin uçotu, onların Aİ daxilində istifadəsi və məlumatların tərəfdaş ölkələrlə müqayisə olunmasının təmin edilməsi üçün standartların və metodoloji əsasların hazırlanması;

b) Avropa İttifaqının ortaq xarici iqtisadi siyasətini inkişaf etdirmək üçün Aİ-nin əsas idarəetmə strukturlarının məlumatlarına çıxışın təmin edilməsi;

c) xarici ticarət məlumatlarının toplanmasında, işlənilməsində və təhlilində bütün Aİ ölkələrinə yardım göstərilməsi.

Eurostat, Aİ üzv ölkələrindən, Aİ-nin üçüncü ölkələrlə xarici ticarəti və Aİ üzv dövlətləri arasındakı ticarətə dair aylıq statistik məlumatları toplayır. Həm ticarətlə əlaqəli statistik məlumatların toplanması, həm də bu məlumatların işlənməsi metodologiyası Aİ qanunvericiliyində təsbit edilmişdir. Eurostat həmçinin Aİ üzv ölkələri arasında daxili və xarici ticarət arasındakı əsas fərqləri müəyyənləşdirmiş və metodoloji olaraq təyin etmişdir. Bununla birlikdə qeyd etmək lazımdır ki, Eurostat və ayrı-ayrı üzv ölkələr tərəfindən nəşr edilən məlumatlar bəzi ticarət axını növləri üçün eyni olmaya bilər.

Vahid Avropa bazarının formalaşması ilə əlaqədar olaraq, Aİ üzv dövlətləri arasında malların sərbəst hərəkəti haqqında müddəa qüvvəyə mindi və Aİ üzv dövlətlərinin daxili sərhədlərində gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi ləğv edildi. Bu şərtlərdə daxilində BMT Statistika Komissiyası ölkələrin təkcə özlərini xarici ticarət əməliyyatları barədə əsas məlumat mənbəyi olan gömrük bəyannaməsi ilə məhdudlaşdırmağı və əlavə mənbələrdən istifadə edərək xarici ticarət mühasibat uçotu üçün məlumat bazasının genişləndirilməsini tövsiyə etdi. Əlavə mənbələrə aşağıdakılar daxildir: vergi bəyannaməsi, bankların həyata keçirdiyi xarici ticarət əməliyyatları barədə məlumat, xarici ticarət fəaliyyəti ilə məşğul olan müəssisə və firmaların nümunə anketləri. Aİ-nin xarici ticarətinin müasir statistikası geniş məlumat bazasına əsaslanır. Bu, Aİ dövlətləri arasındakı daxili ticarətdə statistik məlumatların toplanması üçün ənənəvi sistemin ləğv edilməsinə səbəb oldu. Əgər əvvəllər bu məlumatların mənbəyi Aİ Vahid İnzibati Sənədi adlanan gömrük bəyannaməsi idisə, müasir şərtlərdə Aİ üzv dövlətləri arasındakı ticarətə dair statistik məlumatlar birbaşa əməliyyatlarda iştirak edən müəssisə və təşkilatlardan toplanır.

Aİ-də xarici ticarət dövriyyəsinin (yəni "üçüncü ölkələrlə" ticarətin) uçotu metodologiyasında ixrac və idxal (export, import) və daxili dövriyyəsinin (Aİ ölkələri arasında ticarət) mühasibat uçotu metodologiyasında isə malların idxalı və ixracı (arrivals, dispatches) anlayışlarından istifadə olunur.

İntrastat adlanan yeni məlumat toplama sistemi, 7.11.1991-ci il tarixli 3330/91 saylı Şuranın Reqlamentə uyğun olaraq Vahid Bazarın yaradılmasına hazırlıq

məqsədi ilə qəbul edilmişdir. Bu sistemə əsasən, müəssisələrdən, Aİ-nin daxili bazarında əvvəlki ayda həyata keçirdiyi ticarət əməliyyatları barədə ətraflı məlumatları ehtiva edən, tamamlanmış statistik bəyannamə şəklində aylıq hesabat təqdim etmələri tələb olunur. Bəzi ölkələrdə bu bəyannamə yalnız statistik deyil, həm də vergidir. Bəyannamə ticarət əməliyyatının ən vacib xüsusiyyətlərini əhatə edir: malların adı, miqdarı və dəyəri, qarşı tərəf, ticarət növü, çatdırılma və ödəmə şərtləri, nəqliyyat növü və digərləri. Ölkələr öz mülahizələrinə görə əlavə olaraq bu sənədə digər məlumatları da daxil edə bilərlər.

Vergi bəyannaməsi sistemi ilə sıx əlaqə İntrastat məlumatlarının keyfiyyətinə müsbət təsir göstərir. Üzv ölkələrin maliyyə və vergi idarələri rübdə ən azı bir dəfə malların qəbul edildiyi və ya çatdırıldığı sahibkarların siyahılarını müvafiq əməliyyatların dəyərini göstərməklə statistik idarələrə təqdim etmək məcburiyyətindədirlər ki, bu da statistik məlumatların tamlığına və keyfiyyətinə nəzarət etməyə imkan verir. Avropa İttifaqının xarici ticarəti barədə bütün məlumatlar malların çatdırılmasının baş verdiyi ayın sonundan altı həftə ərzində alınmalıdır. "Daxili ticarət" üçün bu müddət, həyata keçirilmiş əməliyyatlar barədə tam bir hesabat üçün qırx gündür.

Fiziki şəxsləri bu yükdən azad etmək üçün, statistika orqanları Avropa İttifaqının daxili ticarətində mal dövriyyəsinin uçotu üçün bəzi məhdudiyyətlər müəyyən etdilər və bu şərtlər daxilində ticarət haqqında məlumat buraxıla bilər. Məsələn, bəzi kiçik müəssisələr əlavə dəyər vergisinin ödənilməsi barədə bəyannamə təqdim etməyənlər məlumatları verməkdən azaddırlar. Avropa İttifaqının qanunvericiliyi daxilində yalnız malların adı, qarşı tərəf və ticarət həcmi barədə məlumat vermək kifayətdir minimum maliyyə göstəricilərini müəyyənləşdirir. Bu cür malların uçotunu asanlaşdırmaq üçün 100 Avrodan aşağı qiymətə qruplara birləşdirməyə icazə verilir.

22.05.95-ci il tarixli 1172/95 saylı Şura Reqlamentinə əsaslanan xarici ticarət statistikasında, qanunla müəyyən edilmiş dəyəri və ya xalis çəkisi həddi aşmamaq şərti ilə ixrac-idxal əməliyyatları da nəzərə alınmamalıdır. Məhdudiyyətlər elə bir səviyyədə qoyulub ki, ümumi dəyəri 1000 avronu keçməyən malların nəzərə

alınmamasına icazə verilib. Lakin 2002-ci ildən bəri, İttifaqının qanunvericiliyi bu cür əməliyyatların Aİ üzv dövlətlərinin xarici ticarəti ilə bağlı statistik məlumatlara daxil edilməsini təmin edir. Bu cür ticarətin dövriyyəsi ümumi ixrac və ya idxal dəyərinin 1% -dən azdır, lakin bəzi məhsul növləri üçün bir qədər yüksək ola bilər.

Hər iki sistemdə (İntrastat və Ekstrastat) hesabat dövrü bir aydır. Ancaq İntrastat sistemində mallar Aİ ölkələri ərazisində satıldığı ayda hesablanır, Extrastat sistemində isə bu gömrük orqanlarının əməliyyat üçün gömrük bəyannamələrini qəbul etdiyi aydır.

Həm mal ixrac edilərkən, həm də "daxili" ticarət çərçivəsində mal tədarük edilərkən qarşı tərəf ölkələrin uçotu aparıldıqda, ölkə - statistik qeyd üçün qarşı tərəf, bu məhsulların son istehlak ölkəsidir. Mallar idxal edərkən qarşı tərəf ölkə malların istehsal olunduğu və ya emal edildiyi dövlətdir. Əgər məhsul bir neçə ölkədə emal prosesindən keçibsə, məhsulun son emal mərhələsini keçdiyi ölkə nəzərə alınacaqdır. Aİ üzv ölkələrindən mallar tədarük edilərkən, qarşı tərəf malların birbaşa çatdırıldığı ölkə olacaq, yəni mənşə ölkəsi.

Avropa İttifaqının xarici ticarət statistikasında malların dəyəri həm İntrastat sistemində, həm də Extrastat sistemində FOB qiymətləri (ixrac və ya daşınma) və CIF (malların idxalı və ya satışı üçün) ilə aparılır. Fərq ondadır ki, birinci sistem malların vergiyə cəlb olunan dəyərində, ikinci sistem üçün isə gömrük dəyərində uçot aparmaqla xarakterizə olunur. Həm də nəzərə alınmalıdır ki, Aİ-nin “daxili ticarətində”, gömrük bəyannaməsinə əlavə edilmiş faktura əsasında dəyəri müəyyənləşdirildiyi zaman əlavə bir metoddan istifadə edilə bilər. Mallar emal üçün idxal olunursa, malların emalının əlavə dəyəri deyil, Aİ-yə daxil olan orjinal malların tam dəyəri göstərilir. Bütün qiymətlər avro ilə göstərilir. Müəyyən bir dövlət daxili ticarətin statistik qeydiyyatında fərqli bir valyutadan istifadə edirsə, konvertasiya orta aylıq məzənnə ilə aparılır və mühasibat əməliyyatdan dərhal sonra aparılırsa, rəsmi sabit məzənnə istifadə edilə bilər.

1997-ci ilə qədər olan malların miqdarı nəzərə alınarkən, Aİ ölkələri bütün ticarət əməliyyatları üçün xalis çəkidən istifadə etdilər. Bu, hazırda məcburi deyil, yalnız məqsədəuyğunluqlarla müəyyən edilir. Xalis çəki malların qablaşdırılmamış

xalis çəkisidir və kiloqramla hesablanır. Ancaq Aİ nəşrlərində istifadəçinin rahatlığı üçün bu çəki tonlarla verilir. Ağırlığa əlavə olaraq digər kəmiyyət mühasibat ölçüləri də istifadə olunur: məhsulun özünəməxsusluğuna görə litr, cüt, metr, kubmetr, ədəd və digər ölçü vahidləri. Lakin unutmamaq lazımdır ki, Eurostat məhsul haqqında məlumatları Aİ ölkələrinin özləri tərəfindən istifadə edilənlərdən fərqli ölçü vahidlərində də dərc edə bilər.

İntrastat sistemindən istifadənin nəticələri, müəyyən çətinliklərə baxmayaraq, mütəxəssislər tərəfindən müsbət qiymətləndirilir. Bu sistemin tətbiqi zamanı Ticarətdə Elektron Məlumat mübadiləsi adlı nəhəng bir layihə çərçivəsində məlumatların toplanması və ötürülməsi sistemi təkmilləşdirilmişdir. Məlumat verməkdən məsul olan həm tərəflər, həm də statistika qurumları üçün bir sıra proqram vasitələri hazırlanmış və daha da inkişaf etdirilmişdir.

Üçüncü ölkələrlə (Aİ üzvü olmayan ölkələr) ticarətdə, malların hər bir göndərilməsi üçün gömrük orqanları tərəfindən tələb olunan əsas ilkin sənəd hələ də gömrük bəyannaməsidir. Gömrük işçiləri bu sənəddə göstərilən bütün məlumatları ciddi şəkildə nəzarət etməyə çağırılır. Bu prinsiplərə əsaslanan məlumat toplama sistemi, artıq qeyd edildiyi kimi, "Ekstrastat" (Extrastat) adlanır.

Extrastat proqramına uyğun olaraq statistik məlumatların qeydiyyatı təkrar ixrac əməliyyatları nəzərə alınmayan "xüsusi mühasibat sistemi" ilə aparılır. Bu sistemə aşağıdakı xarici ticarət əməliyyatları daxildir:

- Aİ-də daxili istifadə üçün xarici mənşəli malların idxalı;
- emal üçün malların Avropa İttifaqı ərazisinə gömrük nəzarəti altında idxalı;
- təkrar idxal;
- yerli mənşəli malların xaricə ixracı;
- gömrük nəzarəti altında işləndikdən sonra malların ixracı;
- "milliləşdirilmiş malların" ixracı - Avropa İttifaqı ərazisində sərbəst dövriyyədə olan xarici mənşəli məhsullar.

Aİ ölkələrində ortaq bir gömrük və statistik ərazi mövcuddur, lakin Aİ üzv dövlətlərinin hər birinin özünün "statistik" ərazisi də var. Yəni dərc edilmiş

məlumatların aid olduğu ərazi. Aİ ölkələri Eurostatın tələb etdiyi kimi ticarət axınlarının mühasibat uçotunda, “xüsusi sistem” istifadə edirlər. Üç ölkə - Danimarka, İrlandiya - “ümumi sistem” -dən istifadə etsələr belə, sonda Eurostatın ehtiyacları üçün “xüsusi sistem” altında hesabat hazırlamalıdırlar. İki sistemin (İntrastat və Ektrastat) məlumatlarına əsasən, hər bir ölkənin və bütövlükdə Avropa İttifaqının xarici ticarətinə dair ümumi bir məlumat bloku formalaşır.

İntrastat və Extrastat sistemləri arasındakı metodoloji fərqlər, artıq qeyd edildiyi kimi, ticarət tərəfdaş ölkələrin mühasibat uçotu ilə əlaqədardır. İntrastat və Extrastat sistemlərindəki idxalın fərqli statistik qeydiyyatı təcrübələri olduqca müəyyən bir iqtisadi məna daşıyır və hazırda Avropa İttifaqı boyunca "ölkə malları" bazasında ikiqat sayılmamaq üçün bütün Aİ üzv dövlətləri tərəfindən tətbiq olunur.

Avropa İttifaqına daxil olan ölkələrdə statistik məlumatların məxfiliyinin təmin edilməsi milli statistika qurumlarının fəaliyyəti üçün əsas prinsip və şərtlərdən biridir. Bu prinsipə uyğunluq respondentlərin qeyd-şərtsiz qorunmasının universal zəmanəti hesab edilə bilər. Statistik məlumatların məxfiliyinə riayət olunmasına dair hüquqi və etik zəmanətlər statistika haqqında qanunlarda təsbit edilmiş və həmçinin statistik məlumatların qorunması sahəsində digər hüquqi aktlarla tənzimlənir. Avropa İttifaqının bütün üzv dövlətləri, statistik uçot və statistik məlumatların məxfiliyi üçün hüquqi baza yaradan qanunvericilik hazırlayarkən, Avropa Şurası və Eurostatın müvafiq tövsiyələrindən istifadə edirlər. Buna görə də bu ölkələrdə məxfiliyin və məlumatların qorunmasının təmin edilməsinə əsas yanaşmalar oxşardır. Baxmayaraq ki, hər ölkədə məlumatların qorunması zəmanətlərinin spesifik xüsusiyyətləri mövcuddur. Bunlar yalnız statistik məqsədlər üçün istifadə edilməlidir. Buradan belə çıxır ki, statistik məlumatlara giriş məhduddur və yalnız onların işlənməsinə cavabdeh olan işçilər üçün icazə verilir. Bu məlumatlar heç bir üçüncü tərəfə ötürülə bilməz. Yalnız ümumiləşdirilmiş və bu səbəbdən anonim statistik məlumatlar dərc edilməli və yayılmalıdır. Məxfilik tələbi birbaşa statistika işində iştirak edən bütün şəxslərə şamil edilməlidir.

Aİ Şurasının tövsiyələrinə görə, statistika təşkilatı məlumatların məxfiliyi üçün rəsmi təminatlar verməlidir. Artıq qeyd edildiyi kimi, bütün Aİ ölkələrində

məxfiliyin təmin edilməsi prinsipləri Statistika Qanunu ilə tənzimlənir. Avropa İttifaqının bütün üzv dövlətlərinin də məlumatların qorunması qanunları var. Eyni zamanda, hər bir ölkənin məxfiliyin təmin edilməsi prosedurunu, məxfi məlumatların tərkibini, qorunması üçün irəli sürülən tələblərin sərtliyini müəyyən edən sənədlərin hüquqi statusu ilə bağlı özünəməxsus xüsusiyyətləri var.

Statistik istehsalın bütün mərhələlərində - statistik məlumatların toplanması, emalı, saxlanması və yayılması zamanı məxfilik təmin edilir. İnformasiyaya artan tələb, yeni məlumat ötürülməsi vasitələrinin meydana çıxması ilə birlikdə statistik məlumatların qorunmasına ehtiyac artır. Buna görə Aİ və Eurostat milli statistika idarələri bu sahədə qazanılan uğurlara baxmayaraq, xarici ticarət də daxil olmaqla bütün statistik məlumatların məxfiliyinin təmin edilməsi prinsipləri və metodlarının təkmilləşdirilməsi üçün çalışmalarını davam etdirir, eyni zamanda dərc olunanların tamlığı və etibarlılığını təmin edir.

Gömrük prosedurları ilə sıx əlaqəli xarici ticarət statistikaları, indi digər ölkələrlə iqtisadi dialoq üçün vacib bir vasitə halına gəlmişdir. Dünya birliyi, belə bir dialoqun müvəffəqiyyətinin ən yaxşı zəmanəti olduğunu dəstəkləyir.

## 2.2. Aİ çərçivəsində ticarətin coğrafi və əmtəə strukturunun təhlili

27 ölkədən ibarət olan Avropa İttifaqı dünyanın ən böyük siyasi və iqtisadi təşkilatıdır. Dünya əhalisinin təxminən 6%-ni təşkil etsə də, Aİ dünyanın ən böyük iqtisadiyyatları və ticarət aktyorları arasındadır. İnkişafın hazırkı mərhələsində Avropa İttifaqı möhkəm sosial-iqtisadi potensiala malikdir. Onun əsas xarakteristikalarına, bir qayda olaraq, əhalinin sayını, ümumi məhsulun istehsal göstəricilərini, ixrac-idxal əməliyyatlarının həcmini və s. aid etmək olar. Bundan əlavə, Aİ geniş və çoxşaxəli bazar quruluşu, inkişaf etmiş infrastruktur imkanları, texniki standartlar və bütün üzv ölkələrdə eyni şəkildə tətbiq olunan sağlamlıq, fitosanitar tədbirləri, mövcud bazar həcmi və gələcək ticarət potensial əlaqələri ilə ölkəmiz üçün çox vacib bir bazardır.

Xarici ticarət ölkənin malik olduğu iqtisadi resursların ən səmərəli şəkildə istifadə edilməsini təmin edəcək ixrac və idxal strukturunu, yəni hansı malların hansı

ölçüdə ixrac və idxal edildiyini araşdırır. Ticarət Aİ-nin həm daxili inteqrasiyası, həm də beynəlxalq səviyyədə münasibətlərinin nizamlanmasında əsas alətlərdən biridir. Aİ dünya ticarətində demək olar ki, bütün göstəricilərdə lider mövqeyə malik olan vahid bir qurum kimi çıxış edir.

Eurostatın 1 fevral 2020-ci il tarixində Avropa İttifaqı ölkələrinin demoqrafıq məlumatlarına əsasən 2019-cu ilin əvvəlində 513,5 mln. olan Aİ-28-in ümumi əhalisi, 2020-ci ildə Birləşmiş Krallığın getməsi ilə azalmışdır. Hazırda Aİ-27-nin ümumi əhalisi 447,7 mln. nəfərdir. Avropa İttifaqı əhalisinə görə dünyada üçüncüdür. Avropa İttifaqının əhalisinin sayı Çindən (1,4 mlrd. nəfər) 3,2 dəfə az, Hindistandan (1,380 mlrd. nəfər) 3 dəfə az, ABŞ-dan (331 mln. nəfər) isə 1,3 dəfə çoxdur.

2019-cu ilin göstəricilərinə əsasən Aİ əhalisinin təxminən üçdə ikisi (Aİ-27-nin ümumi əhalisinin 66%-i) ən sıx beş ölkədə - Almaniya (18,5%), Fransa (15,0%), İtaliya (13.5%), İspaniya (10,5%) və Polşada (8,5%) məskunlaşmışdır. İttifaqın digər üzv ölkələrinin hər birinin əhalisinin payı 4,3% -dən çox deyil (Latviya 0,43%, Macarıstan 2,19%). Aİ-də 24 ilə 64 yaş arasındakı məşğulluq nisbəti son illərdə artım tendensiyası göstərmişdir. Məşğulluq nisbəti 2019-ci ildə rekord həddə - 73,1% -ə çatmışdır. Aİ-də indiyə qədər ən yüksək məşğulluq səviyyəsi isə 82,1% -lik göstərici ilə İsveçə məxsusdur.

2010-cu ildə Avropa Şurası Avropa2020 strategiyasını qəbul etdi. Diqqət Aİ iqtisadiyyatının gücləndirilməsinə və növbəti onillik üçün problemlərin müəyyən edilməsinə yönəldildi. Bu strategiyanın Aİ səviyyəsindəki əsas hədəflərindən biri, 2020-ci ilə qədər 20-64 yaşarası əhalinin məşğulluq nisbətini ən az 75% -ə qaldırmaq idi. Aİ-27 bütövlükdə 2019-cu ildə hədəfinə hələ çatmasa da, 17 Aİ üzv dövlət Avropa2020 strategiya hədəfinə çatmış və ya hətta aşmışdır. Bu ölkələrə üç Skandinaviya ölkəsi - İsveç, Danimarka və Finlandiya, üç Baltikyanı ölkə - Estoniya, Litva, Latviya və həmçinin Niderland, Almaniya, Çexiya, Sloveniya, Portuqaliya, Kipr, Macarıstan, Malta, İrlandiya, Avstriya, Bolqarıstan daxildir. İslandiya, İsveçrə və Norveçdə məşğulluq nisbəti 75% -dən yuxarı olmuşdur. Məşğulluq nisbəti 70%-dən aşağı olan ölkələrə Xorvatiya, İtaliya, İspaniya və

Yunanıstanda aiddir. Namizəd ölkələr olan Monteneqro, Şimali Makedoniya, Serbiya və Türkiyədə məşğulluq nisbətlərinin 65% və ya daha aşağı olduğu qeyd edilmişdir.

Ölkələrin inkişaf səviyyəsi müxtəlif üsullar vasitəsilə ölçülür. Ölkələrin ümumi daxili məhsulu (ÜDM), adambaşına düşən ÜDM, ÜDM-in illik artım tempi bütün tədqiqatlarda istifadə olunan inkişafın əsas göstəricidir.

**Cədvəl 2: Aİ-nin ÜDM və adambaşına düşən ÜDM həcmi**

| İllər | ÜDM həcmi (trln. ABŞ dolları) | ÜDM artımı (%) | Adambaşına düşən ÜDM həcmi (mlrd. ABŞ dolları) | Adambaşına düşən ÜDM artımı (%) |
|---|---|---|---|---|
| **2015** | 13.5 | 2,3 | 38 222 | 2,1 |
| **2016** | 13.8 | 2,0 | 40 561 | 1,8 |
| **2017** | 14.7 | 2,8 | 42 848 | 2,6 |
| **2018** | 15.9 | 2,1 | 44 465 | 2,0 |
| **2019** | 15.6 | 1,6 | 46 564 | 1,4 |

**Mənbə:** Dünya Bankının göstəriciləri, https://data.worldbank.org/indicator/NY.GDP.MKTP.CD?locations=EU (2020)

Cədvəldən göründüyü kimi, Dünya Bankının göstəricilərinə görə 2019-cu ildə Avropa İttifaqının nominal ÜDM 15,6 trln. ABŞ dolları olmuşdur. 2015-2019-cu illər arasında Aİ-nin ÜDM həcmi 15,3% artmışdır. Bu illər ərzində ən yüksək artım tempi (2,8%) 2017-ci ildə müşahidə edilmişdir.

Bu hesablamalara əsasən 2019-cu ildə Aİ dünya iqtisadiyyatında ABŞ-dan (21,4 trln. ABŞ dolları) sonra ikinci yerdədir. Çin isə 14,3 trln. ABŞ dollar ilə üçüncüdür. Lakin, alıcılıq qabiliyyəti pariteti əsasında hesablamalardan istifadə edərkən, bu üç subyekt arasında bir qədər fərqli qüvvələr nisbəti yaranır. Belə ki, 2019-cu ildə Çin 22, 5 trln. ABŞ dolları ÜDM göstəricisi ilə dünyanın ən böyük iqtisadiyyatı olmuşdur. Həmin sıralamada ABŞ 20,5 trln. ABŞ dolları ilə ikinici, Aİ isə 19,9 trln. ABŞ dollar göstəricisi ilə üçüncü olmuşdur. Aydındır ki, bu rəqib tərəfdaşlar birlikdə qlobal ümumi məhsulun təxminən yarısını istehsal edirlər.

2019-cu ildə Aİ-nin ÜDM-i on il əvvəlki səviyyəsindən 17% çox olmuşdur. Təbii ki, bu göstəricinin əldə edilməsində üzv ölkələrinin payı vardır. Aİ ÜDM-nin dörddə birini Almaniya (24,7%) istehsal edir. Onun ardınca Fransa (17,4%), İtaliya (12.8%), İspaniya (8,9%) və Niderland (5,8%) gəlir. Digər tərəfdən Aİ-nin on üzv

dövləti ümumi ÜDM-in 1% -dən az hissəsini təmin etmişdir. Bu ölkələrə Malta (0,1%), Estoniya, Kipr və Latviya (hər biri 0,2%), Litva və Sloveniya (hər ikisi 0,3%), Bolqarıstan və Xorvatiya (hər ikisi 0,4%), Lüksemburq (0,5%) və Slovakiya (0,7%) aiddir. Aİ-də 2019-ci il üzrə adambaşına düşən ÜDM həcmi 46 564 ABŞ dolları olmuşdur. Aİ üzv ölkələrindən adambaşına düşən ÜDM istehsalı üzrə dünya liderləri arasında Lüksemburq ikinci (121.292 ABŞ dolları) , İrlandiya beşinci (88240  ABŞ dolları) sıradadır. Buna əsasən deyə bilərik ki, ittifaqa üzv olan ölkələrin bir çoxu, şübhəsiz ki, dünyanın iqtisadi cəhətdən ən qabaqcıl dövlətləri sırasındadır.

Aİ qlobal ticarətdə dünyanın ən böyük oyunçularından biridir. Aİ-27, dünya mal ticarətinin təxminən 15%-ni təşkil edir. Malların beynəlxalq ticarətinin dəyəri xidmətlərin dəyərini əhəmiyyətli dərəcədə üstələyir (təxminən üç dəfə) ki, bu da bəzi xidmətlərin xarakterini əks etdirir və bu da onların transsərhəd ticarətini çətinləşdirir. 2018-ci ildə Aİ-dən kənar ticarət qlobal ixracatın 15,8%-ini və qlobal idxalın 14,1%-ni təşkil etdiyi üçün dünyanın ikinci böyük ixracatçısı və idxalatçısı oldu.

Avropa İttifaqına üzv dövlətlər arasında və həmçinin xarici dövlətlərlə beynəlxalq mal ticarətinə dair məlumatlar-xüsusilə idxal və ixracın həcmi haqqında statistik məlumatlar Aİ-yə və hakimiyyət orqanlarına vahid bazarın artımını və Aİ iqtisadiyyatının inteqrasiyasını qiymətləndirməyə imkan verir.

Diaqram 1-ə əsasən demək olar ki, Aİ üzv dövlətlər arasında 2008-ci ilin yanvar ayı ilə 2020-ci ilin yanvar ayları arasında mal ixracatı 198 mlrd. avrodan 256,3 mlrd. avroya yüksəlmişdir. Maliyyə və iqtisadi böhrandan qaynaqlanan malların ixracat dəyəri 2008-ci ilin sentyabrından 2009-cu ilin may ayına qədər kəskin azalma olmuşdur. Bu kəskin azalmadan sonra Aİ xaricindəki ixracat qismən canlandı və böhrandan sonra bir neçə il ərzində Aİ iqtisadi cəhətdən dirçəldi. Beləliklə, 2011-ci ilin mart ayından 2014-cü ilin may ayına qədər və yenidən 2018-ci ilin iyunundan 2020-ci ilin yanvar ayına qədər ixrac nisbətən sabit qalmışdır.

**Diaqram 1: Aİ-27 daxili mal ixracatı dinamikası, Yanvar 2008 - Yanvar 2019 (mlrd.avro)**




**Mənbə:** Eurostat -ext_st_eu27sitc, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Intra-EU_trade_in_goods_-_main_features (2020)

İntrastat məlumat toplama sisteminin tətbiq olunmasından etibarən, Aİ daxili mal ixracatının dəyəri Aİ daxili mal idxalından daha yüksək olmuşdur. Aİ daxilində malların ixracı FOB və malların idxalı CIF tipinin dəyəri ilə bəyan olunduğundan, Aİ daxilində mal idxalının dəyəri Aİ daxilində malların ixrac dəyərindən bir qədər yüksək olmalıdır.

**Cədvəl 3: 2015-2019 illər üzrə digər üzv dövlətlərə ən yüksək mal ixracat dəyərinə malik 8 ölkə (mlrd. avro və %)**

| Ölkə | 2015 | 2019 | 2015-2016 İllik orta böyümə sürəti (%) |
|---|---|---|---|
| Almaniya | 604 | 699 | 3,7 |
| Niderland | 342 | 414 | 4,9 |
| Fransa | 236 | 262 | 2,6 |
| Belçika | 225 | 257 | 3,4 |
| İtaliya | 204 | 241 | 4,3 |
| İspaniya | 147 | 177 | 4,8 |
| Polşa | 130 | 174 | 7,5 |
| Çexiya | 111 | 141 | 6,1 |

**Mənbə:** Eurostat - Comext DS-018995, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Intra-EU_trade_in_goods_-_main_features (2020)

Cədvəl 3-də 2015-2019-cu illər üzrə üzv dövlətlər arasında mal ixrac dəyərinin ən yüksək olduğu ölkələr göstərilmişdir. Eurostatın məlumatlarına əsasən Aİ-dəki tərəfdaşlarına malların ixracı 100 mlrd. avrodan çox olan səkkiz üzv dövlət vardır

ki, bu da Aİ daxilində malların ixracının ümumi dəyərinin 80,8% - ni təşkil edir. Malların ixracat dəyərinin ən yüksək olduğu dövlət isə Almaniyadır (699 mlrd. avro). Ən aşağı ixrac səviyyəsi isə 1,3 mlrd. avro ilə Kiprdə müşahidə edilmişdir. 2015-2019 arasında yeddi üzv dövlətdə (Bolqarıstan, Xorvatiya, Kipr, Latviya, Litva, Polşa və Rumıniya), Aİ-27-dəki tərəfdaşlara mal ixracatının dəyəri hər il 7%-dən çox artmışdır. Yeddi üzv dövlətdə illik ortalama artım 5% -7% arasındadır. Qalan 13 üzv dövlətdə orta artım 5% -dən az olmuşdur.

Diaqram 2-də məhsul növləri üzrə Aİ daxili malların ixracının payı göstərilmişdir. 2015-ci ildən 2019-cu ilə qədər qida və içki, kimyəvi maddələr, xammal məhsulları üzrə az da olsa artım müşahidə edilmişdir. Enerji və digər məhsullar üçün göstəricilər sabit, avtomobil və nəqliyyat vasitələri üzrə isə azalmışdır.

**Diaqram 2: Malların növlərinə görə Aİ daxili ixracat, 2015-2019 (malların ümumi ixracının %-i)**




**Mənbə:** Eurostat - Comext DS-018995, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Intra-EU_trade_in_goods_-_main_features (2020)

2019-cu ildə istehsal olunmuş malların beynəlxalq ticarəti, Aİ-də əsas malların ticarəti ilə müqayisədə dörd dəfədən çox olmuşdur. Baxmayaraq ki, bütün üzv dövlətlərdə istehsal olunan malların payı əsas malların payından çox idi, lakin üzv dövlətlər arasında xeyli fərq vardı. Çexiyada (10,3) və Slovakiyada (10,0) istehsal olunan məhsulların payı əsas malların payından on qat daha yüksək idi, Estoniyada (1,4), Litvada (1,7) və Latviyada (1,8) isə nisbətlər ikidən aşağı olmuşdur.

İndi isə ticarət edilən məhsullara "Fəaliyyət növləri üzrə məhsul təsnifatı" (CPA) daxilində diqqət yetirək. CPA təsnifatı - məhsulların fəaliyyətinə görə statistik təsnifatdır və 40 məhsuldan ibarətdir. Bu təsnifata əsasən 2015-2019-cu illərdə ən çox ixrac edilən beş mal növünə motorlu nəqliyyat vasitələri, kimyəvi maddələr və kimya məhsulları, maşın və avadanlıqlar, kompüter, elektronik və optik məhsullar, qida məhsulları aiddir. Aİ-nin tərkibi 2015-ci ildən 2019-cu ilədək dəyişməz qalsa da, Aİ daxili ixracat 492 mlrd. avro artaraq, illik 4,5% böyümüşdür. Həmin illər ən çox ixrac edilən beş mal növündə Aİ daxili ixracat, illik 5,0% böyümə nisbətinə bərabər olaraq 256 mlrd. avro artmışdır.

Bu beş məhsul qrupu birlikdə bütün ixracatın demək olar ki yarısını (47%) təşkil edir. 13% ilə motorlu nəqliyyat vasitələri payı 10%-dan yuxarı olan yeganə məhsuldur.

**Cədvəl 4: Əsas CPA qruplarının Aİ daxili ixracatı, 2015-2019 (mlrd. avro)**

| CPA Kod | CPA Etiket | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Ümumi** | **Ümumi** | **2.568,5** | **2.624,1** | **2.845,0** | **3.014,7** | **3.060,7** |
| **29** | Motorlu nəqliyyat vasitələri | 311,0 | 343,8 | 369,0 | 386,9 | 396,5 |
| **20** | Kimyəvi maddələr və kimyəvi məhsullar | 241,3 | 241,7 | 263,6 | 287,7 | 284,3 |
| **28** | Maşın və avadanlıq | 225,0 | 236,2 | 253,0 | 270,3 | 275,5 |
| **26** | Kompüter, elektronik və optik məhsullar | 220,1 | 227,5 | 252,6 | 263,1 | 269,3 |
| **10** | Qida məhsulları | 184,1 | 191,5 | 205,4 | 206,8 | 212,1 |

**Mənbə:** Eurostat -Comext database DS-057009, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Intra-EU_trade_in_goods_-_main_features (2020)

Aİ daxilində ən çox ixrac olunan məhsul motorlu nəqliyyat vasitələri idi. 2015-ci ildən 2019-cu ilə qədər ixracatı 311 mlrd. avrodan 397 mlrd. avroya yüksəlmişdir. Bu dövrdə ən çox satılan kimyəvi maddələr və kimyəvi məhsullar, eləcə də maşın və avadanlıqların Aİ daxili ixracatı daha az böyümüşdür. 2019-cu ildə kimyəvi maddələrin ixracatı 284 mlrd. avro təşkil etmişdir. Onu 275 mlrd. avroluq maşınlar, 269 mlrd. avroluq kompüter, elektronik və optik məhsullar izlədi. Aİ daxili qida ixracatı 2019-cu ildə 212 mlrd. avro səviyyəsində qalmışdır.

Kompüter, elektronik və optik məhsullar üzrə isə 2019-cu ildə Niderland ən böyük ixracatçı idi. 77 mlrd. avroluq ixracatı, Aİ-27-nin digər üzv dövlətlərə etdiyi ümumi ixracatın 28,6%-ini təşkil etmişdir.

2019-cu ildə 10 üzv dövlətdə xarici ticarət balansının profisiti olmuşdur. Profisit Niderlandda ən yüksək səviyyədədir (184,2 mlrd. avro). Ardınca Belçika (29,8 mlrd. avro), Çexiya (23,5 mlrd. avro), İrlandiya (23,1 mlrd. avro) və Polşa (19,2 mlrd. avro) gəlir ki, onlarda da profisit on mlrd. avronun üstündədir. Digər 17 üzv dövlətdə isə ticarət defisiti müşahidə edilmişdir. Ən yüksək defisit Fransada (111.9 mlrd. avro) olub. Onu İsveç (17.9 mlrd. avro), Avstriya (17.3 mlrd. avro), Portuqaliya (16.9 mlrd. avro), Rumıniya (12.5 mlrd. avro) və Yunanıstan (10.6 mlrd. avro) izləyir.

## 2.3. Aİ ölkələrinin üçüncü ölkələrlə ticarət əlaqələri və AR-in bu əlaqələrdə yeri

"Üçüncü ölkə" ifadəsi Aİ-yə daxil olmayan ölkələr üçün istifadə olunur. Avropa İttifaqı formal olaraq İttifaq üzvü olmayan ölkələrlə bir sıra əlaqələrə malikdir. Avropa İttifaqının rəsmi saytının və Günter Verheugenin verdiyi bir açıqlamaya görə, məqsəd Aİ-nin demokratik ideallarını bölüşmək və mütləq tam üzv olmadan daha çox ölkə ilə tərəfdaşlıq edərək inteqrasiyaya qoşulmaqdır.

Avropa İttifaqının iqtisadiyyatının digər ölkələrlə necə qarşılıqlı əlaqədə olduğunu və mövqeyini göstərən mühüm bir göstəricilər, xüsusən də idxal və ixracın həcmi Ekstrastat statistik sistemində toplanır. Ektrastat - Aİ-nin əsas ticarət tərəfdaşları və ən çox satılan məhsullar, Aİ xaricindəki ticarətdə idxal və ixracatda son tendensiyaları göstərən statistik göstəricilər sistemidir.

Aİ, 2008-ci ildəki maliyyə böhranından sonra həm idxalatda, həm də ixracatda özünü toparlamağı bacarmışdır. Bununla birlikdə, 2012-2016 arasında idxal azalma, ixracda isə artımlar müşahidə edilmişdir. Nəticədə, 2012-ci ildən 2019-cu ilə qədər Aİ-nin ticarət balansı müsbət olmuşdur. 2019-cu ildə ixrac idxalla müqayisədə daha

çox artmış və nəticədə 152 mlrd. avroluq ticarət profisiti 197 mlrd. avroya yüksəlmişdir. Bunu aşağıdakı diaqram 3-dən də aydın görmək olar:

**Diaqram 3: Aİ-nin illər üzrə xarici ticarəti, 2009-2019 (mlrd. avro)**




**Mənbə:** Eurostat - online data code: ext_lt_maineu, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2020)

Dünya mal ticarətinin təxminən 15%-i Aİ-27-nin payına düşür. Malların beynəlxalq ticarətinin dəyəri xidmətlərin dəyərini əhəmiyyətli dərəcədə üstələyir (təxminən üç dəfə) ki, bu da bəzi xidmətlərin xarakterini əks etdirir və onların transsərhəd ticarətini çətinləşdirir.

**Diaqram 4: Coğrafi regionlara görə Aİ-27 ticarəti, 2020 (mlrd. avro)**




**Mənbə:** Eurostat - ext_lt_maineu, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2020)

2020-ci ildə Aİ ixracatında əsas istiqamətlər digər Avropa ölkələri (37%), ardından Asiya (30%)  və Şimali Amerika (20%) olmuşdur. Aİ-nin Asiya ölkələri ilə ticarətində defisit (-188 mlrd.avro) müşahidə edilmişdir. Digər Avropa ölkələri ilə (+ 177 milyard Avro) və Şimali Amerika (+ 164 milyard Avro) ilə ticarətdə böyük profisit qeydə alınmışdır. Avropa İttifaqı idxalının isə təxminən 44%-i Asiya ölkələrindən əldə edilmişdir. İdxalın 31% -ni digər Avropa ölkələri, 13%-ni isə Şimali Amerika təşkil edib (bax diaqram 4).

2019-cu il üçün ümumi ticarəti milyonlarla avro olan Avropa İttifaqının ən böyük ticarət tərəfdaşları ABŞ, Çin, Birləşmiş Krallıq, Rusiya, İsveçrə və Türkiyədir. Birləşmiş Krallıq Avropa İttifaqından çıxması ilə Aİ-27-nin ən yaxşı tərəfdaşları onluğuna daxil olmuşdur.

**Cədvəl 5: Brexitdən sonra Aİ-27 ticarəti 2019 (mlrd. avro)**

| Ölkə | İxrac | İdxal | Ümumi ticarət |
|---|---|---|---|
| ABŞ | 384 | 232 | 616 |
| Çin | 198 | 362 | 560 |
| Birləşmiş Krallıq | 318 | 194 | 512 |
| İsveçrə | 147 | 110 | 284 |
| Rusiya | 88 | 144 | 232 |
| Türkiyə | 68 | 70 | 138 |

**Mənbə:** Eurostat, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2019)

Beynəlxalq ticarət üçün ən böyük üç qlobal oyunçu: Aİ, Çin və ABŞ-dır. Aİ-27, Çin və Amerika Birləşmiş Ştatları, 2004-cü ildən bəri Çin Yaponiyanı keçdikdən sonra beynəlxalq ticarətin ən böyük üç qlobal oyunçusudur.

2019-cu ildə dünyanın ən yüksək ixrac dəyəri 2239 mlrd. avro ilə Çinə məxsusdur. Çindən sonra Aİ və ABŞ gəlir, hansı ki, onlarda göstərici müvafiq olaraq 2132 mlrd.avro və  1469 mlrd. avro olmuşdur. İdxal göstəricilərinə nəzər salsaq, ABŞ-ın (2293 mlrd. avro) ən yüksək göstəriciyə malik olduğun görərik.  ABŞ-dan sonra Avropa İttifaqı (1938 mlrd. avro) ikinci, Çin (1855 mlrd.avro) üçüncüdür.

ABŞ-Aİ ittifaqı münasibətləri son 50 il ərzində daha çox təhlükəsizlik və əhalinin rifahı üzərində fokuslaşmasına baxmayaraq, XX əsrin sonlarından əsasən iqtisadi ağırlıqlı olduğunun şahidi oluruq.

2015-2019 illər arasında ABŞ-da həm ixrac, həm də idxal artmışdır. ABŞ 2018-ci ildə dünyanın ən böyük idxalatçısı və üçüncü ən böyük ixracatçısı olmuşdur. 2019-cu ildə Amerika Birləşmiş Ştatları AB mal mal ixracı üzrə ən böyük tərəfdaşdır (18%) və idxalında isə ikinci ən böyük tərəfdaşıdır (12%). Aİ üzv dövlətləri arasında Almaniya həm ən böyük mal idxalçısı, həm də ABŞ-a ən böyük mal ixracatçısı idi.

**Cədvəl 6: Əsas ticarət tərəfdaşlarının Aİ-27 ilə ticarət balansı, 2015-2019 (mlrd. avro)**

| Ölkə | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| ABŞ | 113 | 114 | 121 | 138 | 152 |
| Çin | -150 | -146 | -144 | -154 | -164 |
| Birləşmiş Krallıq | 132 | 135 | 129 | 123 | 124 |
| Rusiya | -60 | -45 | -55 | -79 | -57 |
| İsveçrə | 28 | 29 | 33 | 33 | 37 |
| Türkiyə | 22 | 17 | 15 | 2 | -1 |

**Mənbə:** Eurostat-online data code: ext_lt_maineu, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2019)

Aİ-nin ABŞ-la ticarət profisiti 2015-cu ildəki 113 mlrd. avrodan 2019-cu ildə 152 mlrd. avroya yüksəlmişdir. Aİ-nin Birləşmiş Krallıq və İsveçrə ilə ticarətində də profisit qeydə alınmışdır. Türkiyədə isə bu göstərici balansda olmuşdur. Rusiya ilə Aİ, əsasən enerji məhsullarının idxalına görə ticarət defisitinə (2019-cu ildə 57 mlrd. avro) malikdir. Çin ilə ticarət defisiti 2019-cu ildə 164 mlrd. avro təşkil etmişdir, bu da əsasən istehsal olunmuş malların ticarət profisiti ilə əlaqədardır.

**Diaqram 5: Əsas ticarət tərəfdaşlarının Aİ-27 ixracatındakı payları, 2015-2019 (%)**




**Mənbə:** Eurostat-Comext DS-063325, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2019)

Aİ-27-nin ixrac üzrə əsas tərəfdaşları, ABŞ, Çin, Birləşmiş Krallıq, Rusiya, İsveçrə və Türkiyədir. Bu ölkələrin Aİ-27 ixracatındakı payları diaqram 5-də öz əksini tapmışdır.

2019-cu ildə Aİ-nin istehsal olunmuş mal ixracatı (88%) ilkin mallara nisbətən daha yüksək paya (9%) malik olmuşdur. Ən çox ixrac olunan sənaye malları maşın və nəqliyyat vasitələri (41%), ardından kimyəvi maddələr (27%) və digər istehsal məhsulları (21%) olmuşdur. 2019-cu ildə Aİ-nin istehsal olunmuş malların idxalı (80%) də ilkin mallardan (17%) daha yüksək paya malik idi. Ən çox idxal olunan mallar maşın və nəqliyyat vasitələri (40%), ardından kimyəvi maddələr (23%) və digər istehsal məhsulları (17%) olmuşdur.

Aİ-nin idxal üzrə əsas ticarət tərəfdaşı Çindir. Onun payı 2009-cu ildə Aİ xaricindəki ümumi idxalın 15% -dən 2019-cu ildə 19% -ə qədər yüksəldi. ABŞ-dan idxal 2009-2014-cü illər arasında təxminən 10% idi, lakin daha sonra böyüməyə başladı və 2019-cu ildə 12% oldu. Ümumilikdə isə Türkiyə istisna olmaqla, digər tərəfdaş ölkələrdən idxal azalıb (bax diaqram 6).

**Diaqram 6: Əsas ticarət tərəfdaşlarının Aİ-27 idxalatında payları, 2015-2019 (%).**




**Mənbə:** Eurostat-Comext DS-063325, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2019)

Aİ əsasən istehsal olunmuş məhsullar ixrac edir. 2019-cu ildə onların payı ümumi Aİ ixracatının 83% -ni təşkil etmişdir. 2019-cu ildə maşın və nəqliyyat vasitələri ümumi ixracın 41% -ni, digər istehsal olunmuş məhsullar 23%, kimyəvi məhsullar 19% təşkil etmişdir. Əsas məhsullar ümumi ixracatın təxminən 16%-ni

təşkil edir. Bu kateqoriyaya qida və içki (8%), enerji məhsulları (5%) və xammal məhsulları (3%) aiddir.

Aİ idxalında da istehsal olunmuş mallar üstünlük təşkil edir. Onların ümumi Aİ idxalındakı payı 2009-cu ildəki 68% -dən 2019-cu ildə 69% -ə yüksəlmişdir. İxracdan fərqli olaraq, maşın və nəqliyyat vasitələri (33%) və kimyəvi məhsullar (12%) daha az paya sahibdir, digər istehsal olunmuş məhsulların payı (24%) isə ixracata yaxındır. Son illərdə enerjinin idxaldakı payı əhəmiyyətli dərəcədə azalmışdır. Belə ki, 2019-cu ildə onun payı ümumi idxalın 19% -ni təşkil etmişdir. Bu azalma bu dövrdə neftin ucuzlaşması ilə sıx bağlıdır.

CPA təsnifatına əsasən cədvəl 7-də 2015-2019-cu illərdə ən çox ixrac edilən beş mal növü qeyd edilmişdir:

**Cədvəl 7: 2015-2019-cu illərdə ən çox ixrac edilən beş mal növü (mlrd.avro)**

| CPA Kod | CPA Etiket | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Ümumi** | **Ümumi** | 1.876,3 | 1.866,8 | 1.994,7 | 2.059,9 | 2.132,0 |
| **28** | Maşın və avadanlıq | 247,4 | 242,3 | 264,2 | 272,7 | 276,8 |
| **29** | Motorlu nəqliyyat vasitələri, | 244,7 | 240,3 | 248,2 | 242,5 | 241,2 |
| **21** | Əsas əczaçılıq məhsulları | 151,6 | 152,5 | 166,6 | 178,6 | 205,2 |
| **20** | Kimyəvi məhsullar | 154,8 | 157,0 | 167,9 | 174,3 | 177,7 |
| **26** | Kompüterlər, elektron və optik məhsullar | 146,8 | 149,0 | 159,4 | 161,9 | 171,7 |

**Mənbə:** Eurostat-online data code: ext_lt_intratrd, https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Extra-EU_trade_in_goods (2019)

2015-dən 2019-a qədər bu beş məhsul davamlı olaraq ilk 5-də yer alırdı. Bu dövr ərzində ən çox ixrac edilən məhsul, ixracatı 2015-ci ildə 247 mlrd. avrodan 2019-cu ildə 277 mlrd. avroya qədər artan maşın və avadanlıqlar olmuşdur. Motorlu nəqliyyatların ixracatı isə 2015-ci ildəki 245 mlrd. avrodan 2019-cu ildə 241 mlrd. avroya düşdü. Əczaçılıq məhsulları, kimyəvi məhsullar və kompüter ixracatı 2015-2018-ci illərdə bir-birinə yaxın göstəricilərə malik idi. Lakin əczaçılıq məhsulları, digər ilk 4 məhsuldan daha güclü böyüdü və 2018-da kimyəvi məhsulları keçdi. isə Beləliklə 2015-ci ildə 151,6 mlrd. avrodan 2019-cu ildə 205,2 mlrd. avroya qədər artan əsas əczaçılıq məhsullarında ən böyük artım müşahidə edildi.

2019-cu ildə Almaniya Aİ üzvləri arasında bu 5 məhsul qrupu üzrə ən böyük ixracatçı olmuşdur. Almaniya xarici ölkələrə 106 mlrd. avroluq maşın və

avadanlıqlar, 129 mlrd. avroluq motorlu nəqliyyat vasitələri, 48 mlrd. avroluq əsas əczaçılıq məhsulları, 48 mlrd. avroluq kimyəvi məhsullar, 58 mlrd. avroluq kompüterlər, elektron və optik məhsullar ixrac etmişdir.

Avropa Sərbəst Ticarət Birliyi (ASTB) Aİ-nin ən böyük ticarət tərəfdaşlarından biridir. Əvvəllər üzv-dövlətlər bu quruma Avropa İqtisadi Birliyinə daxil olma üzrə aparılan danışıqlarda mövqelərinin möhkəmləndirilməsi vasitəsi kimi baxırdılar. Hazırda təşkilatın üzvləri Norveç, İsveçrə, İslandiya və assosiasiyalaşmış üzv olan Lixtenşteyndir. Avropa İttifaqından fərqli olaraq, bu Təşkilat üzv dövlətlərin suveren hüquqlarının saxlanılması və qanunvericilik səlahiyyətinə malik dövlətüstü orqanların olmadığı regional iqtisadi qruplaşmadır. ASTB üzv dövlətlər arasında sənaye məhsullarının sərbəst rüsumsuz ticarətini təmin edən azad ticarət zonasıdır. Üçüncü dövlətlərlə münasibətlərdə isə hər bir üzv-dövlət müstəqil xarici ticarət siyasəti həyata keçirir və öz gömrük rüsumlarını qoruyub saxlayır.

Beynəlxalq ticarət, ASTB ölkələrinin milli iqtisadiyyatının əhəmiyyətli bir hissəsini təşkil etdiyi üçün yeni bazarlarla ticarətin artırılması birlik üçün əsas prioritetdir. Aİ ilə dörd ASTB dövlətindən üçünün arasında ticarət Avropa İqtisadi Bölgəsi (AİB) müqaviləsinə tabedir. Yəni bu ölkələr Vahid Bazarla əlaqəli Aİ qanunvericiliyini qəbul edirlər. Aİ, ASTB-in ümumi ticarətinin təxminən 70% -ni təşkil etdiyi üçün, Aİ qaydaları və nizamnamələri ticarət əlaqələrində böyük rol oynayır. Bu bir qayda olaraq, ASTB üzvlərinin üçüncü ölkələrə qarşı ticarət siyasətlərini məhdudlaşdırır. ASTB ilə Aİ əlaqələri azad ticarət müqavilələri və Avropa İqtisadi Bölgəsi olmaqla 2 sahə üzrə müəyyənləşib.

A) ASTB öz fəaliyyətinə 1990-cı illərdə azad ticarət müqavilələri ilə başlamışdır. Bu gün ASTB-nin güzəştli ticarət əlaqələri şəbəkəsi 36 ölkəni əhatə edən 25 azad ticarət müqaviləsindən ibarətdir. Hindistan, İndoneziya və Malayziya kimi böyük inkişaf etməkdə olan iqtisadiyyatlarla çoxtərəfli danışıqlar və müzakirələr davam edir. Xidmət ticarəti və investisiya kimi yeni sahələri özündə cəmləşdirmək üçün bəzi mövcud azad ticarət müqavilələrinin modernləşdirilməsi və genişləndirilməsi də davam etməkdədir.

B) Avropa İqtisadi Bölgəsi: 12 ölkədən ibarət Avropa Birliyi və 7 ölkədən ibarət ASTB 1991-ci ilin oktyabrında Lüksemburqda yeni bir "Avropa İqtisadi Bölgəsi" qurmağı qəbul etdilər. Müqavilənin müzakirəsi iki ildən çox çəkdi. Avropa İqtisadi Bölgəsinin (AİB) yaradılması, birlik ilə üzv dövlətlər və ASTB ölkələri arasındakı münasibətlərdə yeni bir dövr başlatdı. AİB-in yaradılma səbəbləri isə tərəflər arasında imtiyazlı münasibətlər, coğrafi yaxınlıq, iqtisadi münasibətlərin əhəmiyyəti, demokratiya və bazar iqtisadiyyatı kimi ortaq dəyərlər, ortaq Avropa kimliyidir. AİB-in iki məqsədi var: 1) ASTB üzvləri ilə Aİ arasındakı münasibətləri ikitərəfli müqavilələr yolu ilə çoxtərəfli çərçivədə yerləşdirmək;Əlaqələrin qeyri-kommersiya sahələrinə yayılması.

Əməkdaşlığın nəzərdə tutulduğu əsas sahələr malların və xidmətlərin, işçi qüvvəsinin və kapitalın sərbəst hərəkəti, standartların uyğunlaşdırılması, texniki maneələrin aradan qaldırılması, təhsil, mədəniyyət, səhiyyə, tədqiqat və inkişaf, ətraf mühit, istehlakçı hüquqları idi.  Bunların hamısının vahid bazarla eyni tarixdə qüvvəyə minməsi planlaşdırılmışdı.

1994-cü ildə Avropa Birliyi ilə Avstriya, Finlandiya, İslandiya, Norveç və İsveç arasında Avropa İqtisadi Bölgəsinə dair Saziş qüvvəyə mindi. Bölgə tərəf ölkələri arasında malların, işçi qüvvəsinin və kapitalın sərbəst hərəkətinin təmin edilməsinə yönəlib. Bu bölgənin yaradılması ilə Qərbi Avropada Skandinaviyadan Aralıq dənizinə qədər uzanan, təxminən 400 mln. əhalisi olan 19 ölkəni əhatə edən böyük bir sərbəst bazar meydana gəldi.

Böyük Genişlənmə adlanan 2004 və 2007-ci illərdəki genişlənmələrdən bəri Avropa Birliyi yeni qonşularla yanaşı yeni problemlər, təhdidlər və imkanlarla qarşılaşmışdır. Avropa Qonşuluq Siyasəti, xüsusilə Şərq genişlənməsindən sonrakı təşəbbüslərlə 2004-cü ildən etibarən aktivləşdirilən bir proqramdır. Aİ genişləndikcə ətrafında geniş bir qonşu dairəsi yaratdı. Bu vəziyyətdə daha da genişlənə bilməyən Aİ, Avropa Qonşuluq Siyasətinin təməlini qoydu, təhlükəsizlik və iqtisadi sahələrdəki boşluqları genişlənmə əvəzinə bu siyasətlə aradan qaldırmağa çalışdı.

Avropa Qonşuluq Siyasəti üzvlüyü nəzərdə tutmur, lakin formalaşma prosesində genişlənmə məntiqi ilə qurulmuşdur. Bu siyasətin, Aİ-nin gələcəkdə

sərhədlərini daha asan çəkməsi və uzunmüddətli təhlükəsizliyini təmin etməsi baxımından böyük əhəmiyyət daşıdığını söyləmək olar.

Aİ 2004-cü ildə bu siyasətin əsas sənədi sayılan "Avropa Qonşuluq Siyasəti Strateji Sənədi"nin nəşr olunması ilə rəsmi olaraq bütün qonşularını əhatə edəcək şəkildə qonşu ölkələrlə münasibətlərini qanuni bir çərçivəyə saldı. Avropa İttifaqı ən yaxın siyasi iş birliyə və hərtərəfli iqtisadi inteqrasiyaya nail olmaq üçün Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində Cənubi və Şərq qonşuları ilə birlikdə fəaliyyətdə olacağını açıqladı.

Avropa Qonşuluq Siyasəti çox geniş bir coğrafi siyasətdir və 16 ölkəni əhatə edir. AQS ölkələri Cəzayir, Fas, Misir, İsrail, İordaniya, Livan, Liviya, Fələstin, Suriya, Tunis, Azərbaycan, Gürcüstan, Ermənistan, Belarus, Moldova, Ukraynadır.

Avropa Qonşuluq Siyasətinin Şərqi Avropa qoluna daxil olan ölkələr Gürcüstan, Azərbaycan, Moldova, Ukrayna, Belarus və Ermənistandır. Bu 6 ölkə arasında Belarus ölkədə demokratiya və insan haqları pozuntuları olduğu üçün AQS-dən tam şəkildə yararlana bilmir. Qonşuluq Siyasətinin effektiv həyata keçirilməsi Aİ-nin maliyyə və texniki dəstək mexanizmlərindən asılıdır.

2000-2006 büdcə dövründə Aİ tərəfindən qonşu şərq ölkələri və Rusiya üçün TACIS, Cənubi Aralıq dənizi ölkələri üçün Avro-Aralıq dənizi Tərəfdaşlığı və Qərbi Balkan ölkələri üçün Yenidənqurma, İnkişaf və Sabitləşdirmə üzrə İttifaq köməyi ilə bağlı müxtəlif regional proqramlar hazırlanmışdır. Demokratiya və İnsan Haqları üzrə Avropa Təşəbbüsü kimi tematik proqramlar həyata keçirilmiş və 1 yanvar 2007-ci ildən etibarən Aİ-nin bu yardım vasitələri Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) ilə tək bir çətir altında birləşdirildi. Daha çevik siyasətə əsaslanan bu vasitə davamlı inkişaf və Aİ siyasət və standartlarına uyğunluğu təmin etmək üçün Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planlarında qəbul edilmiş prioritetləri dəstəkləmək üçün xüsusi olaraq hazırlanmışdır.

Bu çərçivədə, 2007-2013 illər ərzində Aİ tərəfindən qonşu ölkələrə edilən yardımın həcmi təxminən 12 mlrd. avro olmuşdur. Ümumi qiymətləndirmələrimizə əsasən, tərəfdaş ölkələr hər il orta hesabla özlərinin ÜDM-nin 0.3%-i həcmində

maliyyə dəstəyi əldə edirlər. Eyni zamanda, Aİ qonşu bölgələrə dəstək olmaq üçün 2014-2020-ci illər üçün AQTA ilə 15 mlrd. avrodan çox maliyyə dəstəyi ayırmışdır.

Aİ-nin genişlənməsi onu qonşularına daha da yaxınlaşdırır. Şərq qonşuluğunda inkişaf edən və baş verən hadisələrin Aİ ölkələrinə də təsir etməsi bir həqiqətdir. Bu baxımdan, Avropa Qonşuluq Siyasəti Strategiyası sənədində Aİ-nin tərəfdaş ölkələrlə daha sıx əlaqələr quracağı və onlarla işləyəcəyi bildirilir. AQS, mövcud münasibətlərdən kənar Aİ ilə qonşuları arasında daha dərin siyasi əlaqələr və iqtisadi inteqrasiya yaratmağı hədəfləyir.

Ümumilikdə isə Avropa Qonşuluq Siyasətinin hədəflərini üç əsas başlıq altında qruplaşdıra bilərik (S. Sönmez, 2010, s. 119) :

- İqtisadi inteqrasiyanı əhəmiyyətli dərəcədə təmin etmək və iqtisadi islahatlara dəstək verməklə qonşu ölkələrdə rifah səviyyəsini artırmaq;
- Siyasi əməkdaşlığı genişləndirərək qonşu ölkələrə azadlıq və demokratiyanı yaymaq;
- Təhlükəsizliyi artırmaq üçün ətraf mühit, inkişaf, terrorizm və tərksilah mövzusunda qonşu ölkələrlə birgə araşdırmalar aparmaq.

Effektiv tənzimləmə, qanunun aliliyi, demokratiya və insan hüquqlarına hörmət AQS-nin bünövrəsində dayanan əsas dəyərlərdir. Başqa sözlə, Aİ AQS-yə daxil olan ölkələrdə sadalan dəyərlərin bərqərar olmasına xidmət edən islahatların aparılmasını təşviq edir. Bu məqsədlə Aİ tərəfindən aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirir:

- “tərəfdaş ölkələr tərəfindən həyata keçiriləcək islahatlar paketinin razılaşdırılması;
- tərəfdaş ölkələrə texniki yardım və maliyyə dəstəyinin göstərilməsi;
- tərəfdaş ölkələr üçün Aİ-nin vahid bazarına inteqrasiya imkanlarının təqdim olunması;
- Aİ ilə tərəfdaş ölkələr arasında insanların hərəkətinin asanlaşdırılması” (Bayramov Ş. 2011. s.71).

Avropa Qonşuluq Siyasəti, mahiyyət etibarilə Aİ ilə hər bir tərəfdaş ölkə arasında qurulmuş ikitərəfli bir siyasətdir. Bununla birlikdə o, regional və çoxtərəfli

əməkdaşlıq təşəbbüsləri ilə tamamlanır. Bu çərçivədə "Şərq Tərəfdaşlığı" və " Aralıq Dənizi Ölkələri Birliyi"  qurulmuşdur.

Avropa İttifaqı, Qonşuluq Siyasəti çərçivəsində şərq qonşuları ilə münasibətlərini yaxşılaşdırmaq üçün 2009-cu ildə "Şərq Tərəfdaşlığı" proqramını inkişaf etdirdi. Bu proqram Şərqi Avropa və Qafqazdakı Sovet İttifaqının dağılmasından sonra müstəqillik qazanan 6 ölkəni - Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukraynanı əhatə edir.

Aİ, AQS vasitəsilə Şərqi Avropa qonşuları ilə siyasi, sosial və iqtisadi inteqrasiyaya nail olmağı hədəfləyir. Bu hədəfə uyğun olaraq müəyyən edilmiş prioritetləri reallaşdırmaq üçün Aİ qonşuları ilə inteqrasiya üçün bir sıra şərtlər irəli sürür və bunun qarşılığında müxtəlif mükafatlar vəd edir. Aİ tərəfindən təklif olunan islahatları həyata keçirən qonşular, bir sıra mükafatlar hesabına Aİ ilə inteqrasiyalarını artırırlar. Mükafat olaraq isə xüsusilə sosial, siyasi və iqtisadi baxımdan bir sıra üstünlüklərdən faydalanırlar.

Regiondakı ölkələr Aİ ölkələri ilə müqayisədə sosial-iqtisadi baxımdan kasıbdır və demokratiyanın işləməsi baxımından inkişaf etməkdə olan və ya inkişaf etməmişdir. Buna baxmayaraq, Aİ bu ölkələrlə inkişaf etmiş ticarət əlaqələri quraraq bu ölkələrin əksəriyyətinin ilk ticarət tərəfdaşıdır.

Əvvəlki fəsildən Azərbaycanla Avropa İttifaqı arasındakı ticarət əlaqələri barədə müəyyən məlumatlar əldə etmişik. Azərbaycan-Aİ iqtisadi əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır və hər iki tərəf bu əməkdaşlığı yüksək qiymətləndirir. Hazırda bəzi Avropa İttifaqı ölkələri və Azərbaycan bir çox sahələrdə əməkdaşlıq edir. Bu münasibətlər daim inkişaf edir. Buna baxmayaraq, iki tərəf arasında ticarətlə bağlı bir neçə problem var. Azərbaycan və Avropa Birliyi arasında ticarət əməkdaşlığının hər iki tərəfin mənafeyi baxımından ümidverici olduğu, lakin istənilən səviyyədə olmadığı bəzi sahələr var.

İndi son illərdə Aİ-Azərbaycan arasında iqtisadi inkişaf istiqamətlərini təhlil edəcəyik. Birincisi, Azərbaycan ilə Aİ arasında mal ticarəti tendensiyalarının və dinamikasının illər ərzində tədricən necə dəyişdiyini araşdıracaq və Azərbaycanın

Aİ ilə ticarət əlaqələrinin əsas istiqamətlərini - enerji və nəqliyyat sektorlarını təhlil edəcəyik

Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır və Azərbaycanın ümumi ticarətinin 36,7% -ni təşkil edir. Aİ, Azərbaycanın ixracatında 51% və idxalında 16%-lik pay ilə Azərbaycanın ən böyük ixracatı və ikinci ən böyük idxal bazarı olmağa davam edir.

**Cədvəl 8: Azərbaycanın Aİ ilə malların ticarəti 2018-2020, (mlrd.avro)**

| **İl** | **İdxal** | **İxrac** | **Balans** |
|---|---|---|---|
| **2018** | 11.3 | 1.6 | -9.7 |
| **2019** | 10.6 | 1.8 | -8.8 |
| **2020** | 6.4 | 1.5 | -4.9 |

**Mənbə:** Avropa Komissiyası rəsmi saytı, https://ec.europa.eu/trade/policy/countries-and-regions/countries/azerbaijan/ (2020)

Cədvəl 8-də 2018-2020-ci illərdə Azərbaycanın Aİ ölkələri ilə mal ticarəti görürük. Bu illər ərzində Aİ-yə ixracda volatillik özünü göstərmişdir. Belə ki, 2019-cu ildə 2018-ci ilə nisbətən ixrac artsa da, 2020-ci ildə ixrac 2018-ci ildən daha aşağı həcmdə baş tutmuşdur. Bunun əsas səbəbi isə koronavirus (Covid-19) pandemiyası ilə bağlıdır. Pandemiya nəticəsində ixrac 30% azalmışdır (https://uploads.cbar.az/assets/c14b64062df55c0d18e9ec3de.pdf, 2020).

Aİ-nin Azərbaycanda bir sıra dəqiq strateji maraqları vardır. Bunların arasında iqtisadi maraqlar ən vacibidir. Çünki Azərbaycan, Aİ üçün əhəmiyyətli enerji tədarükçüsüdür. Sovet dövründə dünya bazarında neft tədarükçüsü kimi Azərbaycanın rolu digər rəqib ixracatçıları ilə ayaqlaşa bilməyən köhnəlmiş texnologiyalara görə zəif olmuşdur (Forsyth J. 2013; Goldenberg S. 1994). Lakin, müstəqillik qazandıqdan sonra və xüsusən 1990-cı illərin ikinci yarısından etibarən ölkə qlobal bazarı ələ keçirmişdir. “2020-ci ildə ölkədə 72432,2 mln. manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur” (Azərbaycan Dövlət Statistika Komitəsi- https://www.stat.gov.az/news/index.php?id=4788 2020). Və bunun təxminən 30% -i neft sektorunun gəlirlərindən ibarətdir.

Azərbaycan Aİ üçün vacib enerji tərəfdaşıdır. Hüquqi baxımdan bu, Aİ və Azərbaycan hal hazırda Enerji Əməkdaşlığına dair Anlaşma Memorandumu

əsasında fəaliyyət göstərirlər. Bu Anlaşma Memorandumu, iki aktyorun tam hüquqlu bir razılaşma üzərində danışıqlar apara biləcəyi əsasdır (Vooren V. 2012: 203). Son illərdə, xüsusilə xarici neft şirkətlərinin Azərbaycanın neft sektoruna böyük həcmdə investisiya qoymasından sonra, ölkənin xarici ticarət fəaliyyətində Avropa İttifaqı ölkələrinin rolu artmağa başlamışdır.

Ölkəmiz Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənub Qaz Dəhlizi (CQD) kimi böyük layihələrin fəal iştirakçısıdır. Azərbaycan Aİ-nin neftə olan tələbatının təxminən 5%-ini təmin edir. Xəzər nefti və ölkəmizdən tranzitlə keçən neft Aİ istehlakçıları üçün böyük enerji resursudur. Bu nöqteyi nəzərdən, Bakı-Tbilisi-Ceyhan həlledici rol oynayır. BTC boru kəməri Xəzər dənizindəki neft yatağından Avropaya qədər uzanan neft kəməridir. Bakı–Supsa kəməri də Azərbaycandan neftin Aİ bazarına keçməsini dəstəkləyir. Bu, Bakıdan Gürcüstanın Supsa terminalına, sonra isə Türkiyə vasitəsilə Avropaya gedən neft kəməridir.

Azərbaycan qaz ehtiyatlarını Aİ ölkələri bazarına çıxarmağa çalışır. CQD bizə Xəzər dənizinin qaz ehtiyatlarını Aİ üçün əlçatan etməyə kömək edir. Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və Trans Adriatik Boru Kəməri (TAP) layihələri birlikdə Cənub Qaz Dəhlizi olaraq bilinir. Azərbaycan Xəzər qaz ehtiyatlarını CQD vasitəsilə Aİ bazarına çıxarır. CQD Şahdəniz qaz yatağını və Yaxın Şərq bölgələrindən qaz yatağını CQBK, TANAP və TAP vasitəsilə Avropaya birləşdirir. CQD 10 mlrd. kubmetr Azərbaycan qazının nəqlini təmin edir. CQD-nın məqsədlərindən biri Avropanın Rusiya qazından asılılığını azaltmaqdır. Layihənin digər bir məqsədi enerji təhlükəsizliyini qoruyaraq enerji mənbələrini və təchizatçılarını şaxələndirməkdir. CQD, 7 ölkə və 11 şirkət daxil olmaqla bir çox maraqlı tərəfi əhatə edən kompleks bir sistemdir. Ancaq Aİ ölkələrinə qazın 2020-ci ildə başlanacağı gözlənilir.

2016-cı ildə Aİ, Şərq Tərəfdaşlığı ölkələrini, o cümlədən Azərbaycanı enerji siyasəti hədəflərinə çatmaqda və enerji səmərəliliyini artırmaqda dəstəkləyən EU4Energy adlı yeni bir regional proqram başlatdı. 2019-cu ildə Azərbaycan Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığına qatıldı və enerji

səmərəliliyi daxil olmaqla enerji sektorunda Aİ dəstəyi EU4Energy təşəbbüsü ilə təmin edildi.

Statistik məlumatlara əsasən Azərbaycan 2019-cu ildə 14 mlrd. 814,1 mln ABŞ dolları dəyərində 30 837 min ton xam neft ixrac etmişdir. Xam neftin əsas alıcıları Avropa və Asiya ölkələri olmuşdur. Azərbaycan mənşəli xam neftin ən çox ixrac olunduğu Aİ ölkələri siyahısına isə İtaliya liderlik etmişdir. Daha sonra Almaniya, İspaniya, Çexiya, Fransa bu sıralamada öz yerini alır.

Aİ-nin isə Azərbaycana ixracatının təxminən 45%-i maşın və kimya məhsullarının payına düşür. Aİ-nin Azərbaycandan idxalatı əsasən mineral yanacaq, sürtkü yağları və əlaqədar materiallardan ibarətdir. Aİ-nin Azərbaycandan idxal etdiyi digər məhsullar arasında əsasən qida və canlı heyvanlar, kimyəvi maddələr və əlaqəli məhsullar və bəzi istehsal malları vardır. İndi isə Azərbaycanın son bir neçə ildə Avropa İttifaqına ixrac olunan və idxal olunan əsas məhsullarına diqqət yetirək.

**Cədvəl 9: Azərbaycanın Aİ ilə olan ticarətində malların tərkibi 2019, (mlrd.avro)**

| Məhsul növləri | İxracat | İdxalat |
|---|---|---|
| **Ümumi** | 10,597 | 1,840 |
| Qida və canlı heyvanlar | 59 | 117 |
| İçkilər və tütün | 1 | 30 |
| Yanacaq istisna olmaqla yanmaz materiallar | 10 | 22 |
| Mineral yanacaq, sürtkü yağları və əlaqəli materiallar | 10,423 | 35 |
| Heyvan və bitki yağları, yağlar və mumlar | 0 | 6 |
| Kimyəvi maddələr və digər məhsullar | 53 | 267 |
| Əsasən maddi əsaslarla təsnif edilən istehsal malları | 36 | 235 |
| Maşın və nəqliyyat avadanlığı | 12 | 870 |
| Müxtəlif istehsal məqalələr | 2 | 237 |
| Əmtəə və əməliyyatlar | 1 | 12 |
| Digər | 0 | 9 |

**Mənbə:** Avropa Komissiyası rəsmi saytı (https://webgate.ec.europa.eu/isdb_results/factsheets/country/details_azerbaijan_en.pdf) 2019.

Cədvəl 9-a əsasən deyə bilərik ki, mineral yanacaq, sürtkü yağları və əlaqəli materiallar üzrə son illər ixracatımız yüksəlmişdir.

Avropa İttifaqı Azərbaycana təhsil, maliyyələşdirmə və ya ixrac kimi müxtəlif sahələrdə kömək edir. Aİ ölkələri bir-bir və ya bütöv bir toplum olaraq hər zaman

Azərbaycan iqtisadiyyatını, işlərini və iqtisadiyyatın şaxələndirilməsini dəstəkləyir. Beləliklə, Aİ Azərbaycanın güclü iqtisadiyyata çevrilməsində maraqlıdır.

Son bir neçə ildə İtaliya ixrac və ticarət dövriyyəsi strukturunda birinci yeri tutur. Almaniya və Fransa isə son beş ildə ticarət dövriyyəsində həmişə ilk beşlikdə olmuşdur (bax diaqram 7).

**Diaqram 7: Azərbaycan ilə Almaniya, Fransa və İtaliya arasındakı xarici ticarət dövriyyəsi, mln. ABŞ dolları, 2014-2019**




**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (2020) araşdırmada əldə olunan nəticələr əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Nəqliyyat dialoqu və əməkdaşlıq Aİ-Azərbaycan gündəmində çox yüksəkdir. Azərbaycan şimalla cənubu və şərqlə qərbi birləşdirən nəqliyyat əlaqələrinin kəsişməsində yerləşir və öz əlverişli strateji mövqeyindən faydalanır. Avropa İttifaqı Bakı Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi mühüm infrastruktur layihələrini maliyyəşdirmişdir.

Azərbaycan maliyyə donoru kimi fəaliyyət göstərən və başladığı nəqliyyat layihələri ilə yanaşı beynəlxalq enerji layihələri üçün lazım olan maliyyə mənbələrini də idarə edə bilən dünyada inkişaf etməkdə olan nadir ölkələrdən biridir. Xüsusilə bu layihələr nəzərə alınmaqla, Aİ tərəfindən Azərbaycana qoyulan investisiyanın ümumi həcmi təqribən 15 mlrd. ABŞ dollarıdır. Bununla yanaşı, keçid baxımından Azərbaycan Avropa ilə Asiya arasında strateji əhəmiyyətə malik olan beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi böyük potensiala malikdir. Bakıdan yola çıxan yük qatarları artıq Avropaya gedir. Xəzər dənizi sahilində həyata keçirilən

Beynəlxalq Dəniz Ticarət Limanı ticarət əlaqələrinin yeni səviyyəyə qaldırılmasında mühüm rol oynayır. Bu limanın əsasında Azad Ticarət Zonasının yaradılması prosesi davam edir və yaxın vaxtlarda Azərbaycanla Aİ arasında ticarət əlaqələrini daha da intensivləşdirəcək güclü nəqliyyat və logistika mərkəzinin formalaşmasına nail olunacaq. Diaqram 8-də 2014-2019-cu illərdə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində Azərbaycan ərazisi ilə yük daşımalarının ümumi həcminin dinamikası göstərilib və göründüyü kimi, təhlilin aparıldığı müddətdə yük daşımalarının ümumi həcmi artmayıb, əksinə azalıb. Belə ki, 2014-cü ildə strateji nəqliyyat dəhlizində Azərbaycan ərazisində yük daşımalarının həcmi 59,2 mln.ton, 2019-ci ildə isə 52,8 mln. ton təşkil etmişdir.

**Diaqram 8: Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində Azərbaycan ərazisindəki yük daşımalarının ümumi həcminin dinamikası, 2014-2019, (min ton)**




**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ 2020 araşdırmada əldə olunan nəticələr əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Avropa İttifaqı ilə Azərbaycan arasında ticarətlə bağlı əməkdaşlıq iqtisadi inkişafa töhvə versə də, münasibətlər daxilində problemlərin varlığını da unutmamaq lazımdır. Bu problemlərin ən başlıcası, ixracın böyük əksəriyyətinin neft-qaz sektoru üzərində cəmləşməsidir ki, bu da qeyri-neft sektoruna inkişafına mane olan məsələlərdəndir. Qeyri-neft ixracının inkişafı prioritet olsa da, ticarət hələ ki, istənilən səviyyədə deyildir. Biz ixracın illərlə artdığını görürük. 2016-dan 2020-a qədər məlumatları nəzərdən keçirsək, 5 il ərzində ixracın 1,5 dəfə artdığını görə bilərsiniz. Lakin əldə edilən statistik məlumatlardan görünür ki, Azərbaycanın Aİ-

yə ixracında neft sektoru birincidir. Ümumiyyətlə, biz iqtisadiyyatı şaxələndirməliyik. Azərbaycan həm turizm, həm kənd təsərrüfatı kimi qeyri-neft sektorlarına sərmayə qoymalı, həm də neft emal sektorlarını genişləndirməlidir. Həll edilməli olan başqa bir problem idxaldır. Azərbaycanın Aİ ilə idxal münasibətlərinə dair bütün məlumatları təhlil edərək bəzi nəticələr əldə edə bilərik. Biz idxal rəqəmlərini nəzərdən keçirsək, 2018-ci illə müqayisədə 2019-ci ildə artım müşahidə olunduğunu görərik. İdxalın strukturu əsasən avtomobillərdən və nəqliyyat avadanlıqlarından ibarətdir. Aydındır ki, Aİ ölkələrindən idxal qaçılmazdır. Aİ ölkələrinin idxal strukturuna baxsaq, görərik ki, ölkə daxilində istehsal oluna biləcək bəzi məhsullar idxal olunur. İdxal olunan məhsulların optimallaşdırılması, ixracın stimullaşdırılması və mənfi balansların aradan qaldırılması vacibdir. Digər məsələ Azərbaycanın ÜTT-ə üzvlük prosesidir. Azərbaycan indiyə qədər ÜTT-ə üzv deyildir. Ona görə də Avropa İttifaqı ölkələri ilə ticarətdə çətinliklər var. Avropa İttifaqı bu sahədə müvafiq təkliflər etsə də, hüquqi aspektdə hələ də problemlər mövcuddur. Azərbaycan da bu sahədə çalışmalı, növbəti bölmədə qeyd olunacaq sahələrə diqqət yetirməli və Avropa İttifaqı ilə mümkün ticarətin istehsalat-satış zəncirlərinin bir hissəsinə çevrilməlidir.

Azərbaycan ilə Avropa İttifaqı ölkələri arasında ticarətdə problemlərin olmasına baxmayaraq, bu problemlərin öz həlli var. Bu problemlərin həlli ilə bağlı təkliflər növbəti fəsildə təqdim olunacaq.

## 2.4. Aİ ilə AR-in ticarət göstəricilərinin fərqlənməsinin əsas səbəbləri

İnformasiya istifadəçiləri Aİ rəsmi statistikasının, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin materialları ilə işləyərək, Azərbaycandan Aİ-yə ixrac və idxal həcmlərinin, eləcə də Aİ-nin Azərbaycana idxal və ixrac həcmlərinin üst-üstə düşməsini gözləyirlər. Ancaq real vəziyyətdə bu asılılıq həm obyektiv, həm də subyektiv bir sıra səbəblərə görə uyğunlaşmır. Azərbaycan xarici ticarət gömrük statistikası, Avropa İttifaqı Statistika Mərkəzinin və BMT-nin metodoloji təyinatlarında əsasən beynəlxalq standartlara uyğun həyata keçirilir. Ölkələr arasında xarici iqtisadi əlaqələrinə və ixrac-idxal əməliyyatlarının statistik uçotunun xüsusiyyətlərinə dair göstəricilər arasındakı fərqlər müəyyən amillərin təsiri altında yaranır:

1) Göndərən və təyinat ölkələrində malın hesablanmış statistik dəyərləri tranzit ölkələrində olan xərclər hesabına fərqlənməsi;

2) Zaman amilinin təsiri;

- malın bir ölkədən digər ölkəyə çatdırılması müəyyən vaxt tələb edir və həmin müddət ərzində kontrakt valyutası ilə ABŞ dolları arasında olan məzənnə dəyişir. Nəticədə, malın statistik dəyəri göndərən ölkədə bir məzənnə əsasında hesablandığı halda, təyinat ölkədə digər məzənnə əsasında hesablanır;
- zamandan asılı olaraq, milli valyutalar arasında olan məzənnə dəyişir.

3) İxrac və idxalın rəsmiləşdirmə tarixinindəki uyğunsuzluq;

4) Gömrük dəyərini müəyyənləşdirmək üçün fərqli metodlar;

5) Məhsulun mənşə ölkəsinin təyin edilməsi;

6) Tərəfdaş ölkələrdə malın təsnif edilməsində müxtəlifliyə yol verilməsi (bir malın göndərən və təyinat ölkələrdə müxtəlif kod və ad altında rəsmiləşdirilməsi);

7) Tərəfdaş ölkələrdə statistik həddin fərqlənməsi;

8) Malların gömrük rejimlərinin düzgün seçilməməsi.

9) Xarici ticarət statistikasında ticarət sistemlərinin fərqlənməsi.

İlk öncə onu qeyd edək ki, Avropanın Azərbaycana ixracatı ilə bağlı məlumatlar Avropa statistikasında FOB qiymətləri ilə, Azərbaycan statistikasında isə CIF qiymətləri ilə əks olunur. Əksinə Azərbaycan Aİ-yə ixracını FOB qiymətləri ilə qeyd edir və Aİ ölkələri bu əməliyyatları idxal statistikasında CIF qiymətləri ilə əks etdirir. Məsələn, Azərbaycanın 2019-cu ildə Aİ-üzv ölkəsi olan İtaliyaya ixrac etdiyi məhsul dəyəri 5638,6 min ABŞ dollarında qeyd edilmişdir. Lakin bu göstərici Avropa Statistika Mərkəzi olan Eurostatda 49090 min avro (5950,5 min ABŞ dolları) olaraq qeyd edilmişdir. Bu dəyərlər arasındakı uyğunsuzluq, statistik məlumatlar arasındakı uyğunsuzluğun ilk səbəbidir.

Avropa İttifaqı son məlumatları avro ilə yayımlayır və sonra orta aylıq məzənnə ilə ABŞ dollarına çevrilir, bu da xarici ticarət statistikasında uyğunsuzluqlara səbəb ola bilər. Göndərən və təyinat ölkələrindəki valyuta məzənnələri eyni olmadığından, məhsul idxal və ixrac edərkən iki ölkənin statistikaları arasında dəyişikliklər meydana gəlir. Beləliklə, malların statistik dəyəri mənşə ölkəsindəki bir məzənnədən istifadə edilərək təyin olunduqda, təyinat ölkəsindəki fərqli bir məzənnədən istifadə edərək hesablanır.

İdxal-ixrac əməliyyatları zamanı malların gömrük dəyərinin hesablanmasında bir-birindən fərqlənən üsulların və müxtəlif metodologiyaların tətbiqi kinci bir səbəbdir. Metodlardan asılı olaraq, gömrük dəyəri idxalçılar tərəfindən azaldılmış ola bilər və ya çoxaldıla bilər. Məsələn, bəzi malların ölkəyə idxalı zamanı malın invoys dəyərinin bazar qiymətlərindən kəskin fərqlənməsi (invoys qiymətinin yanlış göstərilməsi) iki ölkə arasında statistik fərqlərin yaranmasına səbəb olur.

Bu problemi həll etmək üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əsas idxal mallarının gömrük dəyəri üzərində çoxsəviyyəli bir nəzarət sistemindən istifadə edir. Xüsusilə, gömrük dəyərinə nəzarət etmək üçün gömrük postları və gömrük rəsmiləşdirmə şöbələri bir çox hallarda sənədlərin tam paketini yuxarı gömrük orqanına təqdim etməlidirlər.

Aİ-nin gömrük ərazisindən keçən malların gömrük dəyərini müəyyənləşdirmək üçün mübadilə kotirovkaları, rəsmi olaraq dərc olunmuş materiallar, eləcə də dünya

ticarətinin digər qiymətlərindən istifadə olunur. Əksər hallarda qiymətləri qaldırmaq və ya endirmək üçün heç bir müdaxilə olmur.

Azərbaycanın Avropa İttifaqı üzv ölkələri ilə ticarətinin gömrük statistikasında ixrac və idxal edilən malın mənşə ölkəsinin müəyyən edilməsi zamanı yaranan fərqlər də statistikalar arasında uyğunsuzluğun əsas səbəblərindəndir. Aİ üçüncü ölkələrlər ticarətdə mənşə və istehlak ölkələrinə görə malların mühasibat sistemindən (Extrastat) istifadə edir. Aİ daxilindəki idxalat isə təyinat ölkəsinə (Intrastat) görə qeyd olunur. Azərbaycanda xarici ticarətin gömrük statistikasında idxal-malın mənşə ölkəsi, ixrac- təyinat ölkəsi üzrə aparılır.

Bu metodoloji fərqlər bəzi məlumatların uyğunsuzluğuna da səbəb ola bilər. Bunun üçün  müəyyən bir nümunə ilə fikrimizi əsaslandıraq. Tutaq ki, Azərbaycan bir məhsulu Almaniyaya ixrac edir və məhsul oradan da Fransaya göndərilir. Azərbaycan ixracatında, Fransada məhsulun satıldığı, Fransız idxalında isə Almaniyadan satıldığı düşünülür. Bu vəziyyət Avropa İttifaqı ilə bütövlükdə Azərbaycan arasındakı ticarət məlumatlarına zidd deyil, lakin Azərbaycan ilə ayrı-ayrı Aİ üzvləri arasındakı münasibətlər qeyd edilməlidir.

İxrac-idxal əməliyyatlarının qeydiyyat tarixlərinə gəlincə, malların çatdırılma vaxtı səbəbindən ixrac tarixi idxal tarixi ilə üst-üstə düşə bilməz. Məhsullar bir ölkədən digərinə nəql edildikdə, göndərən ölkədə ixracın qeydiyyatı tarixi, qəbul edən ölkədə idxal qeydiyyatı tarixindən fərqli olur. İlin sonunda qəbul edən ölkədə təmizlənən mallar gələn ilin əvvəlində alıcı ölkədə təmizlənir. Göndərən ölkədə ilin sonunda rəsmiləşən yüklər təyinat ölkəsində gələn ilin əvvəlində rəsmiləşir. Aydınlıq üçün belə bir nümunə verək: 2020-ci ilin sonunda Almaniyadan göndərilən məhsul, 2021-ci ilin əvvəlində Azərbaycana çatır. Bu zaman yük 2020-cı ildə Almaniya ixracatı, 2021-ci ildə isə Azərbaycan idxalı hesab ediləcək.

*Azərbaycanın xarici ticarət statistikasının əsasında «ümumi ticarət sistemi» prinsipləri durur. Buna uyğun olaraq mallar dövlət sərhədini keçən anda idxal-ixrac məhsulları kimi qeydiyyata alınır. Avropa İttifaqı ölkələri «xüsusi ticarət sistemi» prinsiplərini tətbiq edirlər. Buna uyğun olaraq mallar gömrük yoxlamasından sonra idxal-ixrac malları kimi qeydə alınır. Xarici ticarət əməliyyatlarında qeydə alınan müxtəliflik bir sıra uyğunsuzluqlara səbəb olur. Bu, məhsulu istehsal edən ölkənin*

*adının qeyri-düzgün göstərilməsinə gətirib çıxara bilər...Ümumi idxalda, tədiyyə balansında və milli hesab sistemində qeydə alınmış gömrük əməliyyatları ilə yanaşı, digər beynəlxalq köçürmələr üzrə əməliyyatların gömrük xidmətində qeydə alınıb-alınmaması da kənarlaşmalar yaradan səbəblərdən hesab oluna bilər. Azərbaycan reallığında Hasilatın Pay Bölgüsü kontraktları xüsusi gömrük rejiminə malikdir. Məhz bu amil də Azərbaycanda ümumi idxalın gerçək səviyyəsinin müəyyən edilməsinə həmişə çətinlik törədir.....* (İbadoğlu Q., 2011.s.8,10).

Yuxarıda göstərilən nümunələrdən də göründüyü kimi, Azərbaycan ilə Aİ arasındakı ticarət statistikasına müxtəlif amillər çox vaxt çox istiqamətli təsir göstərir. Metodoloji aspektlər baxımından vahid mühasibat sisteminin istifadəsi, bütün Aİ üzv dövlətləri və Azərbaycan BMT Statistika Komissiyasının bütün tövsiyələrinə tam əməl edərsə, qarşılıqlı ticarət həcmlərindəki bu uyğunsuzluğu da azalda bilər. Ancaq bu problemin yalnız qismən həllidir, çünki qeyd olunduğu kimi, ixracatçı və idxal edən ölkələrin qarşılıqlı ticarət üzrə statistik məlumatları arasında uyğunsuzluğa səbəb olan obyektiv amillər var. Məsələn: ixrac əməliyyatlarının FOB qiymətləri, idxal əməliyyatlarının CIF qiymətləri ilə qiymətləndirilməsi, ixrac və idxalın fərqli qeyd tarixləri və s.

Bir sıra hallarda qanunvericilik bazasında müvafiq dəyişikliklər, habelə gömrük nəzarətinin sərtləşdirilməsi və hüquq normalarının pozulmasına görə tərəflərin məsuliyyətinin artırılması, bu problemlərin həllində əhəmiyyətli kömək edə bilər.

Ölkələrarası ixrac və idxal əməliyyatları göstəricilərinin bərabərliyinin qiymətləndirilməsində müasir dövrdə "Güzgü statistikası" istifadə edilir. Bu statistikasının əsas məqsədi idxal və ixrac əməliyyatları balansının müəyyən edilməsidir. Məhsulların ixrac və idxal əməliyyatları üzrə ümumi dəyərinin müəyyən edilməsi üçün məlumatların toplanması, müqayisəsi və təhlili yetərli deyildir. Ümumi dəyərin qiymətləndirilməsi göstəricisinin alınması üçün onların qiymətlərini vahid bazisə gətirmək lazımdır (Yadigarov. T.A. 2020.s. 311).

Azərbaycan xarici ticarət statistikasının Avropa standartlarına uyğunlaşdırılması məsələsində bir sıra addımlar atmışdır. Belə ki, 2009-2012-ci illəri əhatə edən tvinninq layihəsi baş tutmuşdur. Bu layihənin əsas məqsədi milli

hesabatların, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehlakçıların qiymət indekslərini hesablanması metedologiyaların Avropa standartlanrına uyğunlaşdırılması olmuşdur. Və Almaniya, Bolqarıstan, Çexiya və Litva milli statistika orqanları bu layihənin əsas tərəfdaşları olmuşdur.

Daha sonra 2016-cı ildə Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək" Tviniq layihəsinin icrasına başlanılmışdır. Bununla bağlı həmin il keçirilən iclasda Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bu tvinninq layihəsinin əsas məqsədinin coğrafi informasiya sistemlərinin təkmilləşdirilməsi, keyfiyyətin idarə edilməsi, əhalinin həyat şəraiti və gəlirləri, əlillik, turizm sektorunda statistikanın Avropa standartlarına uyğunlaşdırılması olduğunu qeyd etmişdir. Bu Tvinninq layihəsinin qarşıya qoyduğu əsas məqsədlərdən bir də Azərbaycanda məhz əlilliyi olan və sağlamlıq imkanları məhdud şəxslərə dair statistikanın qurulması olmuşdur. Tvinning layihəsində Avropa İttifaqının üzv ölkələrindən Almaniya və Bolqarıstan tərəfdaş ölkə kimi çıxış etmişdir. Bu layihənin həyata keçirilməsi zamanı Dövlət Statistika Komitəsinin mütəxəssislərinin Avropa İttifaqı ölkələrinə təlim səfərləri təşkil olunacaq, eyni zamanda, qarşı tərəfin ekspertləri həmin səfərlər nəticəsində əldə olunan təcrübənin tətbiqi istiqamətində görüləcək işləri yerində qiymətləndirməsi nəzərdə tutulmuşdu. 2017-ci ildə bu layihə başa çatmış və bununla bağlı konfrans keçirilmişdir. Həyata keçirilən tvinning layihəsinin nəticəsində BMT-nin Avropa İqtisadi Komissiyası və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən keçirilmiş Azərbaycan Respublikası Milli Statistika Sisteminin Qlobal Qiymətləndirilməsi üzrə hesabatda ölkəmizin statistika sisteminin beynəlxalq standartlara uyğun olduğu rəsmən təsdiqlənmişdir.

Ümumiyyətlə xarici ticarət göstəriciləri arasında uyğunsuzluqların aradan qaldırılması və Azərbaycanın dünya iqtisadi münasibətlərində iştirakına dair beynəlxalq statistika üçün ənənəvi iqtisadi göstəricilərin hesablanmasını və dərc edilməsini təmin etmək lazımdır, bu da ölkəmizin beynəlxalq aləmdəki rolunu müəyyənləşdirməyə və inkişafın daha dəqiq proqnozlaşdırılmasına imkan verəcəkdir.

# III FƏSİL. Aİ İLƏ AZƏRBAYCAN TİCARƏT- İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAF TƏMAYÜLLƏRİ

## 3.1. AR və Aİ ticarət əlaqələrinin strukturunda dəyişikliklər

Xarici iqtisadi əlaqələrin inkişafı və ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə səmərəli inteqrasiyası Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Avropa İttifaqı Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşı olaraq qeyd edilən məqsədlərin həyata keçirilməsində mühüm rol oynayır (https://azertag.az/print/1519973. 2021). İki tərəf arasında ticarət münasibətlərinin ölçülə bilən parametrlərini nəzərdən keçirsək, Avropa İttifaqının Azərbaycanın xarici ticarətində mövqeyini aydın şəkildə görə bilərik. Avropa İttifaqı ilə Azərbaycan arasında ticarət münasibətlərinin coğrafi və əmtəə strukturunu təhlil etməklə idxalın və ixracın şaxələndirilməsi imkanlarını qiymətləndirmək olar. Azərbaycan Avropa İttifaqına ixracının genişləndirilməsi və şaxələndirilməsi üçün bir sıra amilləri nəzərdən keçirməlidir.

Əgər Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında ticarət münasibətlərinin və iqtisadi parametrlərin hazırkı vəziyyətinə nəzər yetirsək, görərik ki, ölkəmizin ixracının əsasını neft-qaz məhsulları təşkil edir. Lakin 2015-ci ildən etibarən dünya bazarında neftin qiymətinin aşağı düşməsi ilə neft ixrac edən hər bir ölkə kimi Azərbaycanın da iqtisadi artım dinamikasında azalmalar müşahidə edilmişdir. Buna görə də həmin andan etibarən ölkəmizin iqtisadi inkişafına dair bir sıra məsələlərin ortaya qoyulması zəruriləşdi. Bununla bağlı olaraq, qeyri-neft sektorunda ixracın diversifikasiyası və bu sahədə inkişafın təmin edilməsi üçün yeni islahatlar həyata keçirilmişdir. İlk növbədə, Aİ-yə qeyri-neft ixracının genişləndirilməsi üçün nəzərə alınmalı olan amillər barədə danışaq.

Ölkənin mövcud təbii və iqtisadi resurslarından səmərəli istifadənin təşkili ilə istehsalın dinamik inkişafına nail olmaq mümkündür. Hər bir ölkə rəqabət üstünlüyünə malik olan sahələrdə mövcud imkanları səfərbər edərək beynəlxalq bazarlara sərbəst girişi təmin edə bilər. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində olduğu kimi, ölkəmiz zəngin təbii sərvətlərinin beynəlxalq bazarlara satılması yolu

ilə digər istehsal sahələrini stimullaşdırmaq siyasəti aparır. Azərbaycan müstəqillik əldə etdikdən sonra investisiyaların cəlb edilməsi, o cümlədən zəngin karbohidrogen ehtiyatlarından istifadə olunması və onların beynəlxalq bazarlara çıxarılması sahəsində xeyli nailiyyətlər əldə etmişdir.

Təsadüfi deyil ki, son islahatların məqsədi neft gəlirlərinin şaxələndirilməsi və qeyri-neft sektorunun istiqamətləndirilməsidir. Beləliklə, ölkəmiz rəqabət qabiliyyətli məhsullar istehsal etməli və ixrac etməlidir. Azərbaycanın neft sənayesinin üstünlüyü aydındır. İxrac-idxal əməliyyatlarının həcmi ildən-ilə artmasına baxmayaraq, ixracın xammal yönümlü olması, həmçinin bir çox sənaye və qida məhsullarının idxalı bu sahədəki problemlərdən xəbər verir. Bu gün Azərbaycanın səyləri qeyri-neft sektorunun inkişafına yönəldilmişdir ki, bu da milli iqtisadiyyatın neft qiymətlərindən asılılığını azaltmağa kömək edəcəkdir. Ölkənin müxtəlif risklərdən və böhranların mümkün nəticələrindən qorunma dərəcəsini müəyyənləşdirmək, eyni zamanda rəqabətə davamlı, çoxşaxəli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək üçün möhkəm resurs və institusional bazanın yaradılması prosesi davam edir. Əlverişli təbii şəraiti, bölgələrin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icrası, qida istehsalı və ixracındakı zəngin ənənələr, potensial xarici bazarlara coğrafi yaxınlıq və digər bu kimi amillər qeyri-neft ixracının artırılması üçün mühüm perspektivlərin olduğunu göstərir.

Bildiyimiz kimi, Azərbaycanın Avropa İttifaqına qeyri-neft ixracında kimya sənayesinin məhsulları üstünlük təşkil edir. Bu sahədə hələ də çox aşağı olan ixracımızı genişləndirə bilmək üçün yeni zavodlar açılmalı, universitetlərdə yeni ixtisaslar yaradılmalı, kimya mühəndisliyinə ixtisaslı kadrlar cəlb olunmalı və bu sahədə ixtisaslaşma olmalıdır. Bacarıqlı kadrların olması və təbii ehtiyatların bolluğu səbəbilə bu sahəyə diqqət və maraq daha da artırılmalıdır. Bu sahədə böyük işlər görülür. Neft gəlirlərinin şaxələndirilməsi ilə əlaqədar kimya sənayesinin müxtəlif sahələrinə sərmayə qoyulmuşdur. Burada əsas SOCAR Polymer zavodlarını qeyd edə bilərik. SOCAR Polymer ölkənin kimya sənayesinin inkişafını gücləndirmək məqsədi ilə 16 iyul 2013-cü ildə təsis edilmişdir. Polipropilen (PP) və yüksək sıxlıqlı polietilen (YSP) zavodlarından ibarətdir. PP və YSP zavodları

müvafiq olaraq 2018-ci ilin iyul və 2019-cu ilin fevral aylarında istismara verilib və Sumqayıt Kimya Sənayesi Parkı (SKSP) ərazisində yerləşir.

Polipropilen və yüksək sıxlıqlı polietilen istehsalı zavodları plastik kütlə bazarının bu sektoru üçün istehsalın təkmilləşdirilməsi hesabına yerli neft-kimya sənayesini inkişaf etdirməyə imkan verir. SOCAR Polymer rəqabətqabiliyyətli məhsullar istehsal edir, bu da ölkəmizdə ixracın inkişaf etdirilməsinə və idxalı əvəz etməyə kömək edir. Yüksək rəqabətə baxmayaraq, Avropa bazarlarında tədricən yer qazanmaq üçün addımlar atılır. Ümumi istehsalın yalnız 30% -i daxili bazarda istifadə edilir və bu da yerli tələbat üçün kifayət edir. Məhsulun yüzdə 70%-i Aİ ölkələrinə və Türkiyəyə ixrac edilir. Beləliklə, bu cür zavodların məhsuldarlığı və sayı artarsa, istehsal həcmi Aİ-nin tələbatına cavab verə bilər.

İxracyönümlü məhsul inkişafı üçün müasir texnologiya və innovasiyalaraçıxışın genişləndirilməsi vacib məsələlərdəndir. Yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsalı istehsalda qabaqcıl texnologiyaların tətbiqi və cəmiyyətdə sosial innovasiya tələb edir. Xüsusilə, günümüzdə aktual olan qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi məsələsi, istehsal və ya emalın bütün mərhələlərində keyfiyyətə nəzarət sistemlərinin tətbiq olunmasını zəruridir. Elmi-texniki tərəqqinin məqsədi əmək və maddi resurslara qənaət etməklə məhsuldarlığı artırmaq, əhalinin sosial və yaşayış şərtlərini yaxşılaşdırmaqdır.

Texniki inkişaf, sənaye sahələri ilə yanaşı, milli iqtisadiyyatın böyüməsində də mühüm rol oynayan aqrar bazarda həllediciidir. Müasir dövrdə istehsal proseslərinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması sənaye kənd təsərrüfatı bazasına keçidin ən vacib mərhələlərindən biridir. Bu proses həm də təbii qüvvələrin kənd təsərrüfatına təsirinin bəzi mənfi nəticələrini aradan qaldırır. Son illərdə bu sahədə atılmış ən önəmli addımlardan biri kimi dövlət dəstəyi ilə aqrar sığorta mexanizminin yaradılması və effektiv şəkildə tətbiqinə başlanmasını misal göstərmək olar. "Bu mexanizmin yaradılmasında məqsəd aqrar sahənin inkişaf etdirilməsi, bu sahə ilə bağlı risklərə qarşı effektiv müdafiə sistemini yaradaraq fermerlərin davamlı və dayanıqlı fəaliyyətlərini təmin etmək, habelə aqrar sektora investisiya cəlbediciliyinin yüksəldilməsi və fermerlərin maliyyəyə çıxış

imkanlarının genişləndirilməsidir" (https://asf.gov.az/missiya-ve-hedeflerimiz/.2021). Aqrar sektorda əmək məhsuldarlığının artırılması bir sıra emal sahələrinin inkişafına və istehsal olunan məhsulların beynəlxalq bazarlara çıxışının genişləndirilməsinə kömək edəcəkdir.

Ticarət artımına təsir edən amillərdən biri də nəqliyyat və logistika infrastrukturun inkişafıdır. Bu səbəbdən bu sektorun inkişafı Azərbaycanın Avropa İttifaqına ixracında mühüm rol oynayır. Aİ-nin Azərbaycanın nəqliyyat və logistika sənayesinə qoyduğu böyük investisiyalarla əvvəlki fəsildə tanış olduq. Azərbaycan şimal-cənub və şərq-qərb münasibətlərində əlverişli yeri səbəbilə vacib rol oynayır. Bu sahədə islahatların dərinləşdirilməsi, xarici ticarətdə malların hərəkəti, buraxılışı, rəsmiləşdirilməsi, rəsmiləşdirmə üçün tələb olunan sənəd və məlumatların toplanılması və təqdim edilməsi, hesablaşmaların aparılması ilə bağlı prosedurlar da daxil olmaqla, malların idxalı, ixracı və tranziti prosedurlarının (hərəkətlərin, təcrübələrin və formallıqların) sadələşdirilməsi, gömrük məhdudiyyətlərinin, bürokratik maneələrin, inzibati xərclərin, gözləmələrin aradan qaldırılması və qabaqcıl beynəlxalq təcrübə əsasında harmonizasiyası ilə əlaqədar qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi və bunu nəticəsində xarici bazarlara çıxışın daha da asanlaşması nəticəsində Aİ ilə ticarətdə ixracatda artım əldə edilə bilər.

Qeyd edilməsi vacib məsələlərdən biri də Zəngəzur dəhlizin bərpasıdır. 2020-ci ildə 44 günlük müharibə nəticəsində Azərbaycan işğal olunmuş ərazilərini Ermənistan işğalından azad etmişdir.

> *Müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir...* (https://apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-Azrbaycan-Rusiya-v-

Ermnistan-rhbrlrinin-istiraki-il-imzalanmis-sndin-mtnini-aciqlayib-colorredTAM-MTNcolor-614484.2020).

Həmin müddətdə Aİ-nin Ali Nümayəndəsi Josep Borrell son zamanlar Dağlıq Qarabağda Ermənistan və Azərbaycan arasında hərbi əməliyyatların dayandırılması ilə bağlı bir bəyanat yaymışdır. Borrell bəyanatda Dağlıq Qarabağ və ətrafındakı hərbi əməliyyatların dayandırılmasını alqışladığını və Ermənistan-Azərbaycan arasında Rusiya vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsin insan tələfatının qarşısını almağa kömək edəcəyini və hərtərəfli həll yolunda ilk addım olduğunu qeyd etmişdir. Daha sonra Aİ-nin ATƏT-in Minsk Qrupu həmsədrlərinin rəhbərlik etdiyi danışıqlar formatını dəstəkləməyə davam etdiyini və bütün Cənubi Qafqaz regionunun sülh və firavan inkişafı üçün razılaşmaların həyata keçirilməsinə öz töhfəsini verməyə hazır olduğunu vurğuladı.

Son olaraq 18 dekabr tarixində Aİ və Azərbaycan Brüsseldə 17-ci Tərəfdaşlıq Şurası (bundan sonra – Şura) iclasında görüşdülər. İclasda birgə razılaşdırılmış Aİ-Azərbaycan Tərəfdaşlıq Prioritetlərinin icrası, Azərbaycanın islahat gündəliyi və yeni Aİ-Azərbaycan ikitərəfli sazişinin perspektivləri nəzərdən keçirilmişdir. Hər iki tərəf COVID-19 pandemiyasının təsirini və son dövrlərdə Dağlıq Qarabağda və ətrafında baş verən genişmiqyaslı hərbi əməliyyatların ardından vəziyyəti müzakirə etmişdir.

Aİ-nin Yüksək Nümayəndəsi Josep Borrell "Aİ Azərbaycanla demokratiya, insan hüquqları və azadlıqlara əsaslanan iddialı yeni hərtərəfli müqavilə bağlamaq istəyir" deyərək bunun Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə, ticarət əlaqələrimizin inkişafına və ölkələrimizin daha geniş əməkdaşlıq münasibətləri qurmasına imkan yaradacağını qeyd etmişdir. Borrell, Aİ-nin Minsk Qrupu həmsədrləri ilə sıx əməkdaşlıq edərək, Dağlıq Qarabağ münaqişəsinin davamlı həllinin dəstəklənməsi və formalaşdırılmasında rol oynamağa hazır olduğunu əlavə etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, torpaqlarımız işğaldan azad olunması nəqliyyat, kommunikasiya imkanların geniş istifadə etməyə kömək etmişdir. Bununla bağlı olaraq, prezident İlham Əliyev keçirdiyi son mətbuat konfransında Zəngəzur

dəhlizinin bərpası və bunun üstünlükləri  bağlı xüsusi fikirlər söyləmişdir. Nəzərə alsaq ki, Zəngəzur dəhlizi yalnız Azərbaycan üçün yox, bütövlükdə regionun inkişafı baxımından çox vacibdir. Zəngəzur dəhlizi Azərbaycanın qərb bölgələrinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsini nəzərdə tutur. Bu dəhlizin çəkilməsinin əsas üstünlüyü regionda infrastrukturun, nəqliyyatın və logistikanın inkişafına xidmət etməsidir. Bu Azərbaycanda istehsal edilən qeyri-neft məhsullarının əsas bölgələrimizdən Naxçıvan Muxtar Respublikasına, ordan da Türkiyə və eləcə də Avropa bazarına çıxarılmasını təmin edəcəkdir.  Azərbaycan iş adamlarının alternativ nəqliyyat dəhlizindən istifadə etməklə ixrac imkanlarını artırması müşahidə olunacaq ki, bu da Azərbaycanın qeyri-neft ixracatı üçün vacibdir. Zəngəzur dəhlizinin yaradılması Avrasiyanın nəqliyyat şəbəkəsinə yeni bir sütun əlavə edəcək və bölgə ölkələri arasında iqtisadi və ticarət əlaqələrini müsbət təsir edəcəkdir.

Azərbaycanın Aİ ilə ticarət münasibətlərində digər bir problem ölkənin idxaldan asılılığıdır. Bu, təkcə Aİ ilə ticarət problemi deyil, həm də Azərbaycanın ticarət strukturunun əsas problemlərindən biridir. Azərbaycanın idxaldan asılılığı həmişə milli valyutanı təzyiq altında saxlayır və tədiyyə balansının mənfi saldosuna gətirib çıxarma riski daşıyır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Aİ Azərbaycanın idxal etdiyi bir çox əsas malların aparıcı ixracatçısıdır. Azərbaycanın Aİ ölkələrindən idxal etdiyi əsas əmtəə qrupu maşın və nəqliyyat avadanlıqlarıdır.

İdxaldan asılılığın azaldılması və özünü təminatın artırılması üçün həlledici addımlar atılmalıdır. Bu istiqamətdə aşağıdakı təklifləri nəzərə almaq vacibdir:

Birincisi, intensiv təsərrüfat modelinə keçid və iri fermer təsərrüfatlarının yaradılmasıdır. Ölkədə heyvandarlıq məhsullarının artırılması və bununla da idxalın əvəzlənməsi üçün heyvandarlıq istehsalı intensiv əsaslarla inkişaf etdirilməlidir. Ölkələrin əksəriyyəti səmərəliliyi artırdığına görə “Dairəvi Kənd Təsərrüfatı” modelini tətbiq edirlər. Azərbaycan da bu modeli tətbiq edə bilər. Bu sektoru da intensiv inkişaf etdirmək üçün Holland təcrübəsindən istifadə etmək məqsədə uyğun olar.

Yeni aqrofirmalar yaradılmalıdır. Bilirik ki, hökumət bunun üçün vacib işlər görür. Məsələn, “Aqrolizinq” ASC uzunmüddət fermerlerə suvarma sistemləri dəsti və kənd təsərrüfatı texnikaları, avadanlıqlarının güzəştli şərtlərlə təmin edilməsi üzrə dövlət dəstəyi göstəmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı istehsal vasitələri ilə təminatının gücləndirilməsi, ölkədə aqrotexniki xidmətlər göstərilməsi ilə bağlı işlərin səmərəsinin artırılması və sistemliliyinin təmin edilməsi məqsədiləAzərbaycan Respublikası Prezidentinin “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında” 17 avqust 2020-ci il tarixli 1137 nörməli Fərmanı ilə Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək “Aqroservis” Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır (https://xalqqazeti.com/az/news/54321. 2021). Dövlət tərəfindən, həmçinin yüksək məhsuldarlığı cins heyvanlarla, heyvandarlıq kompleksləri dəstəklənir, bu istiqamətdə fermerlərə subsidiyalar ayrılır.

İntensivləşmə və effektivlik güclü olsa da, bəzən bunlar kifayət etmir. Torpaq, heyvandarlıq, quşçuluq kimi hər cür mənbələrin optimallaşdırılması yalnız təsərrüfat səviyyəsində deyil, həm də daha geniş səviyyədə tələb olunur. Bu o deməkdir ki, torpaq, kimyəvi maddələr, su və qidalı maddələrdən optimal şəkildə istifadə edilməlidir. Keçid dövrü ərzində hökumət fermerlərə sosial, iqtisadi, hüquqi və texniki maneələrin aradan qaldırılmasına kömək etməlidir.

Hazırda bu sahədə ixtisaslı kadrların çatışmazlığı müşahidə olunur. Kənd təsərrüfatı inkişafa bağlı olaraq bir neçə ildir dövlət nəzarəti altında olsa da, indi bu sahəyə maraq o qədər də böyük deyildir. Kənd təsərrüfatı sahəsində işini sevən gənc kadrlara böyük ehtiyac var. Düşünürəm ki, bu sahədə təhsil müəssisələrinin yaradılması faydalı olar. Bu məqamda hansı regionun hansı sektora ehtiyacı olduğunu bilmək lazımdır.

Avropa İttifaqı Azərbaycana birbaşa xarici investisiyalarının böyük hissəsini təmsil edir. Hazırda Azərbaycanda Aİ-nin müxtəlif ölkələrindən 400-dən artıq şirkət fəaliyyət göstərir. Aİ təhsil, vergilər, ədliyyə, kənd təsərrüfatı və regional inkişaf məsələlərinə həsr olunmuş bir sıra təşəbbüslər yolu ilə Azərbaycan Hökumətinə iş mühitinin inkişaf edilməsində dəstək verir.

Azərbaycanda 20 sentyabr 2017-ci il tarixində iqtisadiyyatın əsas qeyri-neft sahələrində rəqabətqabiliyyətliliyin inkişafı istiqamətində iki illik layihəyə start verilmişdir. Aİ tərəfindən maliyyələşdirilən layihə Latviya Ticarət-Sənaye Palatası tərəfindən həyata keçirilir. Layihə Azərbaycan hökumətinə onun iqtisadiyyatının artım bazasının şaxələndirilməsi və genişləndirilməsi səylərində dəstək vermişdir.

Həmçinin Azərbaycanda biznes mühitini yaxşılaşdırmaq və ölkənin iqtisadi şaxələndirilməsinə dəstək verməklə, qeyri-neft sektorunu gücləndirmək məqsədi ilə Aİ tərəfindən maliyyələşdirilən layihələrdən biri də "Aİ-Azərbaycan Biznes Forumu 2020-2022"-dir. Bu layihənin əsas vəzifələri Aİ ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın təşviqinə, Azərbaycanda iş mühiti və investisiya imkanları barədə məlumatlılığın gücləndirilməsinə və dövlət-özəl dialoqun genişləndirilməsinə həsr edilmişdir. Layihə COWI Belçika tərəfindən İtaliya-Azərbaycan Ticarət Palatası (ITAZERCOM), Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası (CCIAF) və İnvestBaku ilə tərəfdaşlıq çərçivəsində həyata keçirilir.

Layihənin gözlənilən nəticələrinə aşağıdakılar aiddir:

1. Aİ 2020-2021-ci illərdə Avropa İttifaqının Biznes Mühiti Hesabatını hazırlamaq;
2. 2020-2021-ci illərdə Aİ-nin Biznes Şəbəkəsi Yığıncağını təşkil etmək (Aİ-nin Biznes Mühiti Hesabatı Azərbaycanın təqdimatı ilə);
3. 2020-2021-ci illərdə Aİ-Azərbaycan Biznes Forumunu təşkil etmək;
4. Seçilmiş bir islahatın dərin təhlilini hazırlamaq;

Azərbaycanın qeyri-neft sektorunda xarici investorlar arasında Avropa İttifaqı ölkələrinin payı 36,5% -dir. Bunlar əsasən Niderland, Almaniya, Fransa və İtaliyadır. Azərbaycan Respublikasında investisiya mühitinin yaxşılaşdırılması, ölkənin xarici investorlar üçün cəlbediciliyinin artırılması məqsədilə 20 Aİ ölkəsi ilə ikiqat vergitutmanın götürülməsi, 17 ölkə ilə investisiyaların təşviqi və qarşılıqlı qorunması barədə müqavilələr imzalanır və bu istiqamətdə tədbirlər görülür.

## 3.2. AR və Aİ əməkdaşlığının perspektivləri və əsas təmayülləri

Azərbaycanın Aİ ölkələri ilə xarici ticarət əlaqələrini gücləndirmək üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunluğun sürətləndirilməsi vacibdir. Mövcud qanunların beynəlxalq normalarla uyğunlaşdırılması, ölkənin beynəlxalq iqtisadi əlaqələrini genişləndirmək, qlobal iqtisadi sistemə daxil olmasını sürətləndirmək və beynəlxalq əmək bölgüsündə fəal iştirak baxımından böyük rol oynayır. Beynəlxalq ticarət siyasəti sahəsində görülən iş daxili iqtisadiyyatın qorunması və ixrac fəaliyyətinin təşviqi istiqamətində görülən işlərə əhəmiyyətli dərəcədə təsir göstərir. Ölkəmizin dünya iqtisadi sisteminə sürətlə qoşulduğu bir zamanda beynəlxalq ticarət-iqtisadi təşkilatların bərabər hüquqlu üzvü kimi iştirakını təmin etmək üçün milli qanunvericiliyi Dünya Ticarət Təşkilatının (ÜTT), Avropa İttifaqı və digər təşkilatların tələblərinə, standartlarına və yaxşı təcrübəsinə uyğunlaşdırmaq olduqca vacibdir. Azərbaycanın müasir iqtisadi inkişaf strategiyasında əsas prioritetlər kimi xarici iqtisadi fəaliyyətin bərpası, ixrac yönümü istiqamətində milli iqtisadiyyatın formalaşdırılması və idxalı əvəzləyən istehsalatların yaradılması məsələləri müəyyən edilmişdir. Bu istiqamətdə işlərin fəallaşdırılması məqsədilə Prezident tərəfindən bir sıra tapşırıqlar verilmişş, Dövlət Proqramları qəbul edilmiş, dövlət idarəçiliyi sahəsində təkmilləşdirmələr aparılmışdır.

Bu gün Azərbaycan Avropa İttifaqı ilə yeni bir müqavilə imzalamaq istəyir. Yeni sazişin 1996-cı ildə qəbul edilmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini əvəz etməsi planlaşdırılır. Yeni müqavilə Azərbaycan qanunvericiliyinin və texnikasının Avropa İttifaqının ən vacib qlobal ticarət standartlarına uyğunluğunu nəzərdə tutacaqdır. Bu, ölkəmizin mallarının Aİ bazarlarına çıxışının genişlənməsinə gətirib çıxaracaqdır.

Azərbaycanda sahibkarlığın inkişafını təşviq edən bir mühit yaratmaq və iş mühitini yaxşılaşdırmaq üçün məqsədyönlü iqtisadi islahatlar aparılmalıdır. Statistika, ixracatçılar və idxalatçılar üçün əlverişli bir mühitin yaradılması reallığını əks etdirən faktlara əsaslanan iş qərarları vermək üçün vacib bir vasitədir. Azərbaycanın milli statistika sistemi daha da inkişaf etməli və müxtəlif parametrlər

və qiymətləndirmələr üçün vacib göstəriciləri özündə cəmləşdirməlidir. Statistik sistemin zəruri resurslarla təmin edilməsi, dövlət orqanlarının qarşılıqlı əməkdaşlığı və informasiya sistemlərinin inteqrasiyası vacibdir.

Digər tərəfdən, milli statistik sistemin düzgünlüyünün təmin edilməsi, məlumatlar arasındakı uyğunsuzluğun aradan qaldırılması və ya azaldılması və məlumatların yenilənməsi vacib məsələlərdəndir. Güclü statistik infrastruktur vacib təhlillər aparacaq və qərar qəbuletmə müddətini təsirli edəcəkdir.

Təhlillər göstərir ki, Azərbaycan Respublikası və Aİ iqtisadi inteqrasiya baxımından bir-birinə bağlı bir sıra maraqlara malikdirlər və bu maraqlar tərəflər arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsini tələb edir. Bu maraqlar aşağıdakı kimi qruplaşdırıla bilər:

- ölkənin müasir sosial-iqtisadi inkişafının təmin edilməsində regional və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi;
- Aİ-nin fəaliyyət və təsir dairəsinin intensiv genişlənməsi, Aİ-nin dünyanın iqtisadi və siyasi hakimiyyətinin ən iri mərkəzlərindən birinə çevrilməsi;
- Azərbaycan geniş ixrac potensialına malikdir ki, bu da Aİ ölkələri üçün vacibdir;
- Azərbaycanın milli iqtisadiyyatının inkişafı üçün Aİ ölkələrindən yüksək texnika və texnologiyalar almasının zəruriliyi;
- ölkənin mövcud istehsal və infrastruktur obyektlərinin modernləşdirilməsinə və inkişafına, həmçinin yeni ərazilərin yaradılmasına irimiqyaslı xarici investisiyalara yüksək tələbatın olması.

Azərbaycanın Avropa ilə iqtisadi inteqrasiya maraqları ölkənin geosiyasi və geoiqtisadi mövqeyi, tarixi ənənələri və sosial-iqtisadi inkişaf xüsusiyyətləri kimi amillərlə şərtlənir. Azərbaycanın Avropa iqtisadi məkanına inteqrasiyası bir tərəfdən iqtisadiyyatın səmərəli bir quruluşunu formalaşdırmaq, müasir texnika və texnologiyaları əldə etmək, aqrar sektor və idarəetmənin qabaqcıl təcrübəsini mənimsəmək və s. bu kimi daxili sosial-iqtisadi problemləri daha asan həll etmək, digər tərəfdən sahib olduğu iqtisadi məkanın sərhədlərini genişləndirmək, iqtisadi və milli təhlükəsizliyini təmin etmək baxımından vacibdir.

Azərbaycan Aİ üzv dövlətlərindən investisiyaların cəlb edilməsində maraqlıdır. Aİ-ni təmsil edən investorlar, ölkə iqtisadiyyatının modernləşdirilməsi və inkişafı, eləcə də qiymətli kağızlar bazarının gücləndirilməsində maliyyə dəstəyi üçün əlverişli şərait yaratmışlar. Şübhəsiz ki, mineral ehtiyatlarla zəngin olan Azərbaycan enerji sahəsində fəaliyyət göstərən Aİ investorlarını asanlıqla cəlb edə bilir. Bu baxımdan Azərbaycan Aİ investorlarını iqtisadiyyatın qeyri-neft sektoruna cəlb etməkdə daha çox maraqlıdır.

Azərbaycanın Avropa İttifaqı proqramlarına qoşulması xüsusi əhəmiyyət kəsb edir. Aİ fondları ölkədə islahatlara, idarəetmə sisteminin təkmilləşdirilməsinə və bu sahədə potensialın artırılmasına, nəqliyyat və ticarət infrastrukturunun inkişafına, ekoloji proqramların həyata keçirilməsinə və enerji səmərəliliyinin artırılmasına imkan verir.

Azərbaycanın əsas tələbi inkişaf etməkdə olan ölkələrin statusuna bərabər status almaq və ÜTT-yə üzv olacağı təqdirdə ölkəmizin aqrar sektorunun inkişafının sürətləndirilməsini təmin etməkdir. Buna görə də bu amillər Aİ ilə ticarət əlaqələrinin müasir tələblərə uyğun modelləşdirilməsində yeni bir mərhələ aça bilər.

Azərbaycanın milli maraqları kontekstində Avropa iqtisadi məkanına inteqrasiya perspektivlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- Aİ-nin daxili bazardakı payı ilə yanaşı Aİ-nin ayrı-ayrı layihə və proqramlarında iştirak etmək imkanı və bununla da yaxın əməkdaşlıqdan növbəti inteqrasiya səviyyəsinə keçilməsi;
- Ticarət və iqtisadi əlaqələrin dərinləşməsini, iqtisadi qanunvericiliyin yaxınlaşmasını, iqtisadiyyatların qarşılıqlı açılmasını, ticarətdə inkişafı asanlaşdıran qeyri-tarif məhdudiyyətlərinin davamlı olaraq azaldılması ;
- İttifaqın AQS çərçivəsində imzalanan sənədlərlə müəyyən edilmiş digər razılaşdırılmış sənədlərdə qarşıya qoyulmuş hədəflərə çatmaq üçün Azərbaycan iqtisadiyyatının davamlı inkişafı üçün dəstəklədiyi maliyyə dəstəyinin artırılması;

- ➢ Hər iki tərəfin maraqlarını təsir edən təhlükəsizlik məsələləri üzrə siyasi dialoq və məsləhətləşmə mexanizmlərinin daha da inkişaf etdirilməsi yolu ilə əməkdaşlığın əhatə dairəsinin və intensivliyinin artırılması;
- ➢ Azərbaycanın Aİ üçün əhəmiyyətini artırmaq baxımından ATƏT-lə məsləhətləşmələr çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllində ittifaqın dəstəyinə nail olması;
- ➢ Mədəniyyət, təhsil, ətraf mühit, elm və texnologiya sahələrində Aİ proqramlarının sayının artırılması və bu proqramlarda iştirak etmək imkanlarının artırılması.

Azərbaycanın Avropaya iqtisadi məkanına inteqrasiyasının müsbət nəticələri kimi aşağıdakıları qeyd edə bilərik:

- ➢ Ölkənin beynəlxalq aləmdə bazar iqtisadiyyatı kimi tanınması;
- ➢ Azərbaycan məhsullarının Avropa bazarlarına çıxışı üçün əlverişli şəraitin yaradılması;
- ➢ Ölkəmizin beynəlxalq iqtisadi münasibətlərdə iştirakının və maksimum milli maraqların genişləndirilməsi;
- ➢ Aİ ölkələrində istehsal olunan yüksək keyfiyyətli məhsullara daha asan giriş;
- ➢ Ölkənin Avropa istehsal kooperasiyasına qoşulma qabiliyyətinin artması;
- ➢ Aİ ölkələri tərəfindən Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların həcminin artırılması;
- ➢ Aİ ölkələrindən müasir istehsal və idarəetmə texnologiyaları və nou-hau idxalının genişləndirilməsi;
- ➢ daxili bazarda rəqabətin gücləndirilməsi nəticəsində milli istehsalın rəqabət qabiliyyətinin artırılması və s.

Yuxarıda qeyd etdiklərimizdən başqa, son illər illər baş tutan iclaslar və konfranslar da bu iki tərəfdaş arasında münasibətləri daha yaxından analiz etməyə imkan verir. Belə ki, 2018-ci ilin fevral ayında Azərbaycan-Aİ arasında Əməkdaşlıq Şurasını 15-ci iclası keçirilmiş və bu iclasda münasibətlər Şərq Tərəfdaşlığ və

Avropa Qonşuluq Siyasəti çərçivəsində təhlil edilmişdir. İclasda həmçinin Aİ və Azərbaycan demokratiyanın, hüququn aliliyinin, insan hüquqlarının və əsas azadlıqların, o cümlədən ifadə azadlığı və assosiasiyaların çağırışlarını nəzərdən keçiriblər. Aİ hüququn aliliyinin, əsas hüquqların və demokratik təsisatların möhkəmləndirilməsinin, eləcə də vətəndaş cəmiyyəti ilə konstruktiv qarşılıqlı fəaliyyətin vacibliyini vurğulayıb. Çünki onlar müstəqil, sabit və çiçəklənən ölkənin inkişafı üçün həlledici əhəmiyyətə malikdir. Aİ Azərbaycanda demokratik təsisatların gələcək inkişafına dəstəyi davam etdirməyə hazır olduğunu bildirmişdir.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, Azərbaycan Avropa iqtisadi məkanına inteqrasiya prosesinin gücləndirilməsinə diqqətlə yanaşmalı və inteqrasiya səviyyəsi ilə ölkənin hazırlıq səviyyəsi arasında uyğunluğu müəyyən edərkən atacağı addımları daha yaxşı nəzərdən keçirməlidir. Bu mənada təkliflərlə yanaşı siyasətçilərin, iqtisadçıların və elm adamlarının koordinasiyalı işi mütləqdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiyada Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi əlaqələrin formalaşması hərtərəfli təhlil edilmişdir. Avropa İttifaqının Azərbaycan Respublikasına qarşı siyasətinin əsas istiqamətlərinin təhlili tərəflər arasındakı münasibətlərin inkişafına hərtərəfli qiymət verməyə və gələcək əməkdaşlıqları barədə bəzi proqnozlar verməyə imkan yaradır.

Ölkəmizin Aİ ilə ticarət zamanı qarşılaşdığı problemlərin böyük əksəriyyəti həll olunur və Azərbaycan bu problemlərin həllinə bilavasitə təsir etmək üçün öz potensialından istifadə etməyə qadirdir. Aparılan araşdırmalar nəticəsində belə nəticə çıxarmaq olar ki, Azərbaycan Respublikasının Aİ ilə ticarət əlaqələrinin genişləndirilməsi iki istiqamətdə həyata keçirilməlidir. Birinci istiqamət hüquqi məsələlərlə bağlıdır. Beləliklə, Azərbaycan tərəflər arasında ticarəti asanlaşdırmaq və ticarət maneələrini aradan qaldırmaq üçün ÜTT-yə üzv olmalıdır. Avropa İttifaqı bu görüşlərdə belə deyir. Bundan əlavə, gömrük prosedurlarının sadələşdirilməsi, Avropa sertifikatlaşdırma sisteminin uyğunlaşdırılması və milli statistika sisteminin inkişafı yolu ilə Almaniya, Niderland və Polşa kimi bəzi ölkələrlə ticarətin artmasına nail olmaq mümkündür.

İkinci istiqamət iki hissəyə bölünən əmtəə qruplarının strukturunda dəyişikliklər etməkdir. Birincisi, Aİ ölkələrinin idxal strukturu optimallaşdırılmalıdır, bəzi mallar isə yerli istehsalla əvəz olunmalıdır. Fikrimcə, neft məhsullarının və kimyəvi maddələrin idxalı yolverilməzdir. Ölkəmizdə xammalı olan mallar da istehsal etmək olar. Digər bir məsələ ixracın artırılmasıdır. Aİ ölkələrinə qeyri-neft ixracının artması ticarət münasibətlərinin genişləndirilməsinin əsas aspektidir. Etdiyimiz tövsiyələr aşağıdakılardır:

- Ölkənin mövcud təbii və iqtisadi resurslarından səmərəli istifadənin təşkili;
- İxrac yönümlü məhsulun inkişafı üçün müasir texnologiyalara və innovasiya texnologiyalarına çıxış imkanlarının genişləndirilməsi;
- Mövcud olan potensialdan istifadə etməklə yeni texnoparkların və sənaye parklarının yaradılması.

- Müəyyən məhsulların istehsalında firmaların ixtisaslaşmasının səviyyəsinin artırılması (kənd təsərrüfatının müxtəlif sahələrində ixtisaslaşma);
- Nəqliyyat və infrastrukturun inkişafının yüksək səviyyəsi;
- Ölkənin coğrafi potensialından istifadə etməklə Aİ-nin regionda əsas tranzit tərəfdaşı olmaq.

Nəticə etibarilə, gələcəkdə illərdə bir qrup məsələyə daha çox diqqət yetirilməli və Azərbaycanla Aİ arasındakı ticarət əlaqələrinin genişlənməsi problemləri, mövcud reallıqlar, potensial və perspektivlər kontekstində daha çox amillər nəzərə alınmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Abdullayev A. (2015). “Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi əməkdaşlığının müasir problemləri və inkişaf perspektivləri”. ADİU, Bakı. 84 s.

2. Almazova Ş. (2015). “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə qarşılıqlı iqtisadi əlaqələri və onların inkişaf perspektivləri”. ADİU, Bakı.80 s.

3. AMEA İqtisadiyyat İnstitutu. (2015). “Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər”. Bakı. “Avropa” nəşriyyatı. 332 s.

4. Bayramov Ş. “Avropa İttifaqının genişlənməsi və Avropa Qonşuluq Siyasəti: müqayisəli təhlil və qiymətləndirmə”. Azərbaycanın Vergi Xəbərləri. (2011). № 3. s 67-74

5. Bayramov V. “Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi”. Bakı, (2010). 28 s.

6. Əliyev T. (2019). “Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və bu birliyə daxil olma perspektivləri”. ADİU, Bakı. 85 s.

7. Əliyeva Ş. (2018). “Azərbaycan iqtisadiyyatı”. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi. 376 s.

8. Hacızadə E.M. (2018). “Dünya iqtisadiyyatı və Azərbaycan”. Dərslik. Bakı, “Letterpress” nəşriyyat evi. 912 s.

9. Həsənov A. (2017). “Azərbaycanın ÜTT-yə üzv olma kontekstində ixracın stimullaşdırılması problemləri”. ADİU, Bakı. 88 s.

10. Hüseynova H. (2016) . “Avropaya İnteqrasiya”. Azərbaycan qəzeti. Bakı. səh 2.

11. İbadoğlu Q. (2011). “Azərbaycan Respublikasında “Güzgü Statistikası” və xarici ticarət göstəricilərinin əsaslandırılması”. İqtisadi Tədqiqatlar Mərkəzi. Bakı. ANS-Press MMC, 28 s.

12. Məmmədov F., Vəliyev C., Məmmədov A. (2017). “Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)”. Məqalələr toplusu. Bakı: “Poliart” MMC, 904 s.

13. Məmmədov S., (29.08.2019) “İlham Əliyev: Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir”. Xalq qəzeti. №188. s 1-2.

14. Musayev A. (2019). “Azərbaycan və Avropa ittifaqı arasında siyasi-iqtisadi münasibətlərin genişlənməsi məsələləri”. ADİU, Bakı. 113 s.

15. Newtimes.az. (2019). “Avropa İttifaqı-Azərbaycan münasibətləri: “Şərq tərəfdaşlığı” və yeni strateji əməkdaşlıq modeli”. “İki sahil” Gündəlik ictimai-siyasi qəzet. № 161. s. 2

16. Pənahov A. (2016). “Beynəlxalq İqtisadi Siyasət”. Metodik vəsait. Bakı, BBU. 171 s.

17. Təhməzov Ə. (2016). “Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində Azərbaycanın Avropaya inteqrasiyası məsələləri”. ADİU, Bakı. 78 s.

18. Yadigarov. T.A. (2020). “Gömrük statistikası və müasir informasiya texnologiyaları” (monoqrafiya). «Avropa» nəşriyyatı, Bakı, 520 s.

## Türk dilində

1. Ağakişiyeva S. (2018). “Azerbaycan’ın dünya ticaret örgütü ile ilişkileri”. ADİU, Bakı. 61 s.

2. Ahmedov M. (2015). “Avrupa Birliği-Azerbaycan İlişkileri Çerçevesinde Azerbaycan’ın AB’ye Siyasal ve Yönetsel Entegrasyonu”. İstanbul Üniversitesi. 168 s.

3. Akçay B., Göçmen İ. (2016). “Avrupa Birliği: Tarihçe, Teoriler, Kurumlar ve Politikalar”. Seçkin Yayınları, İstanbul,. 856 s.

4. Ballı E., Pehlivan G. G. “Avrupa Komşuluk Politikası’nın Ekonomik Etkileri Açısından Değerlendirilmesi”, Finans Politik & Ekonomik Yorumlar, Cilt 51. Sayı 587. (2014). s. 29-37

5. Dura C., Atik H. (2015). “Avrupa Birliği, Gümrük Birliği ve Türkiye”. Kalkan Matbaacılık San. Tic. Ltd. Şti. Ankara. 5. Basım. 972 s

6. Hamzaoğlu H. "Komşuluk Politikası ve Doğu Ortaklığı Programı Çerçevesinde Azerbaycan-Avrupa Birliği İlişkileri". Kafkas Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi. Cilt 11. Sayı 21. (2020). s. 504-520.
7. Karluk R. (2013). "Uluslararası Ekonomi". Beta Yayınları, İstanbul. 908 s.
8. Seyidoğlu H. (2017). "Uluslararası İktisat, Teori ve Politika Uygulama". Güzem Can Yayınları, İstanbul. 956 s.
9. Sönmez S. "Avrupa Birliği'nin Komşu Bölgelere Yönelik Siyasal Açılımı: Avrupa Komşuluk Politikası". Mustafa Kemal Üniversitesi. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt:7, Sayı:14. (2010). s. 113 - 122

## İngilis dilində

1. Aliyev E.V. "The analysis of the current state of Azerbaijan's export to the European Union". Azerbaijan Journal of Economics and Social Studies, Number 2, Volume 1.(2015). p. 45-59
2. Forsyth. J. (2013). "The Caucasus: A history". Cambridge: Cambridge University Press. p.866
3. Goldenberg.S. (1994). "Pride of small nations: The Caucasus and post-Sovet Disorder". London: Zed Books. p.256
4. Sultanova N. "EU-Azerbaijan: Renewed Dialogues And Future Perspectives" Head of International Relations Department of Azerbaijan University of Languages. (2019). p. 499-508
5. Van Vooren. B. (2013). "EU external relations law and the European neighbourhood policy: A paradigm for coherence". Abingdon:Routledge. p.384

## Rus dilində

1. Галкин С.А., Григорук. Н.Е. "Статистический учет и управление товарными потоками во внешней и внутрирегиональной торговле Евросоюза". Право и управление. XXI век. (2018). №4. 61-69 с.

2. Гладков И.С., Горбатенко Е.Ю. (2018). “Внешняя торговля Европейского союза: особенности на современном этапе”. Ин-т Европы РАН, Москва– 93 с.

## İnternet resursları

1. http://customs.gov.az/
2. http://files.preslib.az/projects/republic/az/azr2_4.pdf
3. http://mfa.gov.az/?options=content&id=566
4. http://newtimes.az/az/personas/6203/
5. http://www.elibrary.az/docs/qazet/qzt2019_3565.pdf.
6. http://www.eurasianbusinnessdispatch.com/ita/archivio/EU-%E2%80%93-Azerbaijan-Forum-2020-%E2%80%93-2022-tra-cooperazione-economica-e-nuove-opportunita-di-investimento-di-Chiara-Carrer-856-ITA.asp
7. http://www.inogate.org/
8. http://www.socar.com.tr/kurumsal-iletisim/haberler/2018-haberler//2018/07/02/shah-deniz-2-begins-gas-deliveries-to-turkey-with-tanap-project
9. http://www.wto.org/english/thewto_e/whatis_e/tif_e/fact4_e.htm
10. http://yeniazerbaycan.com/Iqtisadiyyat_e26998_az.html
11. https://21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/avrupa-birligi-arastirmalari-merkezi/arap-baharinin-golgesinde-avrupa-birligi-komsuluk-politikasi
12. https://apa.az/az/xarici_siyaset/Prezident-Ilham-liyev-Azrbaycan-Rusiya-v-Ermnistan-rhbrlrinin-istiraki-il-imzalanmis-sndin-mtnini-aciqlayib-colorredTAM-MTNcolor-614484.2020
13. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Avropa_Ittifaqi_Azerbaycan_Parlament_Amekdasliq_Komitesinin_uzvlerinden_ibaret_numayende_heyetini_qebul_edib__YENILANIB_VIDEO-1160253
14. https://bakuresearchinstitute.org/az/analysis-of-main-problems-facing-azerbaijans-non-oil-exports/
15. https://eeas.europa.eu/archives/docs/eastern/docs/eu-azerbaijan_en.pdf

16. https://eu4business.eu/news/project-launched-to-develop-non-oil-manufacturing-in-azerbaijan/
17. https://xalqqazeti.com/az/news/54321
18. https://mfa.gov.az/az
19. https://rus.postimees.ee/6878521/azerbaydzhan-rasschityvaet-na-skoroe-podpisanie-s-esnovogo-soglasheniya-o-partnerstve
20. https://www.amerikaninsesi.org/a/siyasi/4478148.html
21. https://www.economy.gov.az/article/azerbaycan-avropa-i-ttifaqi-elaqeleri-muzakire-edilib/29242#.
22. https://www.stat.gov.az/
23. https://www.wto.org/english/thewto_e/acc_e/acc_e.htm

## Cədvəllərin siyahısı


Cədvəl 1: GATT danışıqları........................................................................................29

Cədvəl 2: Aİ-nin ÜDM və adambaşına düşən ÜDM həcmi..................................46

Cədvəl 3: 2015-2019 illər üzrə digər üzv dövlətlərə ən yüksək mal ixracat dəyərinə malik 8 ölkə (mlrd. avro və %)......................................................................................48

Cədvəl 4: Əsas CPA qruplarının Aİ daxili ixracatı, 2015-2019 (mlrd. avro).........50

Cədvəl 5: Brexitdən sonra Aİ-27 ticarəti 2019 (mlrd. avro).................................53

Cədvəl 6: Əsas ticarət tərəfdaşlarının Aİ-27 ilə ticarət balansı, 2015-2019 (mlrd. avro).........................................................................................................................54

Cədvəl 7: 2015-2019-cu illərdə ən çox ixrac edilən beş mal növü (mlrd.avro)......56

Cədvəl 8: Azərbaycanın Aİ ilə malların ticarəti 2018-2020, (mlrd.avro)...............62

Cədvəl 9: Azərbaycanın Aİ ilə olan ticarətində malların tərkibi 2019, (mlrd.avro)........................................................................................................64


## Diaqramların siyahısı


Diaqram 1: Aİ-27 daxili mal ixracatı dinamikası, 2008-2019 (mlrd.avro).............48

Diaqram 2: Malların növlərinə görə Aİ daxili ixracat, 2015-2019 (malların ümumi ixracının %-i)...........................................................................................................49

Diaqram 3: Aİ-nin illər üzrə xarici ticarəti, 2009-2019 (mlrd. avro)......................52

Diaqram 4: Coğrafi regionlara görə Aİ-27 ticarəti, 2020 (mlrd. avro)....................52

Diaqram 5: Əsas ticarət tərəfdaşlarının Aİ-27 ixracatındakı payları, 2015-2019 (%)..........................................................................................................................54

Diaqram 6: Əsas ticarət tərəfdaşlarının Aİ-27 idxalatında payları, 2015-2019 (%)..........................................................................................................................55

Diaqram 7: Azərbaycan ilə Almaniya, Fransa və İtaliya arasındakı xarici ticarət dövriyyəsi, mln. ABŞ dolları, 2014-2019.............................................................65

Diaqram 8: Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində Azərbaycan ərazisindəki yük daşımalarının ümumi həcminin dinamikası, 2014-2019, (min ton)................66